RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 75 (8954) ÇƏRŞƏNBƏ, 13 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Azərbaycan daha da güclənəcək

## Üç ayın yekunları keçən il əldə edilmiş uğurların davamıdır

- BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur.
- Qoşulmama Hərəkatına hazırda Azərbaycan sədrlik edir və bildiyiniz kimi, bütün üzv dövlətlərin razılığı və dəstəyi ilə bizim sədrliyimiz bir il daha da uzadıldı. Bu, bizə göstərilmiş böyük etimadın təzahürüdür. Birmənalı şəkildə Qoşulmama Hərəkatı həm müharibədən əvvəl, işğal dövründə, həm müharibə dövründə, həm müharibədən sonra Azərbaycanla həmrəy olmuşdur.
- İslam Əməkdaşlıq Təşkilatı işğal dövründə dəfələrlə ədalətli, bizim mövqeyimizi əks etdirən qərar-qətnamələr qəbul etmişdir. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri səviyyəsindəki toplantıda bir daha bir neçə qətnamə - Azərbaycan mövqeyini dəstəkləyən, o cümlədən Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılmasına dair önəmli qərar-qətnamələr qəbul etmişdir.
- ATƏT də yeni reallıqları tam qəbul edib. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir.
- Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir.
- Postmünaqişə dövründə, əlbəttə, biz bütün bizim iqtisadiyyatla bağlı, ərazilərin bərpası ilə bağlı addımlarımızı ölçüb-biçilmiş şəkildə atmışıq və nəticələr də göz qabağındadır. Azərbaycanda postmünaqişə dövrü ilə bağlı bütün planlar yerinə yetirilir.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib.**

2

- Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübün yekunları, bu rəqəmlər faktiki olaraq heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb.
- Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb - 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir.
- Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni, bu, çox böyük rəqəmdir.
- Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq.
- Ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur.
- Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir.
- Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar.
- Keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Biz istədiyimizə nail olacağıq.

## Parlamentin komitə iclasları Şuşada keçiriləcək

**Aprelin 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasa başlamazdan əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, o, bu ilin əvvəlində komitə sədrlərinin nəzərinə çatdırmışdı ki, apreldən başlayaraq hər ay Milli Məclisin komitə iclaslarından biri Şuşa şəhərində keçiriləcək. İlk belə tədbir aprelin 8-də Milli Məclisin iki komitəsinin - Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası olub.**

Ölkəmiizn parlamentarizm tarixində həmişəlik qalacaq bu hadisə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biridir.

Spiker vurğulayıb ki, Milli Məclisin komitə iclaslarının Şuşa şəhərində keçirilməsi Prezident İlham Əliyevin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olub "Qarabağ Azərbaycandır!" həqiqətini bir daha təsdiq edir. Sahibə Qafarova qeyd edib ki, Milli Məclisin komitələrinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq tərtib olunub və komitə sədrlərinə təqdim ediləcək. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, parlamentin bu təşəbbüsü ölkə Prezidenti tərəfindən dəstəklənib.

İclasda cari məsələlərin müzakirəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputatlar Sahib Alıyev, Hikmət Məmmədov, İlham Məmmədov, Nigar Arpadarai, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı, Razi Nurullayev, Fazil Mustafa çıxış ediblər.

7

## Azərbaycan dinlərarası və sivilizasiyalararası təmas mərkəzinə çevrilib

**Azərbaycan xalqı hər zaman adət-ənənələrinə, dini inanclarına ehtiramı, sədaqəti ilə nümunə olub. Tarixin müxtəlif dövrlərində siyasi-ictimai mühitdə yaranan, hətta bəzən on illərlə davam edən ziddiyyətli münasibət, sərt qayda-qanunlar xalqı ağır sınaqlarla qarşılaşdırıb.**

Dini inanclarına görə, Azərbaycan xalqının müsibətlərə düçar edildiyi, təqiblərə, həbslərə, sürgünlərə məruz qaldığı vaxtlar olub. Ancaq heç zaman öz milli-mənəvi, dini inanclarını unutmayıb. Bütün çətinliklərə rəğmən, milli-mənəvi düşüncələrindən, dini etiqadından uzaqlaşmayıb.

Bu siyasət yetmiş il sovet hakimiyyətinin əsas fəaliyyət istiqamətlərindən biri olub. Hətta cəmiyyəti dinindən uzaqlaşdırmaq üçün "Allahsızlar cəmiyyəti" yaradıblar. Sovetlər dövründə ali məktəblərdə keçirilən ateizm dərslərinin, tarixi əhəmiyyətini belə nəzərə almadan dini məbədləri anbarlara, uşaq bağçalarına çevirmələrin, din xadimlərinin, az qala sinfi düşmən elan edilərək təqib olunmaların, həbsə, sürgünə göndərilmələrin, güllələnmə cəzalarının verilməsinin məqsədi də bu idi. Sovet hakimiyyəti rəhbərləri bununla dini dəyərləri unutdurmağa səy göstərirdilər. Amma sonunda bütün cəhdlər boşa çıxdı. Böyük faciələrlə üzləşməsi Azərbaycan xalqının öz milli-mənəvi, dini dəyərlərinə bağlılığının nə qədər dərin olduğunu təsdiq etdi.

XX əsrin sonlarında Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Uzun illər boyu köksünə vurulmuş bu ağır yaralar da sağalmağa başladı. Respublikamızda yaşayan bütün xalqlara öz dini ayinlərini həyata keçirmək üçün şərait yaradıldı.

10



## NƏYİ GÖZLƏYİRSİNİZ...

### Qələbə var, tərənnümü isə zəifdir




8

## Azərbaycanda modern sənayeləşmə yüksəliş mərhələsindədir



9

## Azərbaycan "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans"ın ilk iclasında təmsil olunub

7

## İlk "TEKNOFEST AZƏRBAYCAN" "Azercell"in baş sponsorluğu ilə keçiriləcək

12

## 2050-ci ildə dünyada qocaların sayı iki dəfə artacaq

12

## İdman tariximizdə şərəfli səhifələr yazılır




10

# Azərbaycan daha da güclənəcək

## Üç ayın yekunları keçən il əldə edilmiş uğurların davamıdır

**Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı müşavirədə giriş nitqi söylədi.**



## Prezident İlham Əliyevin giriş nitqi

- İlin üç ayı arxada qaldı. Bu gün biz görülmüş işləri təhlil edəcəyik, eyni zamanda, ilin sonuna qədər olan planlar haqqında danışacağıq. Bu ilin üç ayında ölkəmiz bütün sahələrdə uğurla inkişaf edib. Biz bu üç ayın yekunlarını keçən il əldə edilmiş uğurların davamı kimi qiymətləndirməliyik.

Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il olmuşdur. Müharibədən sonra birinci il olmuşdur. Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır.

Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur. Əlbəttə ki, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdır. Ancaq Qarabağ münaqişəsinin həlli, Azərbaycan tərəfindən birtərəfli həlli, eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu. Şuşa şəhərində bu tədbirin, bir daha demək istəyirəm ki, xüsusi əhəmiyyəti var idi və təsadüfi deyil ki, Ermənistanda bu, növbəti panikaya, isterikaya səbəb olmuşdur.

Digər aparıcı beynəlxalq təşkilatlardakı fəaliyyətimiz də uğurlu idi. BMT-dən sonra ən böyük beynəlxalq təsisat Qoşulmama Hərəkatıdır. Qoşulmama Hərəkatına hazırda Azərbaycan sədrlik edir və bildiyiniz kimi, bütün üzv dövlətlərin razılığı və dəstəyi ilə bizim sədrliyimiz bir il daha da uzadıldı. Bu, bizə göstərilmiş böyük etimadın təzahürüdür. Qoşulmama Hərəkatı Azərbaycan bu hərəkata üzv olandan dərhal sonra keçmiş münaqişə ilə bağlı ədalətli mövqe nümayiş etdirmişdir və hesab edirəm ki, müharibədən sonra bu istiqamətdə əlavə önəmli hadisələr baş vermişdir. Birmənalı şəkildə Qoşulmama Hərəkatı həm müharibədən əvvəl, işğal dövründə, həm müharibə dövründə, həm müharibədən sonra Azərbaycanla həmrəy olmuşdur.

Digər böyük beynəlxalq təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır. İslam Əməkdaşlıq Təşkilatı işğal dövründə dəfələrlə ədalətli, bizim mövqeyimizi əks etdirən qərar-qətnamələr qəbul etmişdir. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının xarici işlər nazirləri səviyyəsindəki toplantıda bir daha bir neçə qətnamə - Azərbaycan mövqeyini dəstəkləyən, o cümlədən Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılmasına dair önəmli qərar-qətnamələr qəbul etmişdir və təşkilatın rəhbərliyi azad edilmiş torpaqlara səfərlər etmişlər.

ATƏT, hansı ki, Minsk qrupuna mandat vermişdir. ATƏT də yeni reallıqları tam qəbul edib. Bu yaxınlarda ATƏT-in fəaliyyətdə olan sədri ilə mənim görüşüm olub və görüş bir daha onu göstərdi ki, ATƏT də yeni reallıqları qəbul edir və bu da çox əlamətdar hadisədir. ATƏT-in Minsk qrupuna gəldikdə, müharibədən dərhal sonra Minsk qrupunun həmsədrləri Bakıya gəlmişdilər. Bu, onların Azərbaycana müharibədən sonra birinci və sonuncu səfəri idi və o görüşlə bağlı mətbuatda kifayət qədər məlumat var, təkrar etmək istəmirəm. Bizim mövqeyimiz həmişə birmənalı olub. Biz müzakirə zamanı nəyi demişiksə, rəsmi açıqlamalarda da eyni tezisləri, eyni fikirləri səsləndirmişik. Biz bu münaqişəni özümüz həll etdik. Minsk qrupu İkinci Qarabağ müharibəsinə qədər 28 il fəaliyyətdə idi və həmsədr ölkələr bu illər ərzində Azərbaycana, Ermənistana bəlkə də yüzlərlə səfər etmişlər. Nəticə də göz qabağındadır, nəticə sıfır. Bunun səbəbləri də Azərbaycan ictimaiyyətinə məlumdur. Bu haqda çox danışmaq istəməzdim. Nəticə göz qabağındadır və bir daha demək istəyirəm ki, nəticə sıfır və Azərbaycan bu münaqişəni özü həll edib. Hərbi-siyasi yollarla həll edib. Minsk qrupuna münaqişənin həlli üçün verilmiş mandat faktiki olaraq de-yure qüvvədə olsa da, de-fakto artıq etibarsız sayıla bilər. Müharibədən keçən dövr ərzində - son Rusiya-Ukrayna müharibəsinə qədər olan dövr ərzində biz bu məsələ ilə bağlı öz fikirlərimizi bildirmişdik. Bizim xarici işlər nazirimiz Minsk qrupunun həmsədrləri ilə müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşdür və biz deyirdik ki, siz bizə deyin görək, nə ilə məşğul olmaq istəyirsiniz? Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan ərazisində Dağlıq Qarabağ inzibati ərazisi yoxdur və olmayacaq. Siz nə ilə məşğul olmaq istəyirsiniz, deyin, biz də bilək və öz fikrimizi bildirək. Bir ildən çox müddətdə bu məsələ ilə bağlı bizə hər hansı bir təklif verilməmişdir. İndiki şəraitdə isə Minsk qrupu, onun həmsədrlər formatı faktiki olaraq qeyri-funksional vəziyyətdədir. Bunu artıq bu həmsədr ölkələrin yüksəkvəzifəli şəxsləri bildirirlər və belə olan halda, əlbəttə ki, hər hansı bir qrup şəklində fəaliyyətdən söhbət gedə bilməz. Hesab edirəm ki, ATƏT bir mötəbər beynəlxalq təşkilat kimi öz rolunu oynaya bilər. Bu yaxınlarda qeyd etdiyim kimi, ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşlər əsnasında mən bildirmişdim ki, vətəndaş cəmiyyətinin nümayəndələri, media nümayəndələri, digər ictimai rəyə nüfuz, yəni təsir edə bilən şəxslər ATƏT-in fəaliyyəti çərçivəsində, yəni ki, bu format çərçivəsində görüşlər keçirə bilərlər ki, Ermənistan-Azərbaycan əlaqələri normallaşsın. İndi gündəlikdə duran məsələ budur. Dağlıq Qarabağ münaqişəsi həll olunub. İndi məsələ Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasıdır və istənilən beynəlxalq təşkilat, bu sahədə öz töhfəsini verə bilən təşkilat, əlbəttə ki, qəbuledilləndir.

Eyni zamanda, Avropa İttifaqı ilə bizim təmaslarımız müharibədən sonra daha intensiv xarakter almışdır. Avropa İttifaqı da postmünaqişə dövrünün reallıqlarını qəbul etmişdir. Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin təşəbbüsü ilə dekabr və aprel aylarında üçtərəfli görüşlər keçirilmişdir. Görüşlər haqqında məlumat verilmişdir, bu məsələ ilə əlaqədar çox da danışmaq istəmirəm. Ancaq, əlbəttə ki, həm ekspertlər, həm Azərbaycan ictimaiyyəti gördülər ki, yekun kommunikedə "Dağlıq Qarabağ" adı yoxdur, bu da təbiidir. Çünki Azərbaycan buna etiraz etmişdir və "münaqişə" sözü də yoxdur. Bu da təbiidir, çünki münaqişə yoxdur. Münaqişə həll olunub. İndi isə Avropa İttifaqı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması ilə məşğuldur və son aprel görüşündə - 6 aprel tarixində keçirilmiş görüşdə bu məsələlər müzakirə edilmişdir. Bildiyiniz kimi, Azərbaycan iki ölkə arasındakı əlaqələri normallaşdırmaq üçün 5 prinsipdən ibarət təklif vermişdir və Ermənistan tərəfi də bu təklifə müsbət yanaşmışdır və Brüssel görüşünə qədər artıq bu açıqlamalar verilmişdir. Brüssel görüşündə isə mən bunu özüm üçün, sadəcə olaraq, daha da yəni, aydınlaşdırmaq istəyirdim və aydınlaşdırdım ki, Ermənistan 5 prinsipi qəbul edir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü qəbul edilir və Ermənistan Azərbaycana ərazi iddiasından əl çəkir. Yəni, əgər bu 5 prinsipi qəbul edirsə, - bu, aprel görüşündə təsdiqləndi, - bu məsələlər bu 5 prinsipin tərkib hissəsidir. Bu, çox müsbət haldır və hesab edirəm ki, ikitərəfli əlaqələrin normallaşdırılması üçün əsas şərtdir. Razılaşdırıldı ki, həm sərhədlə, həm də sülh müqaviləsinin hazırlanması ilə bağlı işçi qrupları yaradılsın. Bildiyiniz kimi, bu günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında hesab edirəm ki, yaxın tarixdə, bəlkə də son 30 il ərzində birinci dəfə telefon söhbəti də olmuşdur. Biz bunu da müsbət qiymətləndiririk. Çünki iki ölkə arasındakı münasibətləri iki ölkə həll etməlidir. Buna köməklik göstərmək istəyənlər kömək göstərməlidirlər. Mən bunu belə görürəm, bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, sərhədin delimitasiyası ilə bağlı aprelin sonuna qədər formalaşdırılacaq işçi qruplar, eyni zamanda, sülh müqaviləsinin hazırlanmasına dair işçi qruplar tezliklə öz işinə başlamalıdır. Bu prosesə biz çox böyük ümidlərlə baxırıq və vaxt itirmək lazım deyil. Hər halda, biz bunun tərəfdarıyıq ki, vaxt itirmədən məsələnin həllinə başlayaq.

Beləliklə, bir daha demək istəyirəm, müharibədən dərhal sonra apardığımız siyasət, beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, ikitərəfli formatda böyük dövlətlərlə əlaqələrimiz, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda baş verən inkişaf və hadisələr, bax, bu reallıqlara gətirib çıxarıb. Onu da bildirməliyəm ki, biz beynəlxalq təşkilatlarla yanaşı, qonşu ölkələrlə də sıx əlaqədə idik. Bütün qonşu ölkələr yeni, postmünaqişə reallıqlarını qəbul etmişlər və bu da çox müsbət hal kimi qiymətləndirilməlidir. Eyni zamanda, 3+3 əməkdaşlıq formatının işə düşməsi də bizi sevindirir. Birinci belə görüş keçirilmişdir. Birinci görüşün gündəliyi yox idi. Bu, sadəcə olaraq, bu formatı yaratmaq üçün bir görüş idi. İkinci görüş üçün gündəliklə bağlı bizim planlarımız var, hansı məsələlər orada müzakirə olunmalıdır. Hesab edirəm ki, yaxın gələcəkdə ikinci görüş də keçirilməlidir. Yəni, vaxt itirmək lazım deyil. Bizə bu formatlar, sadəcə olaraq, görüntü naminə lazım deyildir. Bu formatlar əgər konkret nəticə verməsə, onda onun əhəmiyyəti də itəcəkdir.

Biz real işlərin tərəfdarıyıq və gələcəkdə bölgənin inkişafı ilə bağlı bizim çox aydın təsəvvürümüz var, biz bilirik nə istəyirik və öz məqsədlərimizə bundan sonra da çatmaq üçün bütün imkanlardan istifadə edəcəyik. Bax, postmünaqişə dövrü ilə bağlı əsas məsələlər bundan ibarətdir və bu işlərin böyük hissəsi 2021-ci ildə, bir hissəsi isə bu ilin üç ayında görülüb. Bu, bizə imkan verir ki, əgər bütün bu gündəlik həyatda öz əksini taparsa, bölgədə, doğrudan da Cənubi Qafqazda sülh olacaq, əmin-amanlıq olacaq, müharibə riskləri böyük dərəcədə azalacaq və beləliklə, biz rahat yaşaya bilərik. Azərbaycan xalqına xas olan yüksək xüsusiyyətləri nəzərə alaraq qurub yarada bilərik. Bunu edirik və bu haqda da bu gün danışacağıq.

Eyni zamanda, əlbəttə, biz heç vaxt bu işğalı unutmamalıyıq, erməni vəhşiliyini unutmamalıyıq. Eyni zamanda, onu da unutmamalıyıq ki, bu gün Azərbaycan güclüdür, Ermənistan zəifdir. Ermənistan tərəfinin davranışı da məhz bu amillərə söykənir. Biz real həyatda yaşayırıq və 1990-cı illərin əvvəlində Ermənistan tərəfindən bizə qarşı aparılmış etnik təmizləmə siyasətini, Xocalı soyqırımını, işğalı heç vaxt unutmamalıyıq, azərbaycanlılar kimi həmişə bizim yaddaşımızda olmalıdır. Məsuliyyətli insanlar kimi həmişə biz hər şeyə hazır olmalıyıq.

Əlbəttə, gələcəyə baxdıqda, mən tam əminəm ki, Azərbaycan daha da güclənəcək. Bu gün digər məsələləri müzakirə edərkən bir daha Azərbaycan ictimaiyyəti bunu görəcəkdir. Ermənistanın isə inkişafı onun özündən asılı olacaq, Ermənistanın qonşu ölkələrə olan münasibətindən asılı olacaq. Çünki indi hər kəsə aydındır ki, Azərbaycanla və Türkiyə ilə əlaqələri normallaşdırmadan Ermənistan inkişaf edə bilməz və onların 30 illik işğalçılıq siyasəti onların özlərinə baha başa gəldi. Onlar real müstəqil ölkə olmaq şansını itirmişlər. Biz isə 30 il ərzində, - baxmayaraq ki, torpaqlarımız işğal altında idi, - tam siyasi və iqtisadi müstəqilliyə nail olmuşduq. Ona görə bu gün inamla və qürurla öz sözümüzü bütün kürsülərdə deyirik. Ona görə Ermənistan üçün bəlkə də bu, son şansdır. Ya ölkə inkişaf edəcək, ya da daha ağır vəziyyətə düşəcək. İnkişaf üçün də, bir daha demək istəyirəm ki, ilk növbədə, Azərbaycan və Türkiyə ilə əlaqələr beynəlxalq hüquq norma və prinsiplər əsasında normallaşmalıdır.

Qeyd etdiyim kimi, biz heç nəyi unutmamışıq və unutmayacağıq. Ona görə müharibədən dərhal sonra bütün başqa bərpa işləri ilə bərabər, biz həmişə olduğu kimi hərbi sahəyə də fikir vermişik. Bildirməliyəm ki, müharibədən sonra Türkiyə və İsrail şirkətləri ilə yeni, böyük kontraktlar imzalandı. Bəzi kontraktların icrası başlanmışdır, bəzi kontraktların icrası başa çatmışdır, bəzilərinin isə icrası davam edir.

Müharibənin 44 gününün hər günü dərindən təhlil edildi və əlbəttə, bu təhlil bizə imkan verdi ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təşkil edilir. Bununla bərabər, müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılmışdır, struktur dəyişikliyi edilmişdir və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcək. Müharibədən sonra yeni qoşun növü - Komando növü yaradılmışdır və Hadrutda birinci Komando hərbi bazasının açılışında mən şəxsən iştirak etmişəm. Bu, çox güclü bir qoşun növüdür. Əminəm ki, hazırda artıq bu qoşun növü istənilən vəzifəni icra edə bilər. Biz isə sadəcə olaraq, komandoların sayını ildən-ilə artıracağıq. Hesab edirəm ki, onların sayı ilə bağlı məlumat vermək yersizdir, ancaq hər kəs bilməlidir ki, minlərlə tam hazırlıqlı döyüşçü artıq hazırlanıb və hazırlanacaq.

Bununla paralel olaraq, İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərmiş Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayı artırıldı və artırılacaq. Hərbi məsələlərin həlli üçün nə qədər vəsait lazımdırsa, o qədər də vəsait ayrılacaq və ayrılır. Ermənistanda isə bu, tam fərqlidir. Ermənistanda xaricdən nə qədər maliyyə yardımı, yaxud da qaytarılmayan kreditlər ayrılarsa, onlar o qədər də xərcləyə bilərlər. Bu məsələyə də mən aydınlıq gətirmək istəyirəm. Hesab edirəm ki, bölgədə sülhün bərqərar olunması üçün Ermənistanın silahlanmasına son qoyulmalıdır. Ermənistanın özünün silah almağa pulu yoxdur, heç vaxt da olmayıb. İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Sual olunur: Kasıb ölkədə bu qədər pul haradandır? Bu kreditlər haradandır? Bu kreditlərin sonra pulu qaytarılıbmı, qaytarılmayıbmı? Yoxsa silinib? Əgər o kreditlər verilməsəydi, mən tam əminəm ki, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Ermənistan özü gəlib boynunu büküb razılığa gələrdi, necə ki, kapitulyasiya aktını imzaladı, bütün şərtlərimizi qəbul etdi və müharibədən sonra da necə deyərlər, tam başqa mövqe sərgiləyir. Ona görə əgər yenidən Ermənistanın silahlanmasına pul ayrılacaqsa, biz bunu qeyri-dost addım kimi qiymətləndirəcəyik və öz addımlarımızı buna uyğun şəkildə atacağıq.

Biz isə əlbəttə, öz hesabımıza yaşayan ölkə kimi bundan sonra ordu quruculuğuna, bir daha demək istəyirəm, nə qədər pul lazımdırsa, o qədər də ayıracağıq.

Postmünaqişə dövründə, əlbəttə, biz bütün bizim iqtisadiyyatla bağlı, ərazilərin bərpası ilə bağlı addımlarımızı ölçüb-biçilmiş şəkildə atmışıq və nəticələr də göz qabağındadır. Azərbaycanda postmünaqişə dövrü ilə bağlı bütün planlar yerinə yetirilir. Qeyd etdiyim kimi, beynəlxalq ictimaiyyət həm siyasi nöqteyi-nəzərdən bu reallıqları qəbul edib, eyni zamanda, bizə olan maraq daha da artıb - həm hörmət, həm maraq. Bu marağı biz böyük investisiya layihələrində görürük. Təkcə bu ilin üç ayında iki böyük investisiya layihəsinə start verildi - bərpaolunan enerji üzrə iki elektrik stansiyasının təməli qoyuldu. 470 meqavat gücündə olan stansiyalar xarici investorlar tərəfindən inşa edilir və gələn il istismara veriləcək. Beləliklə, böyük həcmdə təbii qaza qənaət edib öz ixrac imkanlarımızı genişləndirə bilərik. Eyni zamanda, bu, digər investorlar üçün də hesab edirəm ki, çox önəmli bir məsələdir. Hazırda həm aparılan islahatlar, həm şəffaflıq, həm kadr islahatları nəticəsində, eyni zamanda, İkinci Qarabağ müharibəsindəki Qələbəmiz nəticəsində Azərbaycana çox böyük maraq var. İş görmək, biznes əlaqələri qurmaq müraciətləri kifayət qədər çoxdur. Bu gün dünya miqyasında Azərbaycan nadir ölkələrdəndir ki, bu qədər marağı özünə cəlb edə bilib.

Bizim iqtisadi göstəricilərimiz də çox müsbətdir. Birinci rübün yekunları, bu rəqəmlər faktiki olaraq heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb. Hazırda dünya, əgər belə demək mümkündürsə, postpandemiya dövrünə qədəm qoyur və bəlkə də "postpandemiya" sözünü işlətmək bir qədər tezdir. Amma hər halda, dünyadakı və Azərbaycandakı indiki vəziyyət buna işarə verir. Ona görə 6,8 faiz artan iqtisadiyyatımız hesab edirəm ki, böyük nailiyyət sayıla bilər. Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur. Bu rəqəmlər özlüyündə dediyim sözlərin təsdiqidir. Çünki iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması, həm ümumi daxili məhsuldakı payının, həm ixracdakı payının aşağı düşməsi - bütün bunlar reallıqlardır.

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb - 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir. Mən başqa ölkələrlə Azərbaycanı heç vaxt müqayisə etməmişəm. Amma inanmıram ki, bir çox ölkələrdə buna oxşar statistika olsun. Əlbəttə, xarici ticarət dövriyyəmiz artıb və xarici dövlət borcumuz azalıb. Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir. Yəni, biz bir il ərzində xarici borcu təqribən 600 milyon dollardan çox bir səviyyədə aşağı sala bilmişik. Bu da xarici borcun idarə edilməsi strategiyasının icrası nəticəsində mümkün olmuşdur. Mən vaxtilə qarşıya vəzifə qoymuşdum ki, biz kreditlərin alınmasına çox böyük ehtiyatla yanaşmalıyıq. Eyni zamanda, dövlət şirkətləri hansılar ki, vaxtilə heç kimdən soruşmadan özbaşına müxtəlif kreditlər götürürdülər. Sonra da bu kreditləri qaytara bilməyəndə bu ödəniş dövlətin üzərinə düşürdü. Eyni zamanda, çox qeyri-şəffaf mənzərə müşahidə olunurdu. Buna da son qoyuldu. İndi heç bir dövlət qurumu hökumətin icazəsi olmadan bir manat kredit götürə bilməz. Hər götürülən kredit də hökumət tərəfindən təsdiqlənir və kreditləri biz ancaq vacib olan layihələrə cəlb etməliyik, yüksək texnoloji komponenti olan layihələrə, eyni zamanda, azad edilmiş torpaqlarda həyata keçirilən layihələrə. Digər layihələrə kreditlərin verilməsinə ehtiyac yoxdur. Məhz buna görə biz xarici dövlət borcumuzu həm mütləq rəqəmlərlə, həm ümumi daxili məhsula nisbətdə azaltmışıq. Təbii ki, ümumi daxili məhsul da artıb və hələ ki, mən rəqəm səsləndirmək istəmirəm. Amma hesab edirəm ki, əgər biz bu templərlə inkişafı davam etsək, ilin sonuna qədər çox əhəmiyyətli bir artım olacaqdır.

*Ardı 3-cü səh.*

# Azərbaycan daha da güclənəcək

## Üç ayın yekunları keçən il əldə edilmiş uğurların davamıdır

*Əvvəli 2-ci səh.*



Xarici ticarətin balansı da çox müsbətdir, müsbət saldo cəmi üç ayda 5 milyard dollardan çoxdur. Yəni, bu, çox böyük rəqəmdir. Mütəxəssislər onu da bilirlər ki, dünyanın əksər ölkələrində saldo mənfidir. Ölkələr daha çox idxal edir, nəinki ixrac edir. Azərbaycanda isə təkcə üç ayda 5,1 milyard dollar gəlir - bizim ixracımız idxalı üstələyir. Əlbəttə ki, ilin sonuna qədər əminəm bu rəqəm daha da artacaq. Həm makroiqtisadi sabitliyə bunun əvəzolunmaz təsiri var, eyni zamanda, valyuta ehtiyatlarımızın artması da göz qabağındadır. Üç ayda da valyuta ehtiyatlarımız artıb. Ona görə, bütün bu göstəricilərlə biz haqlı olaraq fəxr edə bilərik. Amma o demək deyil ki, biz bu nailiyyətlərlə kifayətlənməliyik. Yox. İndi dünyada proseslər mənfi istiqamətdə gedir. Toqquşmalar, müharibələr alovlanır və gələcəkdə sabitliyin təmin edilməsi ilə bağlı müxtəlif fikirlər var. Dünyada ərzaq qıtlığı ola bilər, ərzaq qiymətləri qalxır. Biz bu gün bu haqda da danışacağıq. Onu da bildirməliyəm ki, biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik. Bəli, xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Ancaq öz gücümüzə, öz istedadımıza güvənirik. Bunu mən xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra, - Qarabağ və Zəngəzurda dağıntıların dünyada bənzəri yoxdur, heç İkinci Dünya müharibəsində bu qədər dağıntılar olmamışdı, - donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir. İndi yenə də İkinci Dünya müharibəsinin tarixçəsinə nəzər salmaq kifayətdir. O vaxt Marşal planı tətbiq edilmişdir. Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər. Mənim yadımdadır, işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük, Rusiya-Ukrayna müharibəsində görürük. Vaxtilə biz torpaqlarımızı işğaldan azad edəndə və məşhur "Bayraktar" dronlardan istifadə edəndə xarici ekspertlər və mətbuat bunu ölüm silahı kimi qələmə verirdi. İndi isə Rusiya-Ukrayna müharibəsində bunu mələk adlandırırlar. Fərq budur, ikili standartlar budur, bizə qarşı ədalətsizlik budur. Bu, reallıqdır. Biz isə öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq. Ona görə bir daha demək istəyirəm ki, mən hələ də ümid edirəm, beynəlxalq təşkilatlar, böyük fondlar, xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatları bir nəzər yetirəcəklər. Ağdam Qafqazın Xirosimasıdır. Bunu mən yox, beynəlxalq mütəxəssislər deyir. Ağdam kimi bütün şəhərlər ermənilər tərəfindən yerlə-yeksan edilib. Biz heç kimdən bir manat almamışıq. Ancaq bu ədalətsizliklə barışmaq da olmaz. Mən hesab edirəm ki, bizim qurumlarımız, hökumət, Prezident Administrasiyası, nazirliklər, hərə öz xətti ilə bu məsələ ilə bağlı gərək ciddi fəaliyyət göstərsin. Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi bilək. Yəni, müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı - müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Ona görə, heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar. Bir sözlə, bu mənzərə hər şeyi necə deyərlər, göstərir. Bu ilin üç ayında əldə edilmiş iqtisadi nailiyyətlər əminəm ki, ilin sonuna qədər davam edəcək. Çünki biz görürük ki, buna nail olmaq üçün imkanlar var. Beləliklə, biz bu ili də uğurla başa vuracağıq.

İndi isə bəzi məsələlərlə bağlı mən məlumat dinləmək istərdim. Birincisi, indi ilin üç ayı arxada qaldı, büdcənin icrası ilə bağlı vəziyyət nə yerdədir, maliyyə naziri məlumat versin.

Maliyyə naziri **Samir ŞƏRİFOV:** Möhtərəm cənab Prezident, hörmətli müşavirə iştirakçıları.

2022-ci ilin birinci rübünün nəticələri 2021-ci il ərzində Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlərin davam etdirilməsi kimi qiymətləndirilə bilər. Ötən ilin sosial-iqtisadi yekunları göstərmişdi ki, Vətən müharibəsində böyük Qələbədən sonra Azərbaycan çox tez bir zaman kəsiyində öz qüvvələrini səfərbər edərək iqtisadiyyatda böyük irəliləyişə nail olmuşdur. Belə ki, ötən ilin ümumi daxili məhsulu üzrə nəzərdə tutulan artım artıqlaması ilə icra edilmişdir, yəni, 2,2 faiz artıq, 3,4 faizin əvəzinə 5,6 faiz. Bu ildə də biz bu tendensiyanın davamını görürük. Həmin bu müsbət meyillər dövlət büdcəsinin cari ilin birinci rübündəki göstəricilərində də özünü büruzə vermişdir. Birinci rübdə dövlət büdcəsinin gəlirləri proqnoza qarşı 6,3 faiz və yaxud 418 milyon manat artıqlaması ilə icra olunmuşdur və dövlət büdcəsinin gəliri 7 milyard 10 milyon manat təşkil etmişdir.

Onu da qeyd etmək istərdim ki, daxilolmalar üzrə proqnoz göstəriciləri Dövlət Vergi Xidməti üzrə 539 milyon manat və yaxud 23,8 faiz, Dövlət Gömrük Komitəsi xətti ilə isə 236 milyon manat və yaxud 23,7 faiz üstələməklə icra edilmişdir. Sosial sığorta haqları üzrə isə 961 milyon manat proqnoza qarşı 1 milyard 41 milyon manat icra təmin edilmişdi. Qeyd etməliyəm ki, Dövlət Vergi Xidməti üzrə proqnozların artıqlaması ilə icra edilməsinin böyük hissəsi, yəni, 90 faizə yaxın hissəsi qeyri-neft sektoru üzrə gəlirlərin artması ilə bağlıdır. Ümumiyyətlə, qeyri-neft sektorundan gəlirlər birinci rübdə 80 faizdən yuxarı, ümumi daxilolmaların, vergi üzrə ümumi daxilolmaların 80 faizdən yuxarı hissəsini təşkil etmişdir. Belə vəziyyətdə Dövlət Neft Fondunun dövlət büdcəsinə nəzərdə tutulan transfertləri 3 milyard 180 milyon manata qarşı 2 milyard 757 milyon manat icra olunmuşdur, yəni, 423 milyon manat az. Bu da onunla bağlıdır ki, dövlət büdcəsinin icra göstəriciləri olduqca yüksək idi.

Möhtərəm cənab Prezident, onu da qeyd etməliyəm ki, birinci rüb üzrə büdcənin xərclərinin icrası adətən o qədər yüksək olmur. Amma cari ildə bu, 99 faiz olmuşdur. Hətta belə bir yüksək icra səviyyəsi şəraitində dövlət büdcəsinin gəlirlərinin bir tərəfdən fiskal orqanlar tərəfindən artıqlaması ilə yerinə yetirilməsi, digər tərəfdən isə Dövlət Neft Fondundan 423 milyon manat məbləğində vəsaitin alınmaması şəraitində dövlət büdcəsinin profisiti 1 milyard 380 milyon manat təşkil etmişdir. Bu, olduqca gözəl bir göstəricidir. Dövlət büdcəsinin xərcləri, qeyd etdiyim kimi, həmin dövr üzrə 5 milyard 630 milyon manat və yaxud 99 faiz icra edilmişdir. Əsas dövlət vəzifələri, dövlətin büdcədən maliyyə yardımları və digər proqramlarının maliyyələşdirilməsi tam təmin olunmuşdur və dövlət büdcə təşkilatları tərəfindən xəzinədarlıq orqanlarına təqdim etdiyi büdcə sifarişləri tam icrasını tapmışdır.

Qeyd etmək istərdim ki, Qarabağın yenidən qurulması proqramının icrası üçün dövlət büdcəsindən ayrılmış vəsait 2,2 milyard manatdır, birinci rüb ərzində 346 milyon manat, yaxud 16 faizə yaxın hissəsi artıq icra olunmuşdur. Dövlət əsaslı vəsait qoyuluşu proqramının icrası da təxminən eyni faiz nisbətində təmin edilmişdir. Möhtərəm cənab Prezident, Sizin tapşırıqlarınızın icrası təmin olunmuşdur.

Ərzaq təhlükəsizliyi proqramı çərçivəsində, əsasən də dünyadakı ərzaq problemləri ilə əlaqədar cari ilin birinci rübündə 220 milyon manat vəsait ayrılmışdır. Bu da kənd təsərrüfatı sahəsinə müəyyən əkin subsidiyalarının verilməsi ilə bağlıdır. Büdcənin icrası ilə bağlı bu qədər.

**Prezident İlham ƏLİYEV:** Aydındır. İndi xarici dövlət borcumuzun gələcək parametri ilə bağlı məlumat verin. Çünki mən qeyd etdim ki, strategiya var və uğurla icra edilir. 12,5 faiz o rəqəmdir ki, hər bir ölkə bu rəqəmlə fəxr edə bilər. Amma bilirsiniz, mən bir neçə il bundan əvvəl vəzifə qoymuşdum ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizindən çox olmasın. Yəni, biz buna yaxınlaşırıq. Bununla paralel olaraq, biz, əlbəttə, kreditlər də götürməliyik, bundan tam imtina etməməliyik. Ona görə, builki vəziyyət haqqında məlumat verin. Bu il dövlət büdcəsində xarici borcun qaytarılmasına nə qədər vəsait nəzərdə tutulur, təxminən nə qədər kredit alınacaq və növbəti illər üçün strategiyanın qısamüddətli parametrləri nədən ibarət olacaq? Bu barədə məlumat verin.

**Samir ŞƏRİFOV:** Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, Sizin 2018-ci il 24 avqust tarixli Sərəncamınızla təsdiq edilmiş Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyanın icrası davam etdirilməkdədir. Xarici dövlət borcunun ümumi daxili məhsula nisbətinin 10 faizə çatdırılması istiqamətində Sizin qarşımızda qoyduğunuz işlər davam etdirilir. Bu istiqamətdə vacib məsələlərdən biri də ümumi dövlət borcunun, yəni, xarici və daxili dövlət borcundan ibarət olan dövlət borcunda xarici valyutada ifadə edilmiş borcun məhz Siz dediyiniz həmin istiqamət nəzərə alınmaqla tədricən azaldılması və eyni zamanda, daxili dövlət borcunun xüsusi çəkisinin borc portfelində artırılması istiqamətində işlər görülür. Strategiya qəbul edilən zaman həmin nisbət 94 faiz idi, yəni, 94 faiz xarici dövlət borcunun payına düşürdü. Hazırda isə bu, 82 faizə endirilmişdir. Bu da onunla bağlıdır ki, daxili borcun xüsusi çəkisi artmışdır. Daxili dövlət borcunun, yəni, daxili maliyyə bazarlarının inkişaf etdirilməsi üçün biz bazara daha çox dövlət qiymətli kağızları, dövlət istiqrazlarını təklif edirik və strategiyanın qəbul edildiyi müddət ərzində həmin borc bazarda 3,2 faiz artmışdır. Hazırda 2,5 milyard manat təşkil edir və proqram davam etdirilməkdədir.

Şübhəsiz ki, dövlət büdcəsinin icrasının göstəriciləri yaxşı olduqda, yəni, fiskal orqanlar profisitlə təmin etdikdə büdcə kəsiri yaranmır və nəticə etibarilə biz bir o qədər daxili borcu buraxmırıq. Amma bu proqram davam etdiriləcəkdir.

Möhtərəm cənab Prezident, Sizin bu yaxınlarda imzaladığınız Sərəncama əsasən, ümumi dövlət borcunun ortamüddətli dövrdə ÜDM-in 20 faizi səviyyəsində saxlanılması, xarici dövlət borcunun ortamüddətli dövrdə 15 və uzunmüddətli dövrdə 10 faizə endirilməsi nəzərdə tutulub.

Bu gün vacib məsələlərdən biri də bizim borclanma strategiyamızdır - biz nə qədər əlavə borc götürəcəyik. Möhtərəm cənab Prezident, eyni zamanda, Sizin bu yaxınlarda imzaladığınız Sərəncamla Azərbaycan Respublikasının büdcə qaydası üzrə müəyyən göstəricilərin, ilk növbədə, qeyri-neft baza kəsiri üzrə nisbətlərinin təsdiq edilməsi bizim üçün müəyyən çərçivəni formalaşdırır. Həmin çərçivə əsasında ümumi borclanma növbəti üç il üçün 4,3 milyard manat məbləğində nəzərdə tutulur. Yəni, buraya borcun yenidən maliyyələşdirilməsi daxil edilmir. Biz borcun yenidən maliyyələşdirilməsini də daxil etsək, söhbət 8,3 milyard manat həcmində borcun cəlb edilməsindən gedir. Yeni cəlb ediləcək borcun 1,3 milyard manatlıq hissəsini bu günədək imzalanmış kreditlər üzrə əldə edəcəyimiz vəsaitlər təşkil edəcək. Yəni, bunlar müəyyən layihələr üzrə imzalanıb, lakin bu kreditlərin tam istifadəsi hələ ki, təmin olunmayıb. Yeni borc 3 milyard manat məbləğində nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, onu da qeyd etmək istərdim ki, bizim bugünkü ümumi daxili məhsul üzrə göstəricilərimiz kifayət qədər yüksəkdir. Bu ilin sonuna gözlənilən nəticələr də nəzərə alınmaqla, növbəti illər üzrə İqtisadiyyat Nazirliyi tərəfindən mart ayında bizə artıq yeni ortamüddətli proqnozlar təqdim edilmişdir. Bu proqnozlar nəzərə alınmaqla, hesab edirik ki, borclanma üzrə əlavə imkanlarımız ola bilər.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, bizə bu gün kifayət qədər böyük həcmlərdə borc vermək niyyətində olan beynəlxalq qurumlar var. Sizin müəyyən çıxışlarınızdan sonra Avropa İttifaqı artıq 2 milyard avro məbləğində borcun bizə verilməsi barədə niyyətlərini bildirib. Bu borcu iki bank vasitəsilə - Avropa Yenidənqurma və İnkişaf Bankı, eyni zamanda, Avropa İnvestisiya Bankı vasitəsilə verməyə hazırdırlar. Digər tərəfdən, başqa beynəlxalq maliyyə qurumları, ilk növbədə, Dünya Bankı yenidənqurma işlərində təcrübələri çox olduğuna görə öz kredit xətlərini bizə təklif edirlər. Asiya İnkişaf Bankı da Azərbaycan hökumətinin təqdim etdiyi proqramlar əsasında kifayət qədər böyük həcmlərdə borc ayırmağa hazırdırlar. Burada, belə desək, "top bizim tərəfdədir". Hansı layihələri seçməyimizdən asılı olaraq, Sizin qarşımızda qoyduğunuz borc çərçivəsi daxilində biz bu vəsaitləri cəlb edə bilərik.

**Prezident İlham ƏLİYEV:** Burada hədəflər aydındır. Mən də bir daha demək istəyirəm, xarici borcumuzu ümumi daxili məhsula nisbətdə 10 faiz səviyyəsinə endirməliyik. Buna yaxınlaşmaq üçün siz gərək təkliflər verəsiniz, biz nə qədər almalıyıq və nə qədər qaytarmaq məcburiyyətindəyik. Avropa İttifaqının kredit vermə təklifləri, əlbəttə ki, müsbət haldır. Çünki bildiyiniz kimi, müharibə başa çatandan sonra Ermənistan üçün kredit və qrant paketi təqribən 2,6 milyard avro səviyyəsində idi. Azərbaycana isə cəmi 140, ya 160 milyon. Əlbəttə ki, biz buna səssiz qala bilməzdik. Müsbət haldır ki, Avropa İttifaqı Azərbaycana da 2 milyardlıq paket elan edib. Mən bunu çox müsbət hal kimi qiymətləndirirəm. Ancaq, eyni zamanda, mən o təkliflərə də baxdım. Elə layihələr var ki, o layihələri biz borc götürmədən icra edə bilərik, təbii ki. Ancaq bununla yanaşı, bizim istəyimiz və ədalətli mövqeyimiz ondan ibarətdir ki, Ermənistana hansı şərtlərlə bu borc və ya qrant verilirsə, bu, bizə də eyni şərtlərlə təklif edilməlidir. Biz bundan istifadə edəcəyik, yoxsa etməyəcəyik, bu, başqa məsələdir. Ancaq yanaşma eyni olmalıdır. Xüsusilə nəzərə alsaq ki, Ermənistanda dağıntılara məruz qalmış bir koma da yoxdur. Azərbaycanda isə 10 min kvadratkilometr ərazidə bir salamat bina yoxdur. Mən bunu heç vaxt kənara qoya bilmərəm. Ona görə bu da nəzərə alınmalıdır. O ki qaldı, aparıcı beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımıza, mən bilirəm ki, bu yaxınlarda Dünya Bankının missiyası gəlmişdi. Mənə Baş nazir məruzə etmişdi. Onların təklifləri var. Əlbəttə ki, ənənəvi tərəfdaşlarımız Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı. Avropa İnvestisiya Bankı nisbətən təzə gəlib Azərbaycan bazarına. Birinci onların layihəsi qaz infrastrukturu ilə bağlı idi. Bir də Asiya İnfrastruktur və İnkişaf Bankı ilə də bizim əlaqələrimiz inkişaf edir. Biz o ölkələrdənik ki, bu bankın təsisçisi kimi iştirak etmişik və səhmdarıq orada. Hesab edirəm ki, biz dünyanın bu əsas maliyyə qurumları ilə işləməliyik. Sadəcə olaraq, biz bu strategiyanı vaxtaşırı təftiş etməliyik ki, daha da çox borc götürək, az götürək, çox qaytaraq, az qaytaraq. İndi siz buna baxın və təkliflər verin.

Xarici borcla bağlı başqa hansısa fikirlər var, məlumat vermək istəyən var? Buyur.

**Samir ŞƏRİFOV:** Möhtərəm cənab Prezident, mən təkcə bir şeyi qeyd etmək istərdim ki, Dünya Bankı üzrə bunlar bu gün bizə xüsusi şərtlər təklif edirlər. Biz onlarla növbəti ilin ortalarına qədər tam razılığa gəlsək, o şərtləri əldə edə bilərik.

**Prezident İlham ƏLİYEV:** Yəni, güzəştli şərtlər.

**Samir ŞƏRİFOV:** Güzəştli şərtlər. Yəni, onlar bizim Qarabağın yenidən qurulması proseslərini nəzərə alaraq, belə bir qərar qəbul ediblər ki, bizə güzəştli şərtlərlə kreditlər verə bilərlər.

**Prezident İlham ƏLİYEV:** Ondan istifadə etməliyik.

**Samir ŞƏRİFOV:** Bəli. Siz tamamilə düzgün qeyd etdiyiniz kimi, bu şərtlər çərçivəsində bizə lazım olan layihələri seçə bilərik. Yəni elə layihələr var ki, məsələn, avtomobil yollarının tikintisi, biz onlara xarici komponentli valyutanı cəlb etməməliyik. Amma biz layihələri seçərkən istənilən halda valyuta xərclərimizi nəzərə almalıyıq. Yəqin ki, bu məqsədlər üçün biz vəsait cəlb edə bilərdik.

**Prezident İlham ƏLİYEV:** Bir də dünyanın aparıcı maliyyə qurumları özəl sektora da kreditlər ayırırlar. Hesab edirəm ki, daha da böyük məbləğ ayıra bilərlər. Onlarla təmaslar əsnasında bu məsələ həmişə müzakirə edilməlidir. Çünki mən bilirəm ki, misal üçün, qeyd etdiyim bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının tikintisinə də aparıcı maliyyə qurumları kredit ayırırlar. Bizə yox, investorlara, xarici investorlara. Ona görə yerli şirkətlərə, yerli sahibkarlara da onların kreditlərinin ayrılması zəruridir. Düzdür, bizim özümüzün mexanizmimiz var və İqtisadiyyat Nazirliyi bu işləri təşkil edir. Ancaq burada özəl sektora, misal üçün, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, digər bankların daha da böyük həcmdə kreditlərinin verilməsinə mütləq baxmaq lazımdır.

Hər kəs yaxşı bilir ki, hazırda dünyada ərzaq məhsullarının qiymətləri kəskin artır. Bu proses bir neçə ay bundan əvvəl başlamışdır. Əlbəttə ki, Rusiya-Ukrayna müharibəsi bunu daha da sürətləndirib, xüsusilə nəzərə alsaq ki, Rusiya və Ukrayna dünyada aparıcı taxıl ixracatçıları arasındadırlar və digər ərzaq məhsullarını dünya bazarlarına ixrac edirlər. İndi artıq təbii qıtlıq hiss olunur və hiss olunacaq. Bizim ərzaqlıq buğda ilə təminatımız, əlbəttə ki, diqqət mərkəzində olmalıdır. Hökumətə bu məsələ ilə bağlı göstəriş verilmişdir. Operativ tədbirlər görülüb və ehtiyatlar yığılır. Biz daha çox ehtiyat yığmalıyıq. Ancaq, eyni zamanda, bilməliyik ki, belə vəziyyət uzun müddət ərzində davam edə bilər və yəqin ki, davam edəcək. Ona görə burada, ilk növbədə, daxili təminatımız artmalıdır. Bu məsələ ilə bağlı göstərişlər verildi. Həm azad edilmiş torpaqlarda əkin işlərinin daha da genişmiqyaslı aparılması üçün göstərişlər verildi, həm də digər bölgələrdə. Əlbəttə ki, burada suvarma layihələrinin uğurla icrası böyük nəticələrə gətirib çıxara bilər. Amma hər halda indiki şəraitdə ərzaq qiymətlərinin qalxması və süni qiymət artımının qarşısının alınması məsələləri, hesab edirəm ki, ən vacib məsələlərdən biridir. Bu məsələ ilə bağlı vəziyyət nə yerdədir? İqtisadiyyat naziri məlumat versin.

İqtisadiyyat naziri **Mikayıl CABBAROV:** Möhtərəm cənab Prezident, bu istiqamətdə Sizin müvafiq tapşırıqlarınıza və hökumət tərəfindən verilən müvafiq qərarlara uyğun olaraq, biz müvafiq strukturlarla birlikdə fəaliyyətimizi əlaqəli şəkildə qurmuşuq.

*Ardı 4-cü səh.*

# Azərbaycan daha da güclənəcək

## Üç ayın yekunları keçən il əldə edilmiş uğurların davamıdır



*Əvvəli 3-cü səh.*

Bu fəaliyyət üç istiqamətdən ibarətdir. Birincisi, daimi monitorinq mexanizmləri mövcuddur və biz gündəlik əsasda ərzaq, un, şəkər tozu və bir sıra digər məhsullar üzrə gündəlik anbar qalıqlarını sahibkarlıq subyektləri və dövlət agentləri ilə birlikdə monitorinq edirik. İkinci istiqamət qanunvericilik tənzimlənməsidir. Bununla bağlı bir sıra qərarlar, son olaraq Nazirlər Kabinetinin qərarı qəbul edilibdir. Biz hazırda belə bir rejim tətbiq edirik ki, o balans təmin etsin. Başqa sözlə, Azərbaycanda istehsal olunmayan və bizim idxaldan asılılığımız yüksək olan məhsulların ölkədən ixracı xüsusi nəzarət rejimi ilə həyata keçirilir. Eyni zamanda, sahibkarlıq subyektlərinin ixrac potensialının azalmaması və ixrac bazarlarının itirilməməsi üçün biz ölkədə istehsal olunan və yaxud istehsal potensialı olan məhsullara dair analoji şəkildə həmin çərçivədə fəaliyyəti tənzimləyirik ki, bu fəaliyyət də uyğun olaraq həyata keçirilə bilsin.

Nəhayət, üçüncü istiqamət sahibkarlıq subyektləri ilə fəaliyyətimizdir. Burada da dövlət tərəfindən aidiyyəti təşviq mexanizmləri tətbiq edilir. Xüsusilə mən ən son məlumat olaraq vurğulamaq istəyirəm ki, Baş nazirin 5 aprel tarixli müvafiq tapşırığına uyğun olaraq 115 milyon manat vəsaitin sahibkarlıq subyektlərinə yumşaq təşviq kreditləri kimi ayrılması istiqamətində və həmçinin strateji ərzaq məhsullarının pandemiya dövründə uğurla istifadə olunan mexanizmi Sizin müvafiq tapşırığınıza uyğun olaraq xatırlayarsınız ki, bir sıra sahibkarlıq subyektlərinin kredit borclarının, faizlərinin ödənilməsində dövlət subsidiyaları ayrılmışdı və analoji mexanizmdən istifadə edərək biz bunu edirik. Bunun məntiqi nədən ibarətdir? Aşağıdakı kimidir: daimi ehtiyatları təmin etmək məqsədilə sahibkarlar tərəfindən həmin ehtiyatların mal qalıqlarının artırılması tələb olunur. Bu da öz növbəsində onlar tərəfindən daha çox dövriyyə kapitalına ehtiyac yaranır. Biz belə çevik mexanizmlərlə işləyirik ki, bir tərəfdən sahibkarların maraqlarına toxunulmasın, digər tərəfdən dövlət qarşısında duran vəzifələr tam həcmdə yerinə yetirilsin.

Möhtərəm cənab Prezident, sualınızla bağlı son olaraq onu da qeyd etmək istəyirəm ki, 2020-ci ilin əvvəlində, pandemiyanın ilk günlərindən biz əsas təchizatçı ölkələrin bir çoxunda məhsul ixracının qadağan olunmasını, ərzaq məhsullarında bəzi malların olmamasını digər ölkələrdə müşahidə etmişik. Azərbaycanda istər o dövrdə, istərsə də, indiki dövrdə bu istiqamətdə hesab edirik ki, qənaətbəxş nəticələr əldə olunubdur.

Müvafiq tapşırıqlarınıza və mövcud vəziyyətə uyğun olaraq, ərzaq qiymətləri təbii ki, başqa bir prioritetimizdir. Bununla bağlı antiinflyasiya tədbirləri haqqında imzalanmış müvafiq qərara əsasən fəaliyyət həyata keçirilir. Bu gün münaqişədə, müharibədə olan hər iki dövlət Azərbaycan üçün ərzağın həm ixracı, həm də idxalı nöqteyi-nəzərindən vacib tərəfdaş olduğuna görə, biz çalışırıq ki, bu prosesləri də əlaqələndirilmiş şəkildə quraq.

Məruzə etmək istəyirəm ki, Azərbaycan cari ilin ilk rübündə daxili bazarı tam təmin etməklə yanaşı, müxtəlif ölkələrə 60 min ton müxtəlif çeşidli meyvələr, 37 min ton tərəvəz, 12 min ton şəkər, 3,5 min ton meyvə-tərəvəz emalı məhsulları ixrac etmişdir. Digər tərəfdən isə, biz həmin struktur asılılığımız olan məhsullar üzrə idxalın sadələşdirilməsi üçün artıq sadaladığım tədbirləri həyata keçiririk.

İnflyasiyanın təbii olaraq Mərkəzi Bankla və digər aidiyyəti strukturlarla birlikdə aradan qaldırılması üçün qısamüddətli tədbirlərlə yanaşı, hesab edirik ki, orta və uzunmüddətli tədbirlərə də dair addımlar atıla bilər. Qaldırılan məsələlərin müsbət həllinə görə, xüsusilə də kiçik və orta sahibkarlığa, ərzaq istehsalçılarına güzəştli dövlət maliyyələşməsinin təmin edilməsində kapital yardımının göstərilməsində verdiyiniz dəstəyə görə fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istərdim.

**Prezident İlham ƏLİYEV:** Mənə verilən məlumata görə, son üç ayda inflyasiya 18 faizə qalxıb. Bu, əlbəttə ki, yüksək rəqəmdir. Amma onu da bilməliyik ki, bunun bir hissəsi idxal edilmiş inflyasiyadır. Çünki dünyada ərzaq məhsullarının və digər məhsulların qiymətinin artması, təbii ki, daxili qiymətlərə də təsir edir. Ancaq, eyni zamanda, onu da bildirməliyəm ki, üç ayda əhalinin gəlirləri təxminən 20 faiz artıb və əgər biz inflyasiyanı əhalinin gəlirləri ilə müqayisə etsək, burada yenə də real gəlirlər artmış olur. Ancaq o demək deyil ki, biz buna laqeyd yanaşmalıyıq. Ona görə antiinflyasiya tədbirlərinin görülməsi, gücləndirilməsi zəruridir. Əlbəttə ki, burada əsas məsələ süni qiymət artımının qarşısının alınmasıdır. Çünki belə hadisələrdə, belə geosiyasi vəziyyətdə bəzi natəmiz sahibkarlar bundan istifadə etməyə çalışırlar və heç bir əsas olmadan qiymətləri artırırlar. Buna xüsusi diqqət göstərilməlidir. Ərzaq təminatı ilə bağlı sənin bir sözün var?

Baş nazir **Əli ƏSƏDOV:** İnflyasiyanı iki hissəyə bölmək olar. Yəni, söylədiyiniz 18 faiz ərzaq inflyasiyasıdır. Ümumi inflyasiyamızın göstəricisi üç ay ərzində 12,2 faizdir. İnflyasiyanın tərkibində idxal olunan ərzaq məhsulları 60 faizdən artıqdır. Bunun səbəbini də Sizin tərəfinizdən verilən tapşırığa uyğun olaraq iqtisadiyyat naziri ardıcıllıqla dedi. Siz o məqamı ki, dediniz, bu situasiyalarda çox vaxt qiymətlərin şişirdilməsi və sui-istifadə halları var. İlin əvvəlindən, biz subsidiyaları çörək üçün saxlayan dövrdə xalq arasında "zavod çörəyi" deyilən çörəklərin 5 qəpik artırılan qiymətlərindən sonrakı proseslər monitorinq olundu və indiyə qədər davam etdirilir və sahibkarlar da bunu bilir. Bu proseslər ciddi şəkildə nəzarətdədir. Ehtiyatlarla əlaqədar iki vacib məqamı icazənizlə qeyd edim.

Hələ pandemiya dövrünün başlanğıcında, mart ayından başlayaraq Sizin tapşırığınızla bu proseslər əsasən, ərzaq məhsulları və digər defisit məhsullar, o cümlədən respublikanın dərmanlar və tibb ləvazimatları ilə təchiz olunması istiqamətlərində aparıldı. İctimaiyyət də bilir, cənab Prezident, Ukrayna-Rusiya müharibəsi ilə əlaqədar qiymətlər, taxılın qiyməti ən pik həddə qaldırıldı. Söhbət ancaq heç qiymətdən də getmir. Söhbət ondan gedir ki, bu gün ərzaq taxılı idxal etməyin öz prosesi var. Siz dediyiniz kimi, Ukrayna və Rusiyanın dünya taxıl istehsalında aparıcı rollarını, Ukraynada bu il çətinliklər olacağını nəzərə alaraq bu ehtiyatları artırırıq. Bir məqamı da demək istəyirəm. Sizin tapşırığınızla yerli istehsal, idxaldan asılılığın azaldılması istiqamətində də konkret layihələr hazırlanır və burada foksda olan tədbirlər yaxın dövrdə təqdim olunacaq. Siz bu gün Qarabağda, işğaldan azad olunmuş ərazilərdə əkini dediniz və bizim digər böyük təsərrüfatlarda da bu iş gedir.

Cənab Prezident, Mikayıl Cabbarov dedi, hər məhsul üzrə monitorinq aparılır, əsasən də minimum istehlak bazarına daxil olan, əhali tərəfindən gündəlik istifadə olunan 12 əsas məhsulun həm qiymət baxımından, həm anbarlarda, respublikada olan ehtiyatlar baxımından günbəgün monitorinqi aparılır. Təbii olaraq, bu gün elə bir dövr gəlib ki, ölkələrin çoxu ancaq özlərinin təminatı ilə ilk prioritet edirlər. Bunları nəzərə alaraq, biz də, ilk növbədə, öz daxili ehtiyatlarımıza baxırıq. Əgər artıq yerli istehsal, planlar varsa, onlara ixrac verirlər və sahibkarların İqtisadiyyat Nazirliyinə müraciətinə əsasən beş gün ərzində operativ qaydada bunlara baxılır. Yəni, deyə bilərəm ki, bu gün Azərbaycanda əsas ərzaq məhsulları üzrə kifayət qədər ehtiyatlarımız var.

**Prezident İlham ƏLİYEV:** Aydındır. Bu məsələ ilə bağlı danışarkən, biz, ilk növbədə, ərzaqlıq buğdanın istehsalını artırmalıyıq. Əlbəttə ki, ehtiyatları yığmalıyıq. Çünki bizdə ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə biz özümüzü cəmi 25 faiz təmin edirik. Ona görə məsələ qoyulub ki, ərzaqlıq buğda ilə biz özümüzü ən azı 70-75 faiz təmin edək. Buna nail olmaq üçün potensial var, imkanlar var - həm azad edilmiş torpaqlarda, həm ölkəmizin digər yerlərində. Həm bu il, həm gələn illərdə dövlət investisiya xərcləri artırılmalıdır. Eyni zamanda, sahibkarlara məqsədyönlü kreditlər, güzəştli kreditlər verilməlidir ki, məhz bu sahə inkişaf etsin. Çünki buğda əsas ərzaq məhsuludur. Bizim həm coğrafi yerləşməyimiz, iqlimimiz, eyni zamanda, bəzi yerlərdə torpağın keyfiyyəti və şərait imkan vermir ki, biz özümüzü bu gün buğda ilə yüz faiz təmin edək. Ancaq buna çalışmalıyıq və altı ay keçməmiş biz azad edilmiş torpaqlarda indi böyük əkin işləri ilə məşğuluq. Təxirəsalınmaz tədbirlər nəticəsində ikinci dəfə əkin aparırıq və bu il haradasa 50 min hektarda əkin aparılacaq. Bu, çox yaxşı nəticədir. Həm azad edilmiş torpaqlarda, həm də bütün başqa yerlərdə məhsuldarlığı artıra biləcək tədbirlərə əlavə vəsait ayrılmalıdır. İlk növbədə, suvarma, suvarma sistemləri, gübrələr və digər məsələlər öz həllini tapmalıdır.

Bizim şəhid ailələri, müharibə əlilləri üçün inşa etdiyimiz evlərin, mənzillərin sayı artır. Bu, həm işğal dövründə prioritet məsələlərdən biri idi və İkinci Qarabağ müharibəsindən sonra bu məsələlər öz həllini tapır. Burada məsələ qoyulmuşdur ki, şəhid ailələrinin - həm Birinci Qarabağ müharibəsinin, həm İkinci Qarabağ müharibəsinin şəhid ailələrinin, müharibə əlillərinin yaşayış məsələləri tezliklə öz həllini tapsın. Bu istiqamətdə bu il və keçən il önəmli addımlar atılmışdır. Əmək və əhalinin sosial müdafiəsi naziri məlumat versin, bu işlər nə yerdədir və ilin sonuna qədər hansı işlərin görülməsi nəzərdə tutulur?

Əmək və əhalinin sosial müdafiəsi naziri **Sahil BABAYEV:** Möhtərəm cənab Prezident, Sizin ali rəhbərliyiniz ilə Azərbaycan Ordusunun Qələbəsi nəticəsində ərazilərimizin işğaldan azad olunmasından sonra həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də müharibədə iştirak edən və həyatını itirən şəhidlərimizin ailə üzvlərinə, öz sağlamlığını itirən müharibə əlillərimizə, eyni zamanda, müharibə iştirakçılarına dövlət dəstəyinin genişləndirilməsi idi. Bu istiqamətdə Sizin tapşırıqlarınıza uyğun olaraq tədbirlər bir neçə sahə üzrə aparılmışdır. İlk növbədə, sosial ödənişlərin təminatı üzrə 93 min unikal şəxsə 103 min sosial ödəniş təyin olunmuşdur. Burada həm şəhid ailəsi üzvləri, həm müharibə əlilləri, eyni zamanda, müharibə veteranları da əhatə edilmişdir. Mən xüsusi olaraq vurğulamaq istəyirəm ki, Sizin müvafiq fərman, sərəncamlarınızla 2021-ci ilin əvvəllərində bu kateqoriyadan olan insanlara ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləği 60 faizədək artırılmışdır. Bu ilin əvvəlindən isə əlilliyə görə aldıqları sosial müavinətlər də 60 faizədək artırılmışdır. Ümumilikdə qeyd etdiyim kimi, 93 min şəxsə 103 min sosial ödəniş təyin olunmuşdur.

Digər bir istiqamət məşğulluq sahəsinə dəstək tədbirləri olmuşdur. Bu çərçivədə 11 min şəhid ailəsi üzvü və müharibə əlilinə məşğulluq tədbirləri görülmüşdür. Onların yarısı özünüməşğulluq proqramlarına cəlb edilmiş və bu çərçivədə onlara kiçik ailə təsərrüfatının qurulması imkanı yaradılmışdır. Digər bir istiqamət isə işədüzəltmə, münasib işlə təminetmə proqramı olmuşdur ki, burada da məşğulluq marafonu çərçivəsində, xüsusilə sahibkarlarımızın bu proqrama aktiv qoşulması nəticəsində yaradılmış vakansiyalara iki mindən artıq şəhid ailəsi üzvü və müharibə əlilləri cəlb edilmişdir. Bu proqramın ən önəmli istiqamətlərindən biri Sizin vurğuladığınız kimi, mənzil təminatı məsələləri idi. Ötən il üç minədək mənzil məhz şəhid ailələri və müharibə əlillərinə təqdim olundu. Cari ilin birinci rübündə də 200 mənzil bu kateqoriyadan olan insanlara təqdim edildi. İlin sonunadək şəhid ailələrinə və müharibə əlillərinə 1500 mənzilin təqdim olunması planlaşdırılıb. Bu çərçivədə yaxın dövrlərdə növbəti yaşayış kompleksinin açılışı planlaşdırılır ki, ondan sonra bu proses daha da sürətlənəcəkdir.

Cənab Prezident, xüsusi olaraq vurğulayım ki, son üç il ərzində Sizin fərman-sərəncamlarınızla 6300 mənzil məhz bu kateqoriyadan olan insanlara təqdim olunub. Ümumilikdə müstəqillik dövrümüzdə bu rəqəm 12 min 500 mənzildir. Bunun 6300-ü məhz son üç ilin genişləndirilmiş proqramı çərçivəsində icra edilib ki, ilin sonunadək əlavə 1300 mənzilin də təqdim olunması, əlbəttə, bu kateqoriyadan olan insanlarımızın həyat şəraitinin yaxşılaşdırılması üçün çox önəmlidir.

Digər bir istiqamət də reabilitasiya məsələləri idi. Bu çərçivədə müharibədə yaralanmış 8 min əsgərimizə nazirlik tərəfindən 23 min reabilitasiya xidməti göstərilib. Bunu xüsusi olaraq vurğulamaq istərdim ki, əzalarını itirən 190 qazimiz bu günədək dördüncü nəsil 200 elektron protezlə təchiz edilib. Əlavə olaraq, müharibədə yaralanmış 3 minədək əsgərimizə 16 min reabilitasiya vasitəsi təqdim olunub. Bu proses də uğurla icra olunur və davamlı şəkildə həyata keçiriləcəkdir. Ümumiyyətlə, Vətən müharibəsində iştirak edib əzalarını itirən cəmi 6 qazimiz qalıb ki, onlar protezlə təmin olunmayıblar. Bunun da səbəbi onların müalicə proqramıdır. Çünki müalicənin müəyyən bir nöqtəsindən sonra məhz protezləşməyə təqdim oluna bilərlər. Bu sahədə işlərin əlaqələndirilmiş şəkildə həyata keçirilməsi üçün ötən ilin yayında Sizin verdiyiniz Fərmana uyğun olaraq, avqust ayından etibarən Vahid Əlaqələndirmə mərkəzləri yaradılmağa başlandı - həm DOST mərkəzlərində, həm də Dövlət Sosial Müdafiə Fondunun regional filiallarında. Bu günə artıq Bakı şəhəri və 33 rayonumuz Vahid Əlaqələndirmə Mərkəzi ilə əhatə olunub. Yaxın iki ay ərzində 15 rayonu birləşdirən daha üç mərkəz də yaradılacaq. Ümumiyyətlə, ötən 6 aylıq dövr ərzində bu mərkəzlərdə 26 min vətəndaşımız - şəhid ailəsi üzvü, müharibə əlili qəbul edilib və onlara 6 müxtəlif mərkəzi icra hakimiyyəti orqanının və yerli icra hakimiyyəti orqanlarının göstərdiyi 26 xidmət mərkəzləşdirilərək bu çərçivədə təqdim olunur.

Prezident **İlham ƏLİYEV:** Sağ olun.

* * *

Dövlətimizin başçısı müşavirəyə yekun vurdu.

## Prezident İlham Əliyevin yekun nitqi

- Bu ilin sonuna qədər görüləcək bəzi işlər haqqında danışmalıyıq. Mən bu gün ancaq Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərlə bağlı, planlarımız haqqında deyəcəyəm. Çünki bütün ölkə üzrə görüləcək işləri dilə gətirsəm, çox vaxt lazım olacaq. Ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir. Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir.

O ki qaldı Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Mən bu gün onların hamısını sadalasam, yenə də çox vaxt gedəcək.

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik.

Qeyd etdiyim kimi, yeni texnikanın alınması təmin edilir, o cümlədən ən müasir texnika, dronlar və digər müasir cihazlar alınır. Burada, əlbəttə ki, beynəlxalq mütəxəssislərin dəstəyinə böyük ehtiyac var. Bizim indi üç qurumumuz - ANAMA, Müdafiə Nazirliyinin bölmələri və Fövqəladə Hallar Nazirliyi minatəmizləmə işləri ilə məşğuldurlar. Əlbəttə ki, bir müddət bundan əvvəl yerli şirkətlərin buraya cəlb olunması məsələsi müzakirə edilmişdir və bildiyimə görə, yerli şirkətlər də bu işlərə qoşulur. Çünki bu təşəbbüs həm sahibkarlığın inkişafına təkan verəcək, - əfsuslar olsun ki, ölkəmizdə minatəmizləmə prosesi uzunmüddətli olacaq, - eyni zamanda, yerli şirkətlər burada təcrübə toplayıb öz xidmətlərini təqdim edə bilərlər. Xarici şirkətlərə gəldikdə, onların təklifi, əlbəttə ki, bu günə qədər qiymət baxımından bizim üçün o qədər də məqbul olmayıb. Çünki yerli şirkətlərin verdikləri qiymətlə xarici şirkətlərin verdikləri qiymətlər arasında dəfələrlə fərq var. Ona görə mən hesab edirəm ki, üç dövlət qurumu ilə bərabər, yerli şirkətlər nə qədər çox yaransa, o qədər yaxşıdır. Bir də ki, dövlət xətti ilə ən müasir maşın və mexanizmlərin alınması da təmin edilməlidir.

Azad edilmiş ərazilərdə bu il elektrik təchizatı ilə bağlı işlər davam etdiriləcək. Azad edilmiş torpaqlarda keçən il 20 meqavat gücündə 4 Su Elektrik Stansiyası inşa edilmişdir. İkisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcər rayonunda Lev çayı üzərində. Mənfur düşmən torpaqlarımızı tərk edərkən 30-dan çox elektrik stansiyasını dağıdıb, yandırıb, o stansiyaların qalıqları orada qalıbdır. Xüsusilə Kəlbəcər, Laçın rayonlarında olarkən bunu hər kəs görə bilər. Biz keçən il bu stansiyaların bərpasına başlamışıq. Bu il beş stansiya "Azərenerji" tərəfindən bərpa ediləcək və bu stansiyaların gücü 27 meqavata bərabər olacaq. Ancaq qalan stansiyaların bərpası və ondan sonra işlənməsi sahibkarlar tərəfindən olsa, daha yaxşı olar. Çünki əlbəttə, dövlət də bu işi öz üzərinə götürə bilər, ancaq dövlətin digər başqa xərcləri çoxdur - bu, birincisi. İkincisi, bu, sahibkarlar üçün də əlverişli investisiya ola bilər. Nəzərə alsaq ki, azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətləri ilə birləşdirilib, ona görə orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcək. Mən hesab edirəm ki, sahibkarlar üçün bu, çox cəlbedici ola bilər. Mən bilirəm ki, İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası bu işlə məşğuldurlar və təkliflər də verildi. Hesab edirəm ki, hər bir stansiya üzrə təkliflər verilsin və bəlkə bu müşavirədən sonra sahibkarlar da bu məlumatı məndən eşidib daha da həvəsli olacaqlar. Yaxşı olar ki, bu məsələ ilə maraqlanan sahibkarlar üçün qalan stansiyaların yerləri ilə bağlı xüsusi bir təqdimat keçirilsin, təkcə ermənilər tərəfindən dağıdılmış stansiyalardan söhbət getmir. Hazırda xüsusilə, Kəlbəcər, Laçın rayonlarında külək elektrik stansiyalarının tikintisi ilə bağlı xarici şirkətlər bizə müraciət edirlər. Əgər xarici şirkətlər üçün bu, maraqlıdırsa, deməli, burada mənfəət olacaq. Yerli şirkətləri də cəlb etməliyik, ya xarici şirkətlərlə birlikdə, ya da ki, ayrı-ayrılıqda. Cəbrayıl, Zəngilan rayonlarında Günəş Elektrik stansiyalarının potensialı həddindən artıq böyükdür. Yəni, bütün bunlardan biz səmərəli şəkildə istifadə etməliyik. Həm bərpaolunan enerji növlərinin ümumi enerji balansımızdakı payını 30 faizə artırmalıyıq, - mən bu göstərişi vermişdim, bəlkə də gələcəkdə daha çox olacaq, - həm də ki, təbii qaza qənaət edib onu indiki yüksək qiymətlərlə ixrac edə biləcəyik.

Qeyd etdiyim kimi, artıq bütün bölgələri birləşdirən xətlər var. Keçən il azad edilmiş torpaqlarda 9 elektrik yarımstansiyası inşa edilmişdir. Bu, çox böyük göstəricidir. Eyni zamanda, ən çətin relyefə malik olan Daşkəsəndən, Kəlbəcər dağlarından da elektrik xətləri çəkildi - Daşkəsəndən Kəlbəcərə. Orada dağların hündürlüyü 3500 metrdir, ağır, çətin şəraitdə, qış aylarında biz bunu bacardıq. "Azərenerji"nin mütəxəssisləri yüksək qiymətə layiqdirlər. Bu il "Xudafərin" və "Qız qalası" Su Elektrik stansiyalarının tikintisi ilə bağlı işlər sürətləndirilməlidir. İran İslam Respublikası ilə danışıqlar aparılır və hesab edirəm ki, daha da sürətlə aparılmalıdır ki, biz tezliklə burada da razılığa gələk. Çünki bu stansiyaların potensialı çox böyükdür - 240 meqavat gücündədir və bu stansiyalar inşa ediləndən sonra bunun yarısı bizə çatacaq.

*Ardı 5-ci səh.*

# Azərbaycan daha da güclənəcək

## Üç ayın yekunları keçən il əldə edilmiş uğurların davamıdır

*Əvvəli 4-cü səh.*

Beləliklə, biz bu imkanlardan da istifadə edə bilərik. "bp" şirkəti ilə Cəbrayılda Günəş Elektrik Stansiyasının tikintisi üzrə danışıqlar gedir. Ümid edirəm ki, yaxın gələcəkdə bir nəticə də olacaq. Hesab edirəm ki, bu stansiyanın çox böyük potensialı olacaq.

Bütövlükdə artıq bu rəqəmi mən səsləndirmişdim. Təkcə azad edilmiş torpaqlarda bərpaolunan stansiyaların 9 min meqavatdan çox potensialı var və biz dünyanın aparıcı xarici şirkətlərindən çoxlu təkliflər alırıq. Nəzərə alsaq ki, bizim qonşu ölkələrlə elektrik xətləri mövcuddur və ixrac imkanlarımız genişlənir və keçən il elektrik enerjisinin ixracatı 2020-ci ilə nisbətdə daha da artıb. Burada doğrudan da həm ölkə üzrə, həm Xəzər dənizini nəzərə almaq şərti ilə çox unikal bir potensial var. Amma mən bu gün azad edilmiş torpaqlarda görüləcək işlər haqqında danışarkən məhz bu məsələni diqqətinizə çatdırmaq istərdim. Eyni zamanda, Zəngilandan İran üzərindən Naxçıvana və oradan yenə də İranın enerji sisteminə və Türkiyəyə elektrik xətlərin çəkilişi də gündəlikdə duran məsələlərdəndir.

Keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır. Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var. Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.

Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq.

Onu da bildirməliyəm ki, 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır. Yəni, biz sürətlə gedirik. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir.

Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar.

Digər infrastruktur layihələrinə gəldikdə isə deyə bilərəm ki, Bərdə-Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir. Layihələr təqdim edilməlidir və aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilməlidir və mənə təqdim olunmalıdır.

Nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu ilə nəzərdə tutulur. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. O ki qaldı, Laçın Beynəlxalq Hava Limanının inşasına, bunu biz 2024-cü ilə planlaşdırırıq. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlməlidir və orada doğrudan da çox böyük torpaq işləri var. Amma o da mütləq olacaq.

Avtomobil yollarının çəkilişinə gəldikdə, bu il Naftalandan Talış kəndinə qədər yollar tam istismara verilməlidir. Bu, eyni zamanda, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Naftalan artıq beynəlxalq turizm mərkəzinə çevrilib və Suqovuşana oradan məsafə çox qısadır. Suqovuşanda da turizm imkanları bu yaxınlarda təqdim edildi - həm turizm, həm yaşayış, həm idman. Yəni, bu yolun çox böyük əhəmiyyəti var və biz Suqovuşana həm Naftalan istiqamətindən, həm də Tərtər istiqamətindən rahatlıqla gedə biləcəyik. Ona görə bu il bu yol istismara verilməlidir.

Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut avtomobil yolu, Qubadlı-Eyvazlı kəndi yolu və digər yollar var. O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni, Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar çəkilib.

İndi sərhəddə rahat xidmət etmək mümkündür. Davam edən layihələrlə bağlı Azərbaycan ictimaiyyətini məlumatlandırmaq istəyirəm. Deməli, avtomobil yolları arasında Bərdə-Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər-Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel inşa edilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol inşa edilir. Cəbrayıl-Hadrut yolu inşa olunur. Zəfər yolu açıldı, amma indi Füzuli-Şuşa 4 cərgəli magistral yol, Horadiz-Ağbənd, Ağdam-Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq, biz rahat tunellə keçəcəyik. Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi bu il davam etdirilir. Bunun da böyük rəmzi mənası var. İstisu sanatoriyası sovet vaxtında çox məşhur idi. Həm Azərbaycan sakinləri, həm sovet ittifaqının müxtəlif yerlərindən oraya gələnlər çox idi. Amma biz Mehriban xanımla İstisuda olanda dəhşətli mənzərəni gördük. Sanatoriya, su mənbələri tamamilə dağıdılıb. Mən demişəm bu vəhşi qəbilə hər yerə burnunu soxub, o cümlədən oraya. Keçmiş sanatoriyadan ancaq bəzi qalıqlar qalıb. Ona görə mən qərara gəldim ki, orada yeni, müasir otel inşa edilsin. İndi təqribən 150-160 yerlik otelin layihəsi hazırlanır. Biz müalicəvi içməli suyun istehsalına da başlamalıyıq. Bu göstəriş də verildi. İndi ilkin təmaslar olubdur və hesab edirəm ki, bu il hər iki vacib və böyük rəmzi məna daşıyan layihələrin təməli qoyula bilər. Eyni zamanda, əminəm ki, necə deyərlər, bu tarixi ədaləti bərpa edəcəyik və yenə də beynəlxalq səviyyəli kurort yaranacaq. Çünki Laçın aeroportu istifadəyə veriləndən və Toğana-Kəlbəcər avtomobil yolu, tunel çəkiləndən sonra həm Gəncə istiqamətindən, həm Laçın istiqamətindən Kəlbəcərə gəlmək çox rahat olacaq. Əminəm, çox vaxt keçməyəcək ki, İstisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında, əlbəttə ki, Şuşa şəhərinin içməli su layihəsi prioritetdir. Çünki artıq Şuşada insanlar yaşayır. Şuşada yaşayış binaları da tikilir və tezliklə insanlar qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir. Ermənilər müharibə zamanı Şuşadan qaçarkən o su xətlərini də partlatmışdılar, növbəti vəhşilik törətmişdilər və işğal dövründə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb qurutmuşdular. Bunlar vəhşiliyin təzahürləridir və bu, bir daha onu göstərir ki, Şuşa ermənilər üçün həmişə yad şəhər olub. Həmişə Şuşaya paxıllıq edirdilər, öz çirkin arzularını yaşadırdılar ki, nə vaxtsa Şuşanı onlar işğal edəcəklər. Əfsuslar olsun ki, 1992-ci ilin mayında Şuşa milli xəyanət nəticəsində işğal olundu. İndi isə biz Şuşaya qayıtmışıq, biz Şuşanın sahibləri qayıtmışıq və əbədi orada yaşayacağıq. Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, eyni zamanda, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq.



İndi digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və əlbəttə ki, biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansambla xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək. Təqdim edilən kimi mütləq vəsait ayrılmalıdır. 960 şagirdlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında "ASAN xidmət", DOST mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxlanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq.

Onu da bildirməliyəm ki, Şuşada yaşayış məhəlləsinin təməli qoyuldu, evlərin inşasına start verildi. Yeni beşulduzlu otelin inşası üçün yer seçildi. O, həmin yerdir ki, o vaxt qondarma qurum orada dırnaqarası parlament inşa etmək istəyirdi və digər şeytan yuvası orada yerləşmişdi. Müharibə zamanı o da yox oldu. İndi orada beşulduzlu otelin layihəsi mənə təqdim edildi. Şuşanın memarlığına uyğun gözəl bir bina olacaq. Şəhər meriyası binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Çünki indi Şuşada böyük tədbir keçirmək üçün yer yoxdur. Ona görə konfrans zalı meriya binasına bitişik olacaq və orada yaxın gələcəkdə ən mötəbər tədbirlər keçiriləcək.

Gələn ay Şuşada "Xarıbülbül" festivalı yenidən keçiriləcək. Keçən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu festivalda Azərbaycanda yaşayan xalqlar öz istedadını nümayiş etdirmişlər. Bu gün isə eyni zamanda, biz dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərini dəvət etmişik. Artıq məndə ilkin məlumat var, vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır. Artıq bu ənənəni də biz bərpa etmişik. Bildiyiniz kimi, TÜRKSOY Şuşanı 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan etmişdir.

Azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası bu il nəzərdə tutulur. Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalıdır, yerlər düzgün seçilməlidir. Harada kanal çəkiləcək, harada su anbarı tikiləcək - bu, doğrudan da vaxt aparan məsələdir. Ona görə mən heç kimi tələsdirmirəm. Amma, eyni zamanda, artıq təsdiq edilmiş layihələrin icra edilməsi üçün də biz mütləq vəsait tapmalıyıq. Burada da qeyd olundu ki, biz indi büdcəni profisitlə icra edirik. Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar. Yəni, bizim indi imkanımız var.

Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax, buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, - oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda, biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik. İşğal dövründə çaylarımız da ekoloji terrora məruz qalmışdır, çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Çünki biz Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilmişdi. Qışda isə buraxırdılar ki, o da daşqınlara səbəb olurdu.

İndi Qarabağda ermənilərin yaşadıqları yerdə qaz xətti nasaz vəziyyətə düşmüşdür və bir müddət qaz yox idi. Dünyaya hay-haray qaldırmışdılar ki, Azərbaycan burada humanitar fəlakət törədir. Naxçıvan qazını onlar 15 il kəsib belə vəziyyətdə saxlamışdılar. Naxçıvanda isə qış daha sərtdir. Haradasa şaxta mənfi 30 dərəcəyə çatır. Yaxşı, naxçıvanlılar 1990-cı ildən 2005-ci ilə qədər qazsız yaşamışlar. Kim məhrum etmişdi onları? Ermənilər və Ermənistan rəhbərliyi, Ermənistan dövləti.

Bir adam, bir təşkilat, bir ölkə səsini qaldırmışdı? Yox! Biganə idilər. Amma bir həftə Xankəndidə qaz olmayanda adam qalmayıb ki, bizə zəng etməsin - Amerikadan tutmuş Avropaya qədər. Birincisi, Avropanın özündə elə ölkələr var ki, orada qaz yoxdur, ümumiyyətlə yoxdur, qazlaşdırma aparılmayıb. İndi mən ad çəkmək istəmirəm. Elə ölkələr var ki, qazlaşdırmanın səviyyəsi 3-5 faizdir. Orada humanitar fəlakət hökm sürür? Bunlar bir həftə qazsız qalıblar, bu, humanitar fəlakətdir? Bəs, Naxçıvan 15 il qazsız qalanda niyə humanitar fəlakət deyildi. Sualdır bu. Bu suala cavab var? Var! İkili standartlar və ayrı-seçkilik. Biz indi qazı bərpa etmişik və ermənilər bunu qiymətləndirməlidirlər. Biz, sadəcə olaraq, xoş niyyət göstərmişik. İstəməsəydik, bərpa etməzdik. Kim bizə söz deyə bilər? Biz borclu idik onu bərpa etməyə? Yox! Bərpa etdik, ümid edirik, onlar da anlayacaq ki, Azərbaycan vətəndaşlarıdır və onlar Azərbaycan bayrağı altında yaşamalıdırlar və yaşayacaqlar. Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olacaq. Ona görə etmişik, humanizm göstərmişik. Amma Naxçıvanı qazsız qoyan o hadisəni heç vaxt unutmamışıq. Biz 2005-ci ildə İranla razılaşma əsasında İrandan Naxçıvana qaz çəkdik və Astaradan İran Astarasına qaz xətti çəkdik və svop əməliyyatları keçiririk. O vaxtdan bu günə qədər Naxçıvan belə təmin edilir, İrandan qaz alır. Amma bizim qazımız kəsilmişdir, bizim suyumuz kəsilmişdir.

Avropa Şurası Parlament Assambleyasında bir neçə il bundan əvvəl xüsusi məruzə hazırlandı və qəbul edildi - Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə bağlı məruzə. Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək. Digər çaylar, - qoy, bunu həm Azərbaycan vətəndaşları, həm dünya bilsin, ermənilər bizi nədən məhrum etmişlər, - Həkəri çayı - ən böyük çaylardan biri, istifadə edə bilmirdik. Bazarçay. Buna Bərgüşad çayı da deyilir. Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Köndələnçay, Oxçuçay. Bütün bu çayları ermənilər işğal etmişdilər, vəhşicəsinə istismar edirdilər. Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağındadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq.

Görün, işğal altında qalan su anbarları nə qədər idi. Xudafərin - 1 milyard 600 milyon kubmetr su ehtiyatı olan ən böyük su anbarı, Qız qalası, Suqovuşan, Xaçın, Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay, Ağdamkənd - bax, bu su anbarları işğal altında idi. İndi biz onları bərpa edirik və bərpa edəcəyik. Konkret layihələrə gəldikdə, mən bu sahədə hansı işlər görüləcəyini də bildirməliyəm. Həkəriçay su anbarının tikintisi nəzərdə tutulur, yeni su anbarı olacaq. Suqovuşan su anbarının və kanalın təmiri. Kanalın uzunluğu 5,2 kilometrdir, təmirdən sonra Suqovuşandan daha böyük əraziyə suyun verilməsi mümkün olacaq. Xaçınçay su anbarının və 7 kilometr uzunluğunda kanalın təmiri. Onu da bildirməliyəm ki, Xaçınçay su anbarı düz Fərrux dağının altındadır, Fərrux kəndinin düz böyründədir və ermənilərin hərbi mövqeləri bu su anbarının istismarını təhlükəyə salmışdı, yəni, böyük bir təhlükə mənbəyi idi. Dəfələrlə oradan və digər kəndlərdən Ağdam istiqamətinə atəş açılırdı. Fərrux dağını məncə, indi dünyada tanımayan yoxdur və Azərbaycanın böyük dağı olan Fərrux dağı bu gün bizim nəzarətimizdədir, Azərbaycan bayrağı orada dalğalanır. Xaçınçayın təhlükəsizliyi və bu sudan istifadə etmək üçün Fərrux dağının böyük əhəmiyyəti var. Ondan sonra Aşağı Köndələnçay, Köndələnçay-1 və Köndələnçay-2 su anbarlarının təmiri nəzərdə tutulur. Tərtərçay Sol Sahil kanalının, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının su təsərrüfatı kompleksinin yenidən qurulması, o cümlədən su mənbələrinin müəyyən edilməsi nəzərdə tutulur. Çünki sovet vaxtında olan su mənbələri bəzi səbəblərə görə uyğun olmaya bilər. Ona görə bu kompleks tədbirlər nəzərdə tutulur və Bərgüşad su anbarının layihəsinin hazırlanması bu il öz həllini tapmalıdır. Bu yaxınlarda verilən yeni təklif əsasında Zəngilan, ya da Qubadlı rayonlarının birində yeni su anbarının tikintisi nəzərdə tutulur və bu kanalların inşası bizə imkan verəcək ki, yaxın zamanlarda 10 min hektarı suvarma ilə təmin edək. Yenə də demək istəyirəm ki, bütün bu işlər ümumi su təsərrüfatı sistemimizə inteqrasiya edilməlidir.

Digər layihələrə gəldikdə bildirməliyəm ki, Ağalı kəndinin sakinləri artıq bu il Ağalıda yerləşəcəklər, orada yaşayacaqlar. Bu il Ağalı kəndinin açılışı olacaq. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Ağalı kəndindən daha böyük yaşayış yeri olacaq. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik.

Üç məktəbin inşası bu il başa çatmalıdır - Ağdamda 1 nömrəli məktəb, Cəbrayıl şəhərində məktəb və qeyd etdiyim kimi, Şuşa şəhərində məktəb. Hər üç məktəb 960 yerlikdir. Dörd xəstəxana inşa edilir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq.

Mən Ağdam və Cəbrayıl rayonlarında iki sənaye parkının təməlini qoymuşam və bu yaxınlarda iqtisadiyyat naziri mənə orada görüləcək işlər barədə məruzə etmişdir. Maraq böyükdür, yerli şirkətlər çox böyük maraq göstərirlər və mən əminəm ki, yaxın, bəlkə də 1-2 ilə, 3 ilə o parklar üçün nəzərdə tutulmuş çox böyük ərazi bəlkə çatmaya da bilər. Ona görə mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar. Başa düşürəm ki, bəlkə də ilkin mərhələdə iqtisadi cəhətdən o qədər də böyük səmərə verməyəcək. Ancaq mən bunu onların necə deyərlər, vətəndaşlıq borcu kimi qəbul edirəm və şadam ki, onlar mənim çağırışıma cavab veriblər. Eyni zamanda, azad edilmiş bölgələrin potensialını, nəqliyyat yollarını nəzərə alaraq əminəm ki, bura qoyulan hər bir manat xeyir gətirəcək.

Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq. Azad edilmiş torpaqlarda görülən işlərlə bağlı Azərbaycan xalqına bundan sonra da müntəzəm məlumat veriləcəkdir.

Sağ olun.

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018; 2018, № 3, maddə 380, № 4, maddə 634; 2019, № 11, maddə 1689; 2021, № 5, maddə 429, № 7, maddə 701) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1.1. onuncu abzasda "hüquqi şəxs" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.1.2. on ikinci abzasdan "istilik enerjisinin alınması və məişət ehtiyacları üçün" sözləri çıxarılsın;

1.1.3. on üçüncü abzasdan ", əhalinin" və "qazın yanacaq kimi istehlakı prosesində" sözləri çıxarılsın;

1.1.4. on dördüncü abzasda ", istilik enerjisinin alınması və məişət ehtiyacları üçün qazın yanacaq və müxtəlif növ məhsulların istehsalı ilə əlaqədar xammal kimi istehlakı prosesində" sözləri "və ya qeyri-məişət ehtiyacları üçün" sözləri ilə əvəz edilsin;

1.1.5. iyirminci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və maddəyə aşağıdakı məzmunda iyirmi birinci - iyirmi beşinci abzaslar əlavə edilsin:

"**müayinə** - istehlakçının qaz qurğularının və qaz xətlərinin, tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə olmasının və texniki təhlükəsizlik tələblərinə riayət olunması vəziyyətinin müəyyən edilməsi, o cümlədən nöqsan və (və ya) pozuntuların aşkar edilməsi məqsədilə həyata keçirilən fəaliyyət;

**texniki xidmət** - istehlakçının qaz qurğularının və balans mənsubiyyəti sərhədində yerləşən qaz xətlərinin (bundan sonra - qaz qurğularının və qaz xətlərinin), tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin təhlükəsiz və etibarlı istismarının təmin olunması məqsədilə müayinə aktı üzrə aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə həyata keçirilən təmir və digər əlaqədar xidmət işləri;

**tüstü bacası** - yanma məhsullarının (tüstü qazlarının) qaz qurğularından sorularaq atmosferə atılmasını təmin edən boru;

**məişət abonenti** - yaşayış evlərində və mənzillərdə, o cümlədən Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 91-ci maddəsində nəzərdə tutulan xüsusi təyinatlı yaşayış sahələrində məişət ehtiyacları üçün qazdan istifadə edən fiziki şəxs;

**ixtisaslaşmış podratçı** - işçiləri bu Qanunla müəyyən edilmiş qaydada ixtisas attestatı alan, texniki xidməti həyata keçirən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs.";

1.2. 3-cü maddə üzrə:

1.2.1. 1-ci və 2-ci hissələrə "müvafiq" sözündən sonra "icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi" sözləri əlavə edilsin;

1.2.2. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Müayinə bu Qanunun 6-2-ci maddəsinə uyğun olaraq qaz paylayıcısı tərəfindən həyata keçirilir.

Müayinə zamanı aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması məqsədilə bu Qanunun 6-3-cü maddəsinə uyğun olaraq texniki xidmət həyata keçirilir.";

1.2.3. 5-ci hissədə "sənaye qaz qurğularına" sözləri "qaz qurğularının müayinəsi və ona nəzarət" sözləri ilə, "texniki baxış" sözləri "həyata" sözü ilə əvəz edilsin;

1.2.4. 5-2-ci hissədə "sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (qaz paylayıcısının razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma)" sözləri "qaz paylayıcısının razılığı olmadan qaz paylayıcı şəbəkəyə sayğacdan kənar qoşulma (bundan sonra - qanunsuz qoşulma)" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 6-1 - 6-5-ci maddələr əlavə edilsin:

**"Maddə 6-1. Müayinə və texniki xidmət məlumatları reyestri**

1. Qaz paylayıcısı tərəfindən müayinə və texniki xidmət məlumatları üzrə reyestr (bundan sonra - Reyestr) yaradılır. Reyestrə daxil edilmiş məlumatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və istehlakçılar üçün açıq olmalıdır. Reyestrin aparılması və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

2. Qaz paylayıcısı müayinə və texniki xidmətlə bağlı məlumatları müayinənin və ya texniki xidmətin keçirildiyi vaxtdan 5 (beş) iş günündən gec olmayaraq Reyestrə daxil etməlidir.

**Maddə 6-2. Müayinə**

1. Qaz paylayıcısının işçiləri istehlakçıya 5 (beş) iş günü əvvəl sifarişli poçt göndərişi və ya istehlakçının əvvəlcədən razılığı ilə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə bildiriş təqdim etməklə (göndərməklə), bu Qanunun 6-2-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulan hallar istisna olmaqla, ildə bir dəfə (hər il noyabrın 1-dək) müayinə keçirilməsini təmin etməli, nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi formada 2 (iki) nüsxədə müayinə aktını istehlakçının (və ya onun səlahiyyətli nümayəndəsinin, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) iştirakı ilə tərtib etməli və aktın bir nüsxəsini istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud eyni ünvanda yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidir.

Müayinə zamanı nöqsan və (və ya) pozuntular aşkar edildikdə müayinə aktında texniki xidmətin qaz paylayıcısı, ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən bir aydan çox olmayan müddətdə həyata keçirilməsi barədə istehlakçının seçimi qeyd edilməlidir.

Müayinə zamanı sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə bu Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş tədbirlər görülür.

Qaz paylayıcısı tərəfindən müayinənin keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

2. Qaz paylayıcısı tərəfindən müayinə ödənişsiz həyata keçirilir.

3. İstehlakçı tərəfindən qaz qurğuları, qaz xətləri və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində nöqsan və (və ya) pozuntular aşkar edildikdə istehlakçının müraciəti əsasında təkrar müayinə qaz paylayıcısı tərəfindən 3 (üç) iş günündən gec olmayaraq aparılmalıdır. İstehlakçı təkrar müayinə üçün il ərzində 1 (bir) dəfədən çox müraciət edərsə növbəti müayinə ödənişli keçirilir. Ödənişin məbləği qaz paylayıcısı ilə istehlakçı arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Müayinə nəticəsində texniki xidmətin göstərilməsi zərurəti yarandıqda, bu Qanunun 6-3-cü maddəsi ilə müəyyən edilmiş tədbirlər görülməlidir.

4. Tüstü bacalarının istismarında təhlükəsizlik texnikası qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 6-3. Texniki xidmət**

1. Qazpaylayıcı şəbəkəyə texniki xidmət qaz paylayıcısı tərəfindən həyata keçirilir.

2. Müayinə aktında istehlakçının qaz qurğularına və qaz xətlərinə texniki xidmətin qaz paylayıcısı tərəfindən həyata keçirilməsi nəzərdə tutulduqda, o, bu Qanunun 6-2-ci maddəsinin 1-ci hissəsinə əsasən müayinə aktını tərtib etdikdən sonra 2 (iki) iş günü müddətində istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) texniki xidmətin göstərilməsi ilə bağlı müqaviləni sifarişli poçt göndərişi və ya istehlakçının razılığı ilə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə təqdim etməlidir (göndərməlidir). İstehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) müqavilə şərtləri ilə razı olduqda 3 (üç) iş günü müddətində müqaviləni imzalayaraq qaz paylayıcısına onun təqdim edildiyi (göndərildiyi) üsulla təqdim edir, razılaşmadıqda isə həmin müddətdə seçdiyi ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti barədə məlumatı bu Qanunun 6-3-cü maddəsinin 3-cü hissəsində nəzərdə tutulan qaydada qaz paylayıcısına təqdim etməlidir. Tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmət bu Qanunun 6-3-cü maddəsinin 7-ci hissəsinə uyğun olaraq yaşayış evlərinə münasibətdə istehlakçının seçdiyi ixtisaslaşmış podratçı, digər tikinti obyektlərinə münasibətdə isə bu Qanunun 6-3-cü maddəsinin 6-cı hissəsinə uyğun olaraq ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən həyata keçirilir.

3. Müayinə aktında texniki xidmətin ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən həyata keçirilməsi nəzərdə tutulduqda, istehlakçı (və ya onun səlahiyyətli nümayəndəsi, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən biri) müayinə aktının tərtib edilməsindən sonra 3 (üç) iş günü müddətində ixtisaslaşmış podratçı ilə bağladığı müqavilənin bir nüsxəsini və ya xidmət işlərinin müvafiq ixtisaslı işçi heyəti tərəfindən yerinə yetiriləcəyi barədə məlumatı onun təqdim edildiyi (göndərildiyi) üsulla qaz paylayıcısına təqdim etməlidir (göndərməlidir).

4. Bu Qanunun 6-2-ci maddəsinin 1-ci hissəsinə uyğun keçirilən müayinə zamanı aşkar edilmiş nöqsan və (və ya) pozuntuların tərtib edilmiş müayinə aktında göstərilmiş müddətdə, lakin bir aydan çox olmayan müddətdə aradan qaldırılması üçün istehlakçı qaz paylayıcısını və ya ixtisaslaşmış podratçını bunun üçün istifadə olunacaq mal-materialla təmin etməyə və ya onların, habelə görülmüş işin dəyərini ödəməyə borcludur. Texniki xidmət zamanı görülən işlərin siyahısı və onların dəyəri qaz paylayıcısı və ya ixtisaslaşmış podratçı tərəfindən təsdiq edilir və qaz paylayıcının və ya ixtisaslaşmış podratçının (olduğu halda) internet saytında yerləşdirilir, həmçinin bu Qanunun 6-3-cü maddəsinin 2-ci və 3-cü hissələrində nəzərdə tutulan müqaviləyə əlavə edilir, istifadə olunan mal-materialın dəyəri istehlakçı tərəfindən ödənilmək şərtilə qaz paylayıcı və ya ixtisaslaşmış podratçı tərəfindən təqdim edildikdə həmin mal-materialın dəyəri istehlakçı ilə qaz paylayıcısı və ya ixtisaslaşmış podratçı arasında razılaşma yolu ilə müəyyən edilir. Texniki xidmət zamanı istifadə olunan, o cümlədən qaz paylayıcı və ya ixtisaslaşmış podratçı tərəfindən təqdim edilən və dəyəri istehlakçı tərəfindən ödənilən mal-materialın, habelə görülən işlərin dəyəri texniki xidmət aktında qeyd edilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Reyestrə daxil edilmiş texniki xidmət aktlarının təhlili əsasında görülmüş işlərin dəyərinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilmiş bazar qiymətinə uyğunluğuna mütəmadi nəzarət edir, habelə əvvəlki ildə tərtib edilmiş texniki xidmət aktlarına əsasən onların orta qiymətini müəyyən edir və rəsmi internet saytında yerləşdirir. Qaz paylayıcısı və ya ixtisaslaşmış podratçılarla istehlakçılar arasında münasibətlər, eləcə də texniki xidmətin göstərilməsinə görə xidmət haqqının məbləği onlar arasında bağlanmış müqavilə ilə tənzimlənir.

5. Qaz paylayıcısı, ixtisaslaşmış podratçı və ya istehlakçının müvafiq ixtisaslı işçi heyəti texniki xidmətin həyata keçirilməsindən dərhal sonra onun nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi formada aktı (qaz paylayıcısı və istehlakçının müvafiq ixtisaslı işçi heyəti 2 (iki), ixtisaslaşdırılmış podratçı isə 3 (üç) nüsxədə) istehlakçının (və ya onun səlahiyyətli nümayəndəsinin, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinin) iştirakı ilə tərtib etməli və qaz paylayıcısı aktın 1 (bir) nüsxəsini, ixtisaslaşmış podratçı isə aktın 2 (iki) nüsxəsini istehlakçıya (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə) təqdim etməlidir. Texniki xidmət ixtisaslaşmış podratçı və ya istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən göstərildikdə, istehlakçı texniki xidmətin göstərilməsinə dair aktın bir nüsxəsini 1 (bir) iş günü müddətində qaz paylayıcısına təqdim etməlidir.

6. Yaşayış binalarının mənzil mülkiyyətçiləri (bina mənzil mülkiyyətçiləri tərəfindən bilavasitə idarə edildikdə), mənzil mülkiyyətçiləri müştərək cəmiyyəti, ixtisaslaşmış istehlak kooperativi, binanı idarə edən hüquqi şəxs və fərdi sahibkar (idarəedici təşkilat), habelə digər qazlaşdırılmış tikinti obyektlərinin mülkiyyətçiləri (istifadəçiləri) ixtisaslaşmış podratçı və ya məişət abonenti olmayan istehlakçının müvafiq ixtisaslı işçi heyəti tərəfindən binanın tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə ildə bir dəfə (hər il iyulun 1-dək) texniki xidmətin həyata keçirilməsini təmin etməli və istehlakçının müvafiq ixtisaslı işçi heyəti və ya ixtisaslaşmış podratçı tərəfindən bu Qanunun 6-3-cü maddəsinin 5-ci hissəsinə uyğun texniki xidmətin nəticəsi barədə akt tərtib edilməli və bir nüsxəsi Reyestrə daxil edilməsi üçün qaz paylayıcısına təqdim edilməlidir.

Dövlət mənzil fondu binalarında tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xətlərinə texniki xidmətin həyata keçirilməsi balans mənsubiyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ildə bir dəfə (hər il iyulun 1-dək) bu Qanuna uyğun olaraq təmin edilməli və texniki xidmətin həyata keçirilməsinə dair tərtib edilmiş aktın bir nüsxəsi Reyestrə daxil edilməsi üçün qaz paylayıcısına təqdim edilməlidir.

7. İstehlakçılar yaşayış evlərinin tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə saxlanılmasını və müayinə keçirilərkən aşkar edilmiş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün texniki xidmətin ixtisaslaşmış podratçı tərəfindən həyata keçirilməsini təmin etməlidirlər.

8. Bu Qanunun 6-3-cü maddəsinin 7-ci hissəsinə uyğun olaraq tüstü bacalarının, habelə havalandırma və havadəyişmə xətlərinin işçi vəziyyətdə olması qaz paylayıcısı tərəfindən müayinə keçirilərkən yoxlanılır.

**Maddə 6-4. Müayinəyə və texniki xidmətə nəzarət**

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Reyestrə daxil edilmiş məlumatlar əsasında bu Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərinə riayət olunmasına monitorinq keçirilməsi yolu ilə mütəmadi nəzarət edir və həmin tələblərə riayət olunmadığını müəyyən etdikdə icrası məcburi olan göstərişlər verir. Monitorinqin keçirilmə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Sahibkarlıq subyektlərinə münasibətdə monitorinq "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir.

**Maddə 6-5. İxtisaslaşmış podratçı**

1. Hüquqi şəxsin işçisinin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin ixtisaslaşmış podratçı kimi fəaliyyət göstərməsi üçün onlar energetika və texniki sahələrdə, o cümlədən qaz avadanlıqlarının təmiri və istismarı üzrə peşə təhsilinə malik olmalı, habelə müvafiq ixtisas üzrə ən azı 1 (bir) il iş təcrübəsi olmalı və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) ixtisas attestatı almalıdır.

2. İxtisaslaşmış podratçıların reyestrinin aparılmasını və onların fəaliyyətinə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

3. Bu Qanunun 6-5-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulan ixtisas attestatının forması, attestatın verilməsi, qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ixtisaslaşmış podratçıların reyestrində olan aşağıdakı məlumatları rəsmi internet saytında, habelə bu Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş reyestrdə yerləşdirir və müntəzəm olaraq yenilənməsini təmin edir:

4.1. ixtisaslaşmış podratçı fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı və ixtisas attestatı almış əməkdaşları barədə məlumatlar, hüquqi şəxs olduqda isə hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı və ixtisas attestatı almış əməkdaşları barədə məlumatlar;

4.2. ixtisas attestatının nömrəsi, verilmə və qüvvədə olma tarixi;

4.3. ixtisas attestatının qüvvədə olma müddətinin dayandırılması və ya onun ləğv edilməsi barədə məlumat.";

1.4. 13-cü maddə üzrə:

1.4.1. adında "və satılması" sözləri ", satılması və qazın verilməsinin dayandırılması" sözləri ilə əvəz edilsin;

1.4.2. 6-cı hissənin yeddinci və səkkizinci abzasları aşağıdakı redaksiyada verilsin:

"istehlakçı qaz paylayıcısının işçilərini müayinə keçirilməsi üçün onun mülkiyyətində və ya istifadəsində olan tikinti obyektinə daxil olmasına maneə törətdikdə və ya müayinənin keçirilməsinə şərait yaratmadıqda;

istehlakçı qaz paylayıcısının işçiləri tərəfindən tərtib edilmiş müayinə aktında qeyd olunmuş nöqsan və (və ya) pozuntuların aradan qaldırılması üçün bu Qanunun 6-2-ci və 6-3-cü maddələrinin tələblərini yerinə yetirmədikdə;";

1.4.3. 7-ci hissəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Qazın verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və qaz paylayıcısı tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirildikdən sonra 1 (bir) gün müddətində qazın verilməsi bərpa edilməli və aktın bir nüsxəsi istehlakçıya təqdim edilməlidir.";

1.4.4. 8-ci hissə aşağıdakı redaksiyada verilsin:

"8. Bu Qanunun 13-cü maddəsinin 8-1-ci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, qaz paylayıcısı istehlakçıya verdiyi qazın dəyərini qaz sayğacının göstəricilərinə əsasən hər ay üzrə hesablamalı və növbəti ayın 10-dək istehlakçıya bu barədə məlumat (hesab) təqdim etməlidir (göndərməlidir). "Smart-kart" tipli qaz sayğacı olan istehlakçıya istifadə etdiyi qazın dəyəri haqqında hesabın qaz paylayıcısı tərəfindən təqdim edilməsi (göndərilməsi) tələb olunmur. İstehlakçının istehlak etdiyi qazın dəyəri tam ödənildikdən sonra, qaz paylayıcısı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin istehlakçı tərəfindən ödənilməsi tələb edilə bilməz.";

1.4.5. aşağıdakı məzmunda 8-1-ci hissə əlavə edilsin:

"8-1. Qanunsuz qoşulma halları aşkar edildikdə, qaz paylayıcısı qanunsuz xətti dərhal qazpaylayıcı şəbəkədən ayırmaqla, qazın verilməsini dayandırmalıdır. Sayğaca müdaxilə, habelə qanunsuz qoşulma halları aşkar edildikdə qaz paylayıcısı bu barədə akt tərtib etməli və həmin aktın bir nüsxəsini barəsində akt tərtib edilmiş şəxsə (və ya onun səlahiyyətli nümayəndəsinə, yaxud yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə), bir nüsxəsini isə inzibati xəta haqqında iş üzrə icraata başlanılması məsələsinə baxılması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), cinayət tərkibinin əlamətləri olduqda isə cinayət təqibi orqanına təqdim etməlidir. İstehlakçının qazın talanmasında təqsirli olması həmin orqanların və ya məhkəmənin qərarı ilə müəyyən edildikdə qaz paylayıcısı vurulmuş zərərin ödənilməsini istehlakçıdan tələb etməlidir. İstehlakçı tərəfindən sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qaz paylayıcısına vurulmuş zərərin hesablanması ilə bağlı məsələlər sayğaca müdaxilə, habelə qanunsuz qoşulma nəticəsində qazdan istifadə olunduğu müddət və həmin müddətin əhatə olunduğu ilin mövsümü, əvvəlki dövrün orta gündəlik qaz sərfi, istehlakçının istifadə etdiyi qaz qurğusunun xüsusiyyətləri (növü, maksimal saatlıq qaz sərfi) və qaz sayğacının markası nəzərə alınmaqla bu Qanunun 11-ci maddəsinin 6-cı hissəsində nəzərdə tutulmuş qazdan istifadə qaydaları ilə tənzimlənir.";

1.4.6. 9-cu hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məişət qaz qurğularını istifadə edən məişət abonentləri üçün qaz sayğacı qaz paylayıcısının vəsaiti hesabına, digər istehlakçılar üçün isə qaz sayğacı istehlakçının vəsaiti hesabına təchiz edilir, quraşdırılır və dəyişdirilir.";

1.4.7. 10-cu hissəyə "orqanının" sözündən sonra "və qaz paylayıcısının" sözləri əlavə edilsin;

1.5. 22-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.";

1.6. aşağıdakı məzmunda 22-1-ci maddə əlavə edilsin:

**"Maddə 22-1. Mübahisələrə baxılma qaydası**

İstehlakçı qaz paylayıcısının qərarlarından, digər hərəkət və hərəkətsizliyindən inzibati qaydada və "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla məhkəməyə şikayət verə bilər.".

**Maddə 2.** Bu Qanun 2022-ci il mayın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 fevral 2022-ci il*

# "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin onuncu abzasında, 3-cü maddəsinin 1-ci və 2-ci hissələrində, 6-1-ci maddəsinin 1-ci hissəsinin ikinci və üçüncü cümlələrində, 6-2-ci maddəsinin 1-ci hissəsinin birinci, dördüncü abzaslarında və 4-cü hissəsində, 6-3-cü maddəsinin 4-cü hissəsinin dördüncü cümləsində, 5-ci hissəsinin birinci cümləsində və 6-cı hissəsinin ikinci abzasında, 6-4-cü maddəsinin birinci və ikinci cümlələrində, 6-5-ci maddəsinin 1-ci, 2-ci, 3-cü və 4-cü hissələrində, 13-cü maddəsinin 8-1-ci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin üçüncü cümləsində, 6-2-ci maddəsinin 1-ci hissəsinin dördüncü abzasında, 6-4-cü maddəsinin ikinci cümləsində, 6-5-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.3. həmin Qanunun 3-cü maddəsinin 1-ci və 2-ci hissələrində, 6-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 6-3-cü maddəsinin 5-ci hissəsinin birinci cümləsində, 13-cü maddəsinin 8-1-ci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları) nəzərdə tutulur;

1.6. həmin Qanunun 6-3-cü maddəsinin 6-cı hissəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları) nəzərdə tutulur;

1.7. həmin Qanunun 1-ci maddəsinin onuncu abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinin 4-cü hissəsinin dördüncü cümləsində, 6-4-cü maddəsinin birinci cümləsində, 6-5-ci maddəsinin 1-ci, 2-ci və 4-cü hissələrində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. dörd ay müddətində:

2.2.1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-1-ci maddəsinin 1-ci hissəsinin üçüncü cümləsinə uyğun olaraq, müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.2. həmin Qanunun 6-2-ci maddəsinin 1-ci hissəsinin dördüncü abzasına uyğun olaraq, qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.3. həmin Qanunun 6-4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2.4. həmin Qanunun 6-5-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq, ixtisaslaşmış podratçılara verilən ixtisas attestatının formasını, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. beş ay müddətində:

2.3.1. həmin Qanunun 3-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq, qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair tələbləri təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.2. həmin Qanunun 3-cü maddəsinin 2-ci hissəsinə uyğun olaraq, qaz qurğularının qazın atmosferə buraxılmamasına, habelə qazın təzyiqinə, temperaturuna, tərkibinə və digər göstəricilərinə dair tələbləri təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.3. həmin Qanunun 6-2-ci maddəsinin 4-cü hissəsinə uyğun olaraq, tüstü bacalarının istismarında təhlükəsizlik texnikası qaydasını təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-3-cü maddəsinin 5-ci hissəsinin birinci cümləsinə uyğun olaraq, texniki xidmətin nəticəsinə dair aktın formasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2004, № 7, maddə 526; 2007, № 6, maddə 601; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 291; 2018, № 3, maddə 410, № 4, maddə 654; 2021, № 7, maddə 728) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "yeddinci abzasında (ikinci halda)" sözləri "səkkizinci (ikinci halda) və onuncu abzaslarında" sözləri ilə əvəz edilsin və həmin bənddə "3-cü maddəsinin" sözlərindən sonra "1-ci, 2-ci hissələrində," sözləri, "8-ci maddəsinin" sözlərindən əvvəl "6-1-ci maddəsinin 1-ci hissəsinin ikinci və üçüncü cümlələrində, 6-2-ci maddəsinin 1-ci hissəsinin birinci, dördüncü abzaslarında və 4-cü hissəsində, 6-3-cü maddəsinin 4-cü hissəsinin dördüncü cümləsində, 5-ci hissəsinin birinci cümləsində və 6-cı hissəsinin ikinci abzasında, 6-4-cü maddəsinin birinci və ikinci cümlələrində, 6-5-ci maddəsinin 1-ci, 2-ci, 3-cü və 4-cü hissələrində," sözləri, "15-ci" sözlərindən əvvəl "13-cü maddəsinin 8-1-ci hissəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.2-1-ci və 2.2-2-ci bəndlər əlavə edilsin:

"2.2-1. həmin Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin üçüncü cümləsində, 6-2-ci maddəsinin 1-ci hissəsinin dördüncü abzasında, 6-4-cü maddəsinin ikinci cümləsində, 6-5-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

2.2-2. həmin Qanunun 3-cü maddəsinin 1-ci və 2-ci hissələrində, 6-2-ci maddəsinin 1-ci hissəsinin birinci abzasında və 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.3. 2.3-cü bənddə "on səkkizinci" sözləri "on doqquzuncu" sözləri ilə əvəz edilsin;

4.4. 2.4-cü bənddə "yeddinci (birinci halda) və səkkizinci" sözləri "səkkizinci (birinci halda) və doqquzuncu" sözləri ilə əvəz edilsin və həmin bənddən "13-cü maddəsinin 6-cı hissəsinin yeddinci və səkkizinci abzaslarında," sözləri çıxarılsın;

4.5. 2.5-ci bənddən "3-cü maddəsinin 4-cü hissəsinin birinci cümləsində," sözləri çıxarılsın;

4.6. 2.12-ci bənddə "yeddinci" sözü "səkkizinci" sözü ilə əvəz edilsin;

4.7. 2.15-ci bəndə "Qanunun" sözündən sonra "6-3-cü maddəsinin 5-ci hissəsinin birinci cümləsində," sözləri və "hissəsində" sözündən sonra "və 13-cü maddəsinin 8-1-ci hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

4.8. 2.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.18 - 2.20-ci bəndlər əlavə edilsin:

"2.18. həmin Qanunun 6-1-ci maddəsinin 1-ci hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları) nəzərdə tutulur;

2.19. həmin Qanunun 6-3-cü maddəsinin 6-cı hissəsinin ikinci abzasında "orqan (qurum)" dedikdə balansında dövlət mənzil fonduna aid yaşayış sahələri olan dövlət orqanları (qurumları) nəzərdə tutulur;

2.20. həmin Qanunun 1-ci maddəsinin onuncu abzasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi və Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti nəzərdə tutulur.".

5. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 6-1-ci maddəsinin 1-ci hissəsinin birinci cümləsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" nəzərə alınmaqla, müayinə və texniki xidmət məlumatları üzrə reyestrin yaradılmasını dörd ay müddətində təmin etsin və həmin informasiya sisteminin Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə zəruri tədbirlər görsün.

6. Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti bu Fərmandan irəli gələn müvafiq məsələləri həll etsin.

7. Bu Fərman 2022-ci il mayın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 aprel 2022-ci il*

## ♦Milli Məclisin iclasında

# Parlamentin komitə iclasları Şuşada keçiriləcək

**Aprelin 12-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasa başlamazdan əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, o, bu ilin əvvəlində komitə sədrlərinin nəzərinə çatdırmışdı ki, apreldən başlayaraq hər ay Milli Məclisin komitə iclaslarından biri Şuşa şəhərində keçiriləcək. İlk belə tədbir aprelin 8-də Milli Məclisin iki komitəsinin - Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclası olub.**



Ölkəmiizn parlamentarizm tarixində həmişəlik qalacaq bu hadisə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş şanlı Zəfərin yaratdığı yeni reallığın təzahürlərindən biridir.

Spiker vurğulayıb ki, Milli Məclisin komitə iclaslarının Şuşa şəhərində keçirilməsi Prezident İlham Əliyevin sərəncamı ilə elan edilmiş "Şuşa ili"nə töhfə vermək niyyəti ilə bağlı olub "Qarabağ Azərbaycandır!" həqiqətini bir daha təsdiq edir. Sahibə Qafarova qeyd edib ki, Milli Məclisin komitələrinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq tərtib olunub və komitə sədrlərinə təqdim ediləcək. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, parlamentin bu təşəbbüsü ölkə Prezidenti tərəfindən dəstəklənib.

İclasda cari məsələlərin müzakirəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputatlar Sahib Alıyev, Hikmət Məmmədov, İlham Məmmədov, Nigar Arpadarai, Aqiyə Naxçıvanlı, Fəzail Ağamalı, Razi Nurullayev, Fazil Mustafa çıxış ediblər.

Çıxış edənlər 2018-ci il 11 aprel tarixli prezident seçkilərində Azərbaycan xalqının müdriklik nümayiş etdirərək cənab İlham Əliyevi növbəti dəfə prezident seçməsindən ötən müddətdə ölkədə gedən inkişaf proseslərinə nəzər salıblar, bu müddətdə Azərbaycanın iqtisadi-siyasi həyatında baş verən mühüm nailiyyətləri qeyd ediblər. Deputatlar Ümummilli Lider Heydər Əliyevin dövlətçilik strategiyasını uğurla inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi dövrünü Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, iqtisadi və hərbi qüdrətinin güclənməsi, beynəlxalq aləmdə nüfuzunun artması dövrü kimi xarakterizə ediblər.

Bildirilib ki, 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən şanlı zəfər son iki yüz illik dövlətçilik tariximizin ən böyük təntənəsi, milli maraqlara və bəşəri dəyərlərə söykənən dövlət siyasətinin, müdrik rəhbərliyin məntiqi qalibiyyətidir.

Cari məsələlərin müzakirəsində deputatlar həmçinin gündəmdə olan bir sıra mövzulara dair fikirlərini açıqlayıblar, seçiciləri düşündürən məsələləri diqqətə çatdırıblar.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İclasın gündəliyi barədə məlumat verən spiker Sahibə Qafarova bildirib ki, müzakirəyə 6 məsələ çıxarılıb. Birinci və ikinci məsələlər Milli Məclisin qərar layihələridir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq Milli Məclis Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir. Dövlət başçısı tərəfindən Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Milli Məclisə müvafiq təqdimatlar göndərilib və parlament müvafiq qərar layihələri hazırlayıb.

Sahibə Qafarova gündəliyin birinci məsələsinin Elman Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyündən azad olunması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi olduğunu bildirib.

Bu məsələ ilə bağlı məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Azərbaycan Prezidentinin imzası ilə daxil olan Elman Sirac oğlu Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvlüyündən azad olunması haqqında təqdimat İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə edilib, komitə təqdimata müsbət rəy verib.

Qərar layihəsi səsə qoyulub və qəbul edilib.

Gündəliyin ikinci məsələsi olan Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi barədə də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Bildirib ki, Azərbaycan Prezidentinin imzası ilə daxil olan Taleh Tahir oğlu Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında daxil olan təqdimat da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilib və komitə təqdimata müsbət rəy verib.

Məsələ ilə bağlı Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzovun fikirləri dinlənildikdən sonra qərar səsə qoyularaq qəbul edilib.

İclasda iştirak edən Taleh Kazımov ölkə Prezidentinə ona göstərdiyi etimada görə minnətdarlığını ifadə edib və parlamentə onun haqqında təqdimatı dəstəklədiyi üçün təşəkkür edib.

Milli Məclisin Sədri Taleh Kazımovu təbrik edərək ona yeni vəzifəsində uğurlar arzulayıb.

Sonra iclasda "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında qanun layihəsi müzakirəyə təqdim olundu. Layihə barədə məlumat verən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Məmmədov bildirib ki, bu beynəlxalq sənəd üç ölkənin xüsusi təyinatlı qüvvələrinin birgə təliminin keçirilməsinin şərtlərini, təlimdə iştirak edənlərin öhdəliklərini özündə ehtiva edir.

Məsələnin baxıldığı Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxışında layihənin əhəmiyyətindən danışıb, sənədin xüsusi təyinatlıların azad etdiyi Şuşa şəhərində keçirilən Milli Məclisin ilk komitə iclasında müzakirə olunmasının da rəmzi məna daşıdığını vurğulayıb.

Milli Məclisin deputatı Aydın Mirzəzadənin sənəd və onun Şuşa şəhərində ilk dəfə olaraq Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin birgə iclasında qəbulu ilə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin növbəti iki məsələsinin ikinci oxunuşda olan qanun layihələri olduğunu qeyd edən spiker "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (ikinci oxunuş) müzakirəyə çıxarıb.

Məsələ ilə bağlı məlumat verən Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev layihədə ən çox maraq doğuran müddəalar, eləcə də əvvəlki oxunuşda müzakirələr zamanı deputatların səsləndirdikləri fikirlər haqqında ümumi izahat verib. Vurğulayıb ki, 9 fəsil 40 maddədən ibarət olan qanun layihəsinin müddəaları həyat və sağlamlığın qorunmasına xidmət edir. Komitə sədri layihədə terminlərin geniş anlayışının verilməsinin qanunla bağlı mühüm məqamlara aydınlıq gətirdiyini, həmçinin sənəddə qida təhlükəsizliyi sahəsində dövlət tənzimləməsi və dövlətin vəzifələrinin aydın şərh edildiyini bildirib.

Tahir Rzayev layihənin qida təhlükəsizliyi sahəsində günün tələbləri ilə uzlaşdığını söyləyib. Qeyd olunub ki, qida təhlükəsizliyi sahəsində qeydiyyat, təsdiq, sertifikatlaşdırma və izləmənin həyata keçirilməsi, qida məhsullarının təhlükəsizliyinə dövlət nəzarəti məsələsi qanun layihəsində geniş şərh edilib və mövcud tələblərə uyğun əsaslandırılıb.

Müzakirələrdə komitə və komissiya sədrləri Siyavuş Novruzov, Hicran Hüseynova, Eldar Quliyev, deputatlar Fazil Mustafa, Tahir Kərimli, Azər Badamov, Vüqar Bayramov, Əli Məsimli, Etibar Əliyev, İlham Məmmədov, Cavid Osmanov, Rauf Əliyev, Fəzail Ağamalı, Sevil Mikayılova çıxış edərək layihə ilə bağlı fikirlərini və təkliflərini səsləndiriblər.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin növbəti məsələsi olan Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. Bildirib ki, sənəddə cinayət mühakimə icraatının elektron formada aparılmasını tənzimləyən Cinayət-Prosessual Məcəlləsinin 51-1-ci maddəsinə dəyişiklik edilməsi təklif edilib və əvvəlki oxunuşda komitəyə layihədə dəyişiklik edilməsi ilə bağlı heç bir təklif daxil olmayıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda son olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Layihə barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyi kommersiya fəaliyyəti iştirakçısının öz hüququndan sui-istifadə etməklə, xarici valyuta vəsaitlərini xaricdən qaytarmadığı halda dövlətə vurduğu ziyanın miqdarı iyirmi min manatadək olduqda subyektin məsuliyyətini inzibati xəta, həmin məbləğdən yuxarı olduqda cinayət məsuliyyəti kimi müəyyən edib. Qeyd olunub ki, İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsindən fərqli olaraq Cinayət Məcəlləsinin 208-ci maddəsinin dispozisiyasının qüvvədə olan redaksiyası bu cinayətin subyekti kimi yalnız təşkilat rəhbərlərini nəzərdə tutduğu üçün digər rezidentlər bu halda cinayət məsuliyyətindən kənarda qalır. Qeyd edilən hüquqi boşluğun aradan qaldırılması məqsədilə Cinayət Məcəlləsinin 208-ci maddəsində müvafiq dəyişikliyin aparılması təklif olunub.

Qanun layihəsi ilə bağlı deputat Əminə Ağazadənin fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Elman Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvlüyündən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Elman Sirac oğlu Rüstəmov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvlüyündən azad edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 12 aprel 2022-ci il*

## Taleh Kazımovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Taleh Tahir oğlu Kazımov Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsinə təyin edilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 12 aprel 2022-ci il*

## Azərbaycanın müdafiə naziri Türkiyə Respublikası Baş Qərargahının nümayəndə heyəti ilə görüşüb



**Aprelin 12-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Baş Qərargahının kəşfiyyat rəisi korpus generalı Rafet Dalkıranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan müdafiə naziri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində aparılan islahatların davam etdirildiyini qeyd edib.

R.Dalkıran qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin vacibliyini xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri, eləcə də maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan və Qırğızıstanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

**Aprelin 12-də Azərbaycan Respublikası və Qırğız Respublikası Xarici İşlər nazirlikləri arasında videokonfrans formatında siyasi məsləhətləşmələr keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, məsləhətləşmələrdə Azərbaycan tərəfindən nümayəndə heyətinə nazir müavini Xələf Xələfov, Qırğızıstan tərəfindən isə nümayəndə heyətinə nazir müavini Aybek Moldoqaziyev rəhbərlik edib. Görüş zamanı tərəflər ikitərəfli münasibətlərin gündəliyində duran aktual mövzuları, o cümlədən siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Bundan əlavə, tərəflər regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıblar.

İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsi baxımından qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulanıb.

## Azərbaycanın xarici işlər naziri ilə Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi arasında telefon danışığı olub

**Aprelin 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər Avropa İttifaqı Şurası prezidentinin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderləri arasında Brüsseldə baş tutan görüşün davamı olaraq bölgədə baş verən son hadisələr, iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində addımların atılması, o cümlədən gələcək sülh sazişinin hazırlanması üzrə iş, Birgə Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar.

## Azərbaycan "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans"ın ilk iclasında təmsil olunub

**Aprelin 7-də Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və İsveçrə tərəfinin təşəbbüsü ilə yaradılmış "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans"ın ilk iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda alyansa indiyədək qoşulmuş 10 dövlətin (Azərbaycan, Argentina, Estoniya, Küveyt, Meksika, Nigeriya, Norveç, Peru, Koreya Respublikası və İsveçrə) nümayəndələri iştirak ediblər.

Tədbiri BQXK-nin vitse-prezidenti Jil Karbonye açıb, son beş ildə dünyada itkin düşmüş şəxslərin sayının 75 faiz artaraq 173 800-ə çatdığını qeyd edib, problemə qlobal səviyyədə diqqəti cəlb etmək və bu sahədə qlobal öhdəliklərin icrasını təşviq etmək üçün Qlobal Alyansın yaradıldığını bildirib.

Tədbirdə ölkəmiz Xarici İşlər Nazirliyi və Cenevrədəki diplomatik nümayəndəliyimiz tərəfindən təmsil edilib.

Tədbir iştirakçıları Azərbaycanda itkin düşmüş şəxslər, onların taleyinin müəyyənləşdirilməsi üçün milli səviyyədə görülən işlər, Başlıbeldə kütləvi şəkildə qətlə yetirilmiş insanların qalıqlarının torpaqlarımızın işğaldan azad edilməsindən sonra identifikasiya edilməsi, Daşaltı, Edilli, Sırxavənd və Fərrux kəndlərində kütləvi məzarlıqların aşkarlanması, ərazilərin minalarla kəskin çirkləndirilməsinin qalıqların tapılmasına maneə törətməsi, Azərbaycanın bu problemə beynəlxalq səviyyədə diqqəti cəlb etmək üçün göstərdiyi səylər və bu xüsusda BMT Baş Assambleyası tərəfindən qəbul edilən "İtkin düşmüş şəxslər" qətnaməsi barədə məlumatlandırılıb. Qlobal Alyansın itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılmasının vacibliyinə qlobal səviyyədə diqqətin cəlb edilməsi və bu sahədə əməkdaşlığa ciddi töhfə verəcəyinə ümid ifadə olunub.

Qeyd edək ki, "İtkin düşmüş şəxslər üçün Qlobal Alyans" 2021-ci il mayın 11-də Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və İsveçrə tərəfinin təşəbbüsü ilə yaradılıb. Azərbaycan bu ilin yanvar ayında BQXK-nin dəvəti ilə bu təşəbbüsə qoşulub. Ölkəmiz Alyansa BQXK-nin prezidenti Peter Maurerin Azərbaycanın münaqişə nəticəsində itkin düşmüş minlərlə insanın taleyinin aydınlaşdırılması ilə bağlı beynəlxalq öhdəliklərə sadiqliyi, bu məqsədlə 1990-cı illərdən başlayaraq itkin düşmüş şəxslər barəsində məlumatların toplanması və texniki dəstək sahəsində BQXK ilə əməkdaşlığı, eləcə də BMT Baş Assambleyasının "İtkin düşmüş şəxslər"ə dair qətnaməsinin əsas müəllifi kimi qlobal səviyyədə oynadığı rolun vacibliyinə vurğu edən müraciəti əsasında qoşulub.

◆ Bu barədə düşünək





# NƏYİ GÖZLƏYİRSİNİZ...

## Qələbə var, tərənnümü isə zəifdir









Həyatda möcüzəyə bənzər, möcüzə təsiri bağışlayan hadisələr çox olur!

Adətən belə hadisələr insanlarda heyrət, xoş mənada təəccüb və heyranlıq duyğuları yaradır!

**Baş verən möcüzə həyatımızla, ümumi, milli maraqlarımızla bağlı olduqda hədsiz dərəcədə sevinir, qürur və fəxarət hissi duyur, həmin möcüzəni yaradanlara sonsuz təşəkkür və minnətdarlığımızı bildiririk.**

Təşəkkür və minnətdarlığın forması isə çoxsaylıdır, müxtəlifdir.

MƏSƏLƏN:

* Adi insanlar öz duyğularını xoş sözlərlə;

* Yazıçılar və şairlər yeni yaratdıqları roman, povest, şeir və poemalarla;

* Jurnalistlər müxtəlif janrlı yazılarla;

* Rəssamlar tablolarla;

* Bəstəkarlar yeni bəstələri ilə;

* Dramaturqlar dram əsərləri ilə;

* Kino işçiləri isə müxtəlif sənədli, bədii və televiziya filmləri ilə, başqa sözlə, hər sənətin öz ifadə vasitəsilə münasibət və minnətdarlıqlarını bildirirlər, həm də bu möcüzənin təsirini uzadaraq əbədiləşdirirlər.

*Azərbaycan xalqı uşaqdan böyüyədək belə bir möcüzənin 2020-ci ilin 44 günü ərzində şahidi oldu!*

Həm də yaşadı!

* Xoşbəxtcəsinə yaşadı!

* Sevinərək yaşadı!

* Qürur duyaraq yaşadı!

* Qəhrəman şəhidlərini ağlayaraq yaşadı!

**Bütövlükdə bu möcüzəni bizə, həm də dünya azərbaycanlılarına, bütün Azərbaycansevərlərə Müzəffər Ali Baş Komandan İlham Əliyev yaşatdı!**

*İlham Əliyev XXI əsrin ən yeni müharibəsini apardı!*

*İlham Əliyev 44 gün ərzində düşmən ordusunu məhv etdi!*

*İlham Əliyev Ermənistanı öz qarşısında diz çökdürdü, "dəmir yumruğ"u ilə belini sındırdı!*

*İlham Əliyev aman diləyən, ona-buna yalvaran, daban yalayan düşmənə kapitulyasiya aktını imzalatdırdı!*

*İlham Əliyev təkcə döyüş meydanında deyil, diplomatiya və informasiya müharibəsində də düşmənə qalib gəldi!*

*İlham Əliyev bu müharibədə təkcə Ermənistanı, dünya erməniliyini deyil, Ermənistanın müdafiəçilərini və havadarlarını da məğlubiyyətə uğratdı!*

*İlham Əliyev 30 il ərzində BMT-nin, ATƏT-in, digər beynəlxalq qurum və təşkilatların görməli olduğu, lakin görə bilmədiyi işi 44 gün ərzində həyata keçirdi!*

*İlham Əliyev 44 gün ərzində əsl möcüzə yaradaraq Azərbaycan xalqının ən ülvi, ən müqəddəs arzusunu gerçəkləşdirdi!*

*İlham Əliyev xalqımızı qalib xalqa, dövlətimizi qalib dövlətə, vətəndaşlarımızı məğrur və qürurlu insanlara çevirdi!*

**Beş əsrdə ilk dəfə olaraq Azərbaycan itirilmiş torpaqlarını geri qaytardı!**

**İkiəsrlik Qarabağ münaqişəsinə müvəffəqiyyətlə yekun vuruldu!**

**Status da, ATƏT-in Minsk qrupu da tarixin arxivinə göndərildi!**

**Otuz il yurd həsrəti çəkən, bir çoxları ağır və çətin vəziyyətdə yaşayan, ikili standartların ağrı-acısını daşıyan insanlarımızı xoşbəxt günlərə çıxardı!**

Müharibənin gedişində çoxsaylı müraciətlər etdi, bəyanatlar verdi, dünya KİV-inin, qəzetlərin və telekanalların suallarını cavablandırdı!

Biz hamımız evimizdə, rahat kreslomuzda oturaraq müharibənin gedişini əks etdirən epizodlara baxdıq, düşmənin canlı qüvvəsinin, zirehli texnikasının, silah-sursatının necə məhv edilməsini izlədik!

*Bütün bunlar möcüzə deyilmi?!*

*Bütün bunlar tarix deyilmi?!*

**Bəs bu möcüzələri bədii ədəbiyyatda, kino sənətində, televiziya filmlərində, rəssamlıq və musiqidə necə əks etdiririk, şərəf tariximizə çeviririkmi?!**

**İndiki və gələcək nəsillərə nə sayaq çatdırırıq?!**

**Qısaca desək, çox zəif və yarıtmaz!**

Əslində, epizodik şəkildə, bəzən isə bəsit formada!

Axı bu, 5 əsrdə bir dəfə baş verən hadisədir!

Axı bu, 2 əsrlik münaqişəyə cəmi 44 gündə son qoyulmasıdır!

Axı bu, Azərbaycan əsgər və zabitlərinin kütləvi qəhrəmanlığı və rəşadətidir!

Axı bu, şəhidlərimizin müqəddəs qanı ilə qazanılan möhtəşəm zəfərdir!

**Bu, bir reallıqdır ki, Azərbaycan yazıçıları Qarabağ münaqişəsi ilə bağlı xalqımıza olan qələm borclarını indiyədək tam ödəməyiblər!**

**Barmaqla sayılacaq qədər az miqdarda povest, hekayə, dram əsərləri yazılsa da, ortada fundamental əsərlər hələ də yoxdur!**

NİYƏ, NƏ SƏBƏBƏ?!

*Ötən əsrin doxsanıncı illərində yazıçılar söylədilər ki, hələ müharibə təzə başlayıb. Gərək bir qədər keçə, müəyyən hadisələr baş verə, biz isə onları yaradıcılıq süzgəcindən keçirərək yeni əsərlər yazaq!*

I Qarabağ müharibəsi qurtardı!

Xocalı, Qaradağlı, Ağdaban, Bağanis-Ayrım... soyqırımları baş verdi!

**Bu dəhşətləri bədii ədəbiyyatda əks etdirən, ürəyimizcə yazılan kifayət qədər əsər görmədik!**

**Belə getsə, heç görməyəcəyik də!**

*Yaşlı yazıçılarımız söz verdikləri əsərləri yazmadan dünyadan köçüb getdilər!*

*Cavan yazarların özlərindən müştəbehlikdən başqa əllərindən bir şey gəlmir!*

**Qələmi, istedadı olanlar sanki kimdənsə sifariş, tapşırıq gözləyirlər!**

**Heç kim heç kəsi bəyənmir, ortada isə sanballı, necə deyərlər, ürəkdən tikan çıxaran əsərlər hələ də yoxdur!**

*Lap gülməlidir, erməni yüz ildən çoxdur yalandan "soyqırımı" "həqiqətlərini" uydurur, çoxsaylı əsərlər yazır, yaradır, dünyanı öz yalanlarına inandırır, biz isə "cavanlarla" "qocaların" çəkişməsinə, bir-birini bəyənməməsinə baxmaqla kifayətlənməli oluruq!*

Halbuki sənətin, sənətkarın borcu özünü əsərlərində təsdiq, istedadını sübut etməkdir!

Reallıqda isə bunlar görünmür!

**Azərbaycan yazıçısı, üzümü sənə tuturam:**

**Vətənə, Azərbaycan xalqına olan yazıçı, vətəndaş borcunu nə zaman qaytaracaqsan?!**

❖ ❖ ❖

Televiziya öz auditoriyasına görə bütün sahələri üstələyir, imkanları genişdir!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin müraciət və açıqlamaları sayəsində Azərbaycan televiziyası hərbi əməliyyatların davam etdiyi dövrdə xalqa müharibə ab-havasını duydura bildi!**

**Geniş informasiyalar verdi, müharibəni, necə deyərlər, evimizə gətirdi!**

Bu gün də müharibə qəhrəmanları, şəhidlərimiz barədə az-çox maraqlı verilişlər yaradılır!

*Lakin şairlərin tək-tük poemalarından, uğurlu yazılardan hazırlanan parlaq kliplər görmədik!*

*Halbuki sözlə təsvirin vəhdətindən yaranan belə kliplər daha təsirli, daha uğurlu alınır!*

**Standart, basmaqəlib verilişlər sizi bezdirmədimi?!**

Özəl telekanalların hər birində gün ərzində bir neçə saat çəkən, baş qəhrəmanları isə milli-mənəvi dəyərlərimizi pozan, adət-ənənələrimizə utanc gətirən insanlar olan verilişlər nə vaxtadək "reytinqli" hesab olunaraq kimlərinsə cibinə xidmət edəcək?!

Bəs deyilmi?!

**Əgər olub-qalan dəyərlərimizi də gəlirə qurban veririksə, maddi marağı mənəviyyatdan üstün tuturuqsa, onda kimə və nəyə xidmət etmiş oluruq?!**

Sovet dövründə yaranmış elə televiziya filmləri var ki, bu gün də maraqla baxılır!

Niyə belə filmlər çəkmirsiniz?

Nəyiniz çatmır?

**Bütün dünya 44 günlük Zəfər müharibəsinə heyranlığını söyləyir, bütün dünya müharibə dövrü taktika və strategiyamızı öyrənib tətbiq edir, biz isə hələ də ekranlarımızı toy müğənnilərindən xilas edə bilməmişik!**

Ağsaqqalımız da, ağbirçəyimiz də, ağıllımız da, ziyalımız da, hamıya göstərilən nümunəmiz də yalnız onlardır!

**Niyə hələ də qəhrəman əsgər və zabitlərimiz filmlərimizin baş qəhrəmanına çevrilməyib?**

**Niyə ordu həyatı, Azərbaycan əsgərinin hünəri, rəşadəti, cəsarəti maraqlı filmlərə çevrilməyib?**

Azərbaycanın xüsusi təyinatlısı keçilməz cığırlardan keçərək, sıldırım qayalardan dırmaşaraq, əsgər xəncəri, beli ilə döyüşərək əlbəyaxa davada Şuşanı düşməndən azad etdi!

*Bütün dünya Şuşa əməliyyatına heyranlığını bildirir!*

*Biz isə hələ də bu barədə çəkilən fərli-başlı televiziya filminə baxa bilməmişik!*

*Ssenaristlər, studiyalar hara baxır, nə işlə məşğuldurlar?!*

❖ ❖ ❖

Sovet dövrünün "davalı" kinoları bizim ən yaxşı uşaqlıq xatirələrimizdir!

Hər filmə bir neçə dəfə baxsaq da, doymazdıq!

Filmlərdə reallıq da vardı, gop da!

Amma Vətən sevgisinin, qorxmazlığın, döyüşkənliyin, əsl mənəviyyatın tərənnümü daha qabarıq görünürdü.

**Əvvəlcə "Fəryad", sonra "Dolu" filmini görəndə bir az ürəyimizə su səpildi!**

**Dedik, yəqin ki, bunlardan da yaxşıları çəkiləcək!**

**Bəs hanı, haçan çəkiləcəkdir!**

Hələ də həmin filmlər ən yaxşısı sayılır, bəlli günlərdə bütün telekanallarda nümayiş olunur!

Onlar çəkilməsəydi, deməli, ekranlar boş qalacaqdı?

Kinonu bilən, bu mürəkkəb sahədən baş çıxaran rejissor, operator, ssenarist, aktyorlardan az-çox qalıb!

Onlar da işsizdir!

Hərdən eşidirik ki, hansısa Azərbaycan filmi hansısa müsabiqədə yaxşı yer tutub!

Sonradan həmin filmləri görürük!

Belə də ...

*Bu 30 ildə niyə hərbi mövzuda fərli-başlı bir bədii film çəkilmədi?*

*Yaxşı, tutaq ki, məğlub olmuşduq.*

*Axı indi qalib xalqıq, ordumuz, döyüşçülərimiz bütün dünyaya nümunədirlər!*

*Niyə bütün baş verənlər kino lentlərində yoxdur?*

**Onu kim çəkməlidir?**

**Kim bu işlə məşğul olmalıdır?**

**Kim məsələ qaldırmalıdır?**

**Kim, kim, kim?!**

Pulumuz yoxdur?!

Nə vaxt ortaya ssenari qoyub pul istədiniz verən olmadı?

Niyə bütün ölkələr Hollivudla birgə dünya miqyasına çıxan filmlər çəkir, biz isə bunu bacarmırıq?

Nəyimiz çatmır?

*Müzəffər Ali Baş Komandanın qüdrətini, ordumuzun qəhrəmanlığını, xalqımızın rəşadətini biz yazmasaq, biz çəkməsək, biz əbədiləşdirməsək, bunu kim edəcəkdir?!*

**Niyə sənət adamlarının canındakı yanğı tükənib?!**

**Niyə deyinməklə, gileylənməklə işimizi bitmiş sayırıq?!**

Əgər bu işə mane olanlar, vəzifəsinin məsuliyyətini lazımınca dərk etməyənlər varsa, niyə bunun ağrısını qəhrəman ordumuz, müzəffər xalqımız çəkməlidir?!

Deyəsən, çatmayan başlıca məsələ vətəndaş mövqeyidir!

❖ ❖ ❖

Rus bəstəkarı Dmitri Şostakoviçin möhtəşəm IV simfoniyası var.

Deyirlər, müharibə dövründə Leninqrad şəhərinin mühasirəsinə həsr olunub.

Qəhrəmanlıq simfoniyasıdır və dünyanın bütün məşhur musiqi salonlarında səsləndirilib!

Vaxtilə Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Arif Məlikovun simfonik əsərləri də dünyanı gəzib, ürəkləri fəth edib.

Sovet dövrünün bir dəbi də əmək qəhrəmanlarına - çobana, mexanizatora, pambıqçıya mahnılar həsr olunması idi!

Bəzən hətta belə mahnılar populyarlaşırdılar da!

İndi simfoniya yazanımız yoxdur!

Neynək...

Sadə əmək adamlarına da mahnılar qoşulmur.

Dolanışıq üçün, toylarda oxunmaq üçün kifayət qədər "nay-nay"larımız isə boldur!

**Yaxşı, niyə ürəkləri fəth edən əsgər mahnıları, marşlar yoxdur!**

Pul az ayrılırsa, onda artırın!

Müsabiqələr keçirin!

**Əgər biz qəhrəman şəhidlərimizə, qalib əsgərlərimizə, igid döyüşçülərimizə mahnılar həsr etməyəcəyiksə, onda bunu kim edəcək?**

**Axı biz QA-LİB-LƏ-RİK!**

**Qalibi tərənnüm edərlər, qalibi vəsf edərlər, şəninə şeir yazıb, mahnı bəstələyərlər!**

Bunların da "beyin süzgəcindən" keçirilməsi üçün 20-30 il vaxt gərək olacaq?!

Rəssamlardan, heykəltəraşlardan da bu mövzuda əsərlər gözləyirik!

❖ ❖ ❖

**Qarabağın viran qoyulmuş torpaqlarında, xarabalıqlar fonunda çalıb oxumaq hələ sənət deyil!**

Belə kliplər heç sənət nümunəsi də sayılmır.

"Quş" qoymaq üçün müəyyən verilişlər də hazırlamaq mümkündür.

**Xalqımıza isə bütün janrlarda əsl sənət nümunələri, dünyaya çıxarıla biləcək əsərlər lazımdır.**

Dünən məcburi köçkünlərə borclu qalaraq onların məşəqqətli həyatlarından ortaya fərli-başlı bir şey çıxara bilmədik.

Bu gün isə bu müharibəni aparanlara, döyüşənlərə, şəhid olanlara, qəhrəman xalqımıza borclu qalmağın yalnız bir adı olacaqdır:

ÜZ QARALIĞI!

**Bəxtiyar SADIQOV**

◆Müəllifi İlham Əliyevdir

# Azərbaycanda modern sənayeləşmə yüksəliş mərhələsindədir

## Sumqayıt Kimya Sənaye Parkındakı müəssisələrin istehsal etdikləri "Made in Azerbaijan" brendi olan məhsullara tələbat getdikcə artır



Azərbaycanda müasir sənayenin inkişafı Prezident İlham Əliyevin inkişaf konsepsiyasının prioriteti olaraq qalır. Xüsusən də sənaye zonalarının yaradılması istiqamətində dövlət başçısının irəli sürdüyü təşəbbüslər bu sahədə atılan addımların daha da genişləndirilməsini şərtləndirir.

Bu gün sənaye park və məhəllələrinin istehsalçılara təqdim etdiyi güzəştlərə görə şirkətlər öz zavodlarını, müəssisələrini məhz belə mərkəzlərin ərazisində yaratmağa daha çox üstünlük verirlər. Qafqazın ən böyük sənaye parkı sayılan Sumqayıt Kimya Sənaye Parkı da bu ünvanlardan biridir. Burada rezidentlər üçün təklif olunan güzəştlər, yaradılan şərait çox əlverişlidir. Bu səbəbdən də burada tikilən müəssisələrin sayı hər il artır.

Ötən həftə sənaye parkına səfərimiz zamanı burada fəaliyyət göstərən Peşə Təhsil Mərkəzi və 2 müəssisə - "Azerfloat", "Azmonbat" barədə ətraflı məlumat vermişdik. Bu sayımızda isə daha 2 müəssisədən reportajımızı təqdim edirik.

### Böyük şəhərciyi xatırladan 3 zavod

Sumqayıt Kimya Sənaye Parkı yaradıldıqdan sonra buranın ilk rezidenti "Azertexnolayn" müəssisəsi olub. 2012-ci ilin fevralında təməli qoyulan şirkət 2013-cü ildən istismara verilib. "Azertexnolayn" 3 zavoddan - Polad boru, Polietilen məmulatları və Çuqun tökmədən ibarətdir.

Müəssisədə alman, türk və Çin texnologiyaları əsasında müxtəlif avadanlıqlar istehsal edilir. Böyük şəhərciyi xatırladan zavodun ümumi ərazisi 24 hektardır. Şirkətin istehsal etdiyi məhsulların dünya standartlarına, yüksək keyfiyyət, gigiyenik və təhlükəsizlik göstəricilərinə görə beynəlxalq sertifikatları mövcuddur. Burada istehsal edilən polad, qofralı borular, metal konstruksiya, hasar və s. kimi məhsullar sənaye infrastrukturunun inkişafında mühüm rol oynayır.

Müəssisənin marketinq üzrə mütəxəssisi Rauf Kərimovla söhbətimiz zamanı məlum oldu ki, müəssisənin məhsullarının ixracatında əsas yerləri Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, Gürcüstan tutur. Lakin keçən ildən zavodun xarici bazarlarda miqyası genişlənərək bir sıra Avropa ölkələrini də əhatə edib. Bunların sırasında İtaliya, Avstriya, İsveç, İsveçrə, Serbiya və s. ölkələr yer alır.

Rauf Kərimov qeyd edir ki, şirkətin ümumi xammal tələbatının 70 faizi xarici, 30 faizi yerli məhsullarla ödənilir. Xammalın yerli bazardan əldə edilməsində isə elə sənaye parkının digər bir rezidenti olan "SOCAR Polymer"in böyük rolu var. Müəssisə ümumilikdə 750-dən çox işçi qüvvəsinə sahibdir. Şirkətin istehsal etdiyi avadanlıqlardan əsasən yerli layihələrin həyata keçirilməsində istifadə olunur.

Öncə Polad boru zavodundakı istehsalat prosesi ilə tanış olmaq qərarına gəldik. Burada müəssisənin əsas istehsal avadanlığı olan spiral tikişli polad borular hazırlanır. Zavodun illik istehsal gücü 200 min tondur. İstehsal edilən borular 400-2400 millimetr diametrli, 6-16 metr uzunluqlu ölçüləri əhatə edir. Boruların digər bir özəlliyi isə ondadır ki, neft-qaz sektorunda, təbii sərvətlərimizin daşınmasında birbaşa rola malikdir. Belə ki, bunlardan xam neftin, təbii qazın, suyun və s. təyinat nöqtəsinə göndərilməsində istifadə edilir.

Zavodda istehsalat prosesi rulon formasında olan metalın açılma dəzgahında düzləşdirilərək növbəti avadanlığa ötürülməsi ilə başlayır. Bu zaman ölçüyə görə bükülən lent ilkin boru formasına salınır. Hər iki tərəfdən qaynaq olunan borular müşahidə edilə biləcək hər hansı xətaya qarşı ultrasəs cihazı ilə yoxlamadan keçirilir. Yoxlanışdan uğurla keçən borular sifariş edilən uzunluqda kəsilərək mühəndislər tərəfindən bir daha vizual yoxlanılır. Əgər hər hansı boruda natamamlıq aşkarlanarsa, yenidən təmirə göndərilir. Hər bir boru sızma, yüksək təzyiqə müqavimətinə görə bir neçə mərhələli sınaqdan keçirilir. Həm vizual, həm də avadanlıqlarla testdən keçən boruların kiri, pası təmizlənir və rənglənməyə ötürülür.

Son olaraq borular "Made in Azerbaijan" yazısı ilə etiketlənərək gedəcəyi ünvana yola salınır. Bununla da polad boruların ərsəyə gətirilməsi başa çatır. Polad boru zavodunda laboratoriya da fəaliyyət göstərir. Burada xammal hazır məhsula gətirildiyi mərhələyə qədər tərkibinin müxtəlif analizləri aparılır.

### İçməli suyun, maye qazın daşındığı borular

"Azertexnolayn"ın digər bir istehsalat sahəsi Polietilen məmulatları zavodudur. Burada polietilen, qofralı borular və plastik injeksiya məhsulları istehsal edilir. Polietilen borulardan içməli suların, yanar qazların və digər mayelərin nəqlində istifadə edilir. Adından da göründüyü kimi, bu boruların əsas xammalı yüksək sıxlıqlı polietilendir. İş istifadə edilən xammalların analiz edilərək istehsalata göndərilməsi ilə başlayır. Qızdırılaraq əridildikdən sonra daxil olduğu dairəvi qəlibdə tam formasını alır. Borular soyudulduqdan sonra üzərinə tanınma zolağı və məhsul haqqında məlumatlar vurulur.

Qofralı borular müəssisədə diametrindən asılı olaraq ikiqat və üçqat istehsal edilir. İkiqat borular daxili sifarişə uyğun olaraq sarı, ağ, göy rənglərdə olur. Üçqat borular isə dayanıqlılıq müddəti daha çox olan növlərdəndir. Bunlar büzməli məsamələr nəticəsində xarici təsirlərə, gərilmə və sıxılmalara qarşı dözümlülüyü ilə seçilir. Qofralı borular bir-birinə olduqca asan qaynaq edilmə özəlliyinə də malikdir.

Plastik injeksiya sexində isə müxtəlif plastik qabların hazırlanması ilə tanış oluruq. Burada istehsal edilən plastik məhsullar həm borulara lazım olan istiqamətdə (bir borunun digərinə keçirilməsi üçün nəzərdə tutulan birləşdirici fittinqlər), həm də gündəlik tələbatda (sayğac qutuları və s.) istifadə edilir. Sexdə əridilmiş xammal müxtəlif qəliblərə daxil edilərək formaya salınır. Rauf Kərimov onu da qeyd etdi ki, sexin illik istehsal həcmi 3 min tondur.

Müəssisənin növbəti, sonuncu zavodu - Çuqun tökmə zavodudur. İçəri daxil olduqda toz-dumanlı məkanda qızğın iş prosesi ilə qarşılaşdıq. Burada sürgülü siyirtmə, drossel klapanı, quyu qapağı, yanğın hidrantı, yağış suyu barmaqlığı və bu kimi digər məhsullar istehsal edilir. Fəaliyyətə başlama prosesi isə digərlərindən nisbətən fərqlidir. Belə ki, müəssisəyə daxil olan sifarişin yerinə yetirilməsi üçün əvvəlcə məhsul mühəndislər tərəfindən dizayn edilir. Görünüş və parametrləri müvafiq sifarişə uyğun hazırlanan qəliblər növbəti mərhələdə istehsala göndərilir. İngiltərə istehsalı olan dəzgahlarda qəliblər və içlikləri hazır vəziyyətə gətirildikdən sonra tökmə prosesi həyata keçirilir. Tökməni yanğına qarşı xüsusi geyimli və qoruyucu sipərlikli işçilər həyata keçirirlər. Belə tozlu mühitdə çalışmağın çətin və təhlükəli tərəfi isə tənəffüs yollarının tutulmasıdır. Lakin müəssisə hər bir işçinin həyat və sağlamlığı naminə bütün ehtiyat tədbirlərini lazımi qaydada yerinə yetirir. Onlar gündə bir neçə dəfə südlə təmin edilirlər.

Emal prosesini izlədikdən sonra boyama nöqtəsinə gəlib çatırıq. Burada da əvvəlcə malların üzərindəki kir, toz təmizlənir. Boya ilə rənglənən məhsullar sonra qurutma hissəsində saxlanılır. Sonuncu mərhələ isə istehsal edilən məhsulların yoxlanılması ilə başa çatır. Təbii ki, testlər hər bir məhsula görə fərdi aparılır. Məsələn, əgər hazırlanan quyu qapağıdırsa, bu zaman onlar 40 tona qədər tab gətirmələri üçün ağırlıq sınağını keçməlidir. Beləliklə, bütün prosesləri uğurla başa vuran mallar müştəriyə ötürülür.

### Öz növünün ilki - "SOCAR Polymer"

Buradakı müəssisələrdən biri də "SOCAR Polymer" zavodudur. Müəssisəyə daxil olduğumuz andan etibarən təhlükəsizlik qaydalarına xüsusi diqqətlə yanaşan işçilər öncə davranış qaydaları ilə, baş verə biləcək hər hansı hadisəylə bağlı bizi təlimatlandırdılar. Daha sonra zavodla tanışlığa başladıq.

Təsisçisi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) olan "SOCAR Polymer" MMC Azərbaycanda kimya sənayesinin inkişafının gücləndirilməsi, istehsal zəncirində əlavə dəyərin yaradılması, yeni iş yerlərinin açılması məqsədilə yaradılıb. Zavodun təməli 2015-ci ilin oktyabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. "SOCAR Polymer" MMC Azərbaycanın neft-kimya sənayesində dövlət-özəl sektor tərəfdaşlığı əsasında yaradılan ilk şirkətdir.

Hazırda 51 faizi SOCAR-ın olmaqla, ölkə sənayesində mühüm iştirakçılar kimi tanınan digər şirkətlər də burada səhm payına sahibdirlər.

Şirkət polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən iki qurğudan ibarətdir. Bu müəssisə öz növü baxımından Azərbaycanın ilk belə zavodlarındandır. İllik istehsal gücü 184 min ton təşkil edən polipropilen zavodu 2018-ci il, illik istehsal gücü 120 min ton təşkil edən yüksəksıxlıqlı polietilen zavodu isə 2019-cu ildə istismara verilib.

Polipropilen və yüksək sıxlıqlı polietilenin müxtəlif növləri nəqliyyat vasitələrinin, kabel və boruların, yeyinti, tibb sənayesində istifadə olunan qabların və digər məhsulların xammalıdır. Bunun hesabına artıq yerli bazarın tələbatını qarşılamaq asanlaşır. Ümumilikdə istehsal edilən məhsulun 15 faizi yerli, 85 faizi isə xarici bazara təqdim edilir. Türkiyə, Rusiya, Ukrayna və digər xarici ölkələrə edilən ixracat 3 nəqliyyat vasitəsilə - yük maşınları, dəmiryolu və gəmi ilə həyata keçirilir.

Mühəndis Murad Əliyev deyir ki, polipropilen və yüksək sıxlıqlı polietilenin istehsalı üçün əsas xammal propilen, etilen və hidrogendir. Bu zaman maye şəklində olan qarışım zavodun nəhəng qurğularından biri olan reaktora daxil olur. Burada katalizatorların köməyi ilə xüsusi reaksiyalar aparılır. Nəticədə məhsuldan kükürdlü qaz ayrılaraq qurutma avadanlığına ötürülür. Toz halında əldə edilən polimer daha sonra ekstruderə daxil olur və qranula halına gətirilir. Son məhsul kisələrə doldurulub paketlənir və saxlanma anbarına yerləşdirilərək satışa hazır edilir.



Müəssisənin laboratoriyası maraqlı məkanlardan biridir. Burada bazara çıxarılacaq xammalın ümumi keyfiyyəti təcrübəli mütəxəssislər tərəfindən yoxlanılır. İş başında elə əsl tərkibin necə əldə olunduğunun şahidi oluruq. Sınaqdan keçirilən nümunə bir çox laboratoriya müayinələrindən keçib uzun yol qət edən məhsulun tələblərə uyğunluğunu sübut edir.

Müəssisə 2021-ci il ərzində ötən ilə nisbətən böyük nailiyyətlər əldə edib. Belə ki, istehsalat həcmi 2020-ci illə müqayisədə 44 faiz artıb, məhsul çeşidi zənginləşib, yüksək marjalı məhsulların payı 2 dəfə, satış gəlirləri isə 2 dəfədən çox artıb. Hazırda zavodda 768 nəfər daimi iş yeri ilə təmin olunub. İstehsalat işçilərinin ixtisaslaşmış peşəkar kadr kimi formalaşdırılması məqsədilə "SOCAR Polymer" onları xarici ölkələrdə ixtisasartırma proqramlarına da cəlb edir.

"SOCAR Polymer"in 2022-ci il üçün əsas hədəfləri sabit və təhlükəsiz istehsal, yüksək marjalı məhsulların payının artırılması, satış və ixrac dairəsinin genişləndirilməsi, texnoloji yeniliklərin tətbiqi və proseslərin optimallaşdırılmasıdır.

Sumqayıt Kimya Sənaye Parkı ərazisində fəaliyyət göstərən müasir sənaye müəssisələrinin istehsal etdikləri məhsulların həm yerli tələbatı ödəməsi, həm də xarici bazarlara çıxışı Azərbaycanda qeyri-neft sənayesinin inkişafının göstəricisidir desək, yanılmarıq. Artıq dünya bazarlarında "Made in Azerbaijan" brendinə tələbat getdikcə artır. Bunu təsdiqləyən statistik göstəricilərə nəzər yetirsək, görərik ki, təkcə 2021-ci ildə qeyri-neft sənayesində 20 faizdən çox artım qeydə alınıb. Qeyri-neft ixracı 44 faiz artaraq 2,6 milyard ABŞ dollarını keçib. Yeri gəlmişkən, Azərbaycanın yeni müstəqillik tarixində qeyri-neft ixracı heç vaxt 1,9 milyard ABŞ dollarından yuxarı olmayıb. Son rəqəm isə bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin modern sənayeləşmə siyasəti ölkəmizə iqtisadi dividendlər qazandırır.

*Aydan XƏLİLOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*



# Azərbaycan dinlərarası və sivilizasiyalararası təmas mərkəzinə çevrilib

**Azərbaycan xalqı hər zaman adət-ənənələrinə, dini inanclarına ehtiramı, sədaqəti ilə nümunə olub. Tarixin müxtəlif dövrlərində siyasi-ictimai mühitdə yaranan, hətta bəzən on illərlə davam edən ziddiyyətli münasibət, sərt qayda-qanunlar xalqı ağır sınaqlarla qarşılaşdırıb.**

Dini inanclarına görə, Azərbaycan xalqının müsibətlərə düçar edildiyi, təqiblərə, həbslərə, sürgünlərə məruz qaldığı vaxtlar olub. Ancaq heç zaman öz milli-mənəvi, dini inanclarını unutmayıb. Bütün çətinliklərə rəğmən milli-mənəvi düşüncələrindən, dini etiqadından uzaqlaşmayıb.

Bu siyasət yetmiş il sovet hakimiyyətinin əsas fəaliyyət istiqamətlərindən biri olub. Hətta cəmiyyəti dinindən uzaqlaşdırmaq üçün "Allahsızlar cəmiyyəti" yaradıblar. Sovetlər dövründə ali məktəblərdə keçirilən ateizm dərslərinin, tarixi əhəmiyyətini belə nəzərə almadan dini məbədləri anbarlara, uşaq bağçalarına çevirmələrin, din xadimlərinin az qala sinfi düşmən elan edilərək təqib olunmalarının, həbsə, sürgünə göndərilmələrinin, güllələnmə cəzalarının verilməsinin məqsədi də bu idi. Sovet hakimiyyəti rəhbərləri bununla dini dəyərləri unutdurmağa səy göstərirdilər. Amma sonunda bütün cəhdlər boşa çıxdı. Böyük faciələrlə üzləşməsi Azərbaycan xalqının öz milli-mənəvi, dini dəyərlərinə bağlılığının nə qədər dərin olduğunu təsdiq etdi.

XX əsrin sonlarında Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Uzun illər boyu köksünə vurulmuş bu ağır yaralar da sağalmağa başladı. Respublikamızda yaşayan bütün xalqlara öz dini ayinlərini həyata keçirmək üçün şərait yaradıldı.

Bu gün müstəqil Azərbaycanda yaşayan bütün xalqlar və etnik qruplar bir ailənin üzvləri kimi mehriban yaşayırlar. Ölkəmizdə dini bayramlar dövlət səviyyəsində qeyd edilir, dini ayinlərin icrasına hər cür şərait yaradılır. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan



edilməsi də bunun nəticəsi oldu.

Son illər dövlət başçısının təşəbbüsü ilə respublikamızda bir çox yeni məscidlər tikilib və ya bərpa edilib. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə məscidi, Həzrət Məhəmməd məscidi, Əjdər bəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarca digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa olunub. Həmçinin Cənubi Qafqazın ən böyük və müasir məscidi - Heydər məscidi tikilib. Dini tolerantlığın məkanı kimi tanınan Azərbaycanda ilk dəfə Heydər məscidində vəhdət namazı qılınıb.

Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini qoruyub saxlayır. Bu gün Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır. Mövcud olan yüksək multikultural dəyərlər, tolerantlıq, bütün dünyəvi dinlərin sərbəst şəkildə fəaliyyət göstərməsi ölkəmizin nüfuzunu daha da yüksəldir.

Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşadığını, heç vaxt ölkəmizdə dini-milli zəmində qarşıdurma, yaxud da anlaşılmazlıq olmadığını diqqətə çatdıran Prezident İlham Əliyev deyib: "Bu, bizim böyük sərvətimizdir. Bütün dinlərin tarixi dini abidələri dövlət tərəfindən qorunur, eyni zamanda dövlət öz vəsaiti hesabına bu abidələrin bərpasını təmin edir. Azərbaycanda məscidlər, kilsələr, sinaqoqlar tikilir, təmir edilir. Biz bütün dini bayramlarımızı birlikdə qeyd edirik. Bütün dini icmalar bunu birlikdə qeyd edir".

Tolerantlıq və multikulturalizm ənənələrini qoruyub saxlaması Azərbaycanın tərəqqisinə təkan verir. Bu ölkə də, onun sevinci də, qayğıları da, problemləri də, uğurları da burada yaşayan, dilindən, dinindən asılı olmayaraq, hər bir xalqındır. Bu birlik Vətən müharibəsində bizi böyük zəfərə apardı. 2020-ci il sentyabrın 27-də dövlət başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin qismən səfərbərlik çağırışına ölkəmizin bütün bölgələrində yaşayan xalqların - türk, ləzgi, talış, yəhudi, rus, udin və digər xalqların nümayəndələri dərhal səs verdilər. Hər bir gənc Azərbaycan adlı vətənin ərazi bütövlüyünün bərpa olunması uğrunda döyüşlərdə iştirak etmək üçün könüllü ordu sıralarına yazıldı. Onları valideynləri, qohum-əqrəbaları böyük qürur və fəxrlə, xeyir-dua verərək cəbhəyə yolladılar. Çünki Vətən torpaqlarının otuz ilə yaxın Ermənistan silahlı qüvvələrinin işğalında qalması, o yerlərdə düşmənlərin meydan sulaması bu ölkədə yaşayan hər bir Azərbaycan vətəndaşının qüruruna toxunurdu.

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsi yalnız işğalçı Ermənistana deyil, bütün dünyaya bu həqiqəti bir daha göstərdi ki, bir çox xalqların, dinlərin nümayəndələrinin bir ailə kimi sülh, mehribanlıq şəraitində yaşadığı bu ölkə yenilməzdir.

Ermənistanın uzun illər işğal altında saxladığı yurdlarımızda əsirlikdə qalan mədəniyyət abidələrimizi, məscidlərimizi, ziyarətgahlarımızı uçurub dağıdıblar. Onlar məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çeviriblər. Prezident İlham Əliyev çıxışlarından birində söyləyib: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerləyeksan ediblər".

Dövlət başçısının diqqətə çatdırdığı faktlar Azərbaycan xalqının humanistliyinin, Ermənistanın isə vandallığının, qəddarlığının bariz nümunələridir.

Artıq Azərbaycanın işğaldan azad olunmuş tarixi torpaqlarında zəfərlərimizin nişanəsi olan bayraqlarımız dalğalanır. Həmin yerlərdə bərpa edilmiş məscidlərimizdən yenidən azan səsləri yüksəlir.

Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir, multikultural həyat tərzinin daha da möhkəmlənməsi məqsədi ilə həyata keçirilən böyük işlər davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən bu gün yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda öyrənilir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır.

Aprelin 11-də Prezident İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni inzibati binasının açılışında iştirak edib. Dövlət başçısı yeni binada yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, İlahiyyat İnstitutunda hazırda 277 tələbə təhsil alır. Təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# İdman tariximizdə şərəfli səhifələr yazılır

## Prezident İlham Əliyevlə görüş isə idmançıları daha böyük qələbələrə ruhlandırır

**Ötən həftə Prezident İlham Əliyev güləş üzrə Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa çempionatında tarixi qələbəyə imza atan idmançılarımızı qəbul etdi. Bu çempionatda güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atıblar, vətənə 3-ü qızıl olmaqla 16 medalla dönüblər.**

Macarıstanda qazanılmış bu möhtəşəm qələbə təsadüfi deyil. Budapeşt zəfərinin təməlində dövlətin bu sahədə yeritdiyi siyasət, bədən tərbiyəsi və idmanın inkişafı naminə görülən ardıcıl tədbirlər, mütəxəssis və idmançıların peşəkarlıq və məsuliyyəti durur.

Pəhləvanlarımızın nailiyyəti bir daha göstərdi ki, bu qələbələr təsadüfi xarakter daşımır. Güləşçilərin qazandıqları uğurları Prezident İlham Əliyev yüksək dəyərləndirərək qeyd etdi ki, Avropada birinci olmaq böyük uğurdur: "Əlbəttə ki, bir daha Azərbaycan güləşçilərimiz bizim güləşimizi təbliğ etmişlər, çünki güləş bizim ənənəvi idman növümüzdür. Güləşin çox böyük ənənələri vardır və bu ənənələr yaşayır".

Ümumiyyətlə, respublikamızın inkişaf strategiyasına uyğun olaraq idman da dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi sürətlə inkişaf edir. Təsadüfi deyil ki, ötən illərdə hər bir sahədə olduğu kimi, Azərbaycanda idmanın tarixində də şərəfli səhifələr yazılıb, ölkəmizdə idmanın və olimpiya hərəkatının inkişafında böyük canlanma müşahidə olunub. Respublikamızda 50-yə yaxın olimpiya idman kompleksinin fəaliyyət göstərməsi, idmanın ayrı-ayrı növləri üzrə müasir komplekslərin yaradılması bu siyasətin uğurla həyata keçirilməsindən xəbər verir.

İdmançılarımız beynəlxalq yarışlarda qalib gəlmiş müzəffər xalqı təmsil edirlər. Beynəlxalq yarışlarda iştirak edən bütün idmançıların ürəyində bu duyğular var. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları da bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini yerli sakinlərlə bölüşərək İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar.

İdmançılarla görüşdə bu kimi məsələlərə toxunan Prezident İlham Əliyev idmanın gənclərin vətənpərvərlik hisslərinin artırılmasındakı rolundan da danışdı. Qeyd etdi ki, idman bu istiqamətdə ən mühüm sahələrdən biri hesab olunur: "Doğrudan da, cəmi 44 gün ərzində böyük tarixi qələbə qazanmış xalqı təmsil etmək həm böyük qürurdur, həm də böyük məsuliyyətdir. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir".

Prezidentin söylədiyi kimi, məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq gənc nəsli Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı. Ona görə də gənc nəsil mütləq vətənpərvərlik, milli ruhda tərbiyə almalıdır. Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi gücləndirən amillərdən biri də tarixi-hərbi zəfərimiz və eyni zamanda idman uğurlarımızdır.

Qeyd edək ki, yunan-Roma güləşi üzrə Azərbaycan millisi qitə birinciliyində tarixi uğur qazanıb. On güləşçi ilə yarışda təmsil olunan komandamızın 8 üzvü fəxri kürsüyə qalxıb. Eldəniz Əzizli (55 kq), Rafiq Hüseynov (82 kq) qızıl, Taleh Məmmədov (63 kq) gümüş, Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq) və İslam Abbasov (87 kq) bürünc medal qazanıblar. Onlar komandaya müvafiq olaraq 25, 20 və 15 xal qazandırıblar. Beşinci yeri tutan Murat Lokyayev (97 kq) və Beka Kandelaki (130 kq) isə 10 xalı millimizin xal ehtiyatına əlavə ediblər.

Beləliklə, yığmamız 165 xalla tarixində ilk dəfə komanda hesabında Avropa çempionu olub. Türkiyə 150 xalla ikinci, Gürcüstan isə 114 xalla üçüncü yeri tutublar. Həm medalların sayına, həm əyarına, həm də toplanan xallara görə Azərbaycan yunan-Roma güləşi tarixində yeni rekorda imza atıb.

Qitə birinciliyində sərbəst güləşçilərin mübarizəsində yığmamızın 10 üzvündən 7-si fəxri kürsüyə qalxıb. Maqomedxan Maqomedov (97 kq) qızıl, Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq) gümüş, Turan Bayramov (74 kq) və Osman Nurmaqomedov (92 kq) isə bürünc medal qazanıblar. Yekunda 159 xal toplayan millimiz komanda hesabında Avropa çempionu olub.

Bir sözlə, Budapeştdən böyük qələbə ilə qayıdan güləşçilərimiz ölkənin idman tarixinə növbəti şanlı səhifə yazdılar. Qarşıda idmançılarımızı bir-birindən mötəbər yarışlar gözləyir. Bu turnirlərin ən böyüyü isə sözsüz ki, Fransanın paytaxtı Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarıdır. İnanırıq ki, idmançılarımız bu mötəbər tədbirdə də uğurlu çıxışları ilə xalqımızı sevindirəcəklər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan və Türkiyə hava məkanının birgə inkişafı barədə razılığa gəliblər





**Aprelin 12-də Ankarada "Azəraeronaviqasiya" (AZANS) Hava Hərəkəti İdarəsinin direktoru Fərxan Quliyevin və Türkiyənin Dövlət Hava Limanları Baş İdarəsinin (DHMI) baş direktoru Hüseyn Keskinin rəhbərliyi ilə "Azərbaycan Hava Yolları" QSC (AZAL) və DHMI-nin nümayəndə heyətləri arasında görüş keçirilib.**

AZAL-ın Mətbuat xidmətindən bildirilib ki, görüşdə hava məkanından istifadə və regionda aeronaviqasiyanın inkişafı üzrə strategiya layihəsinin həyata keçirilməsi məsələləri müzakirə olunub. Qeyd edilən strategiya ölkələrə aeronaviqasiya xidməti və hava məkanından səmərəli istifadə sahəsində beynəlxalq tələbləri birgə həyata keçirməyə imkan yaradacaq.

Bu əməkdaşlıq iki qardaş dövlətin uçuşların təhlükəsizliyinin təmin edilməsi, aeronaviqasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və hava daşımalarının müntəzəmliyinin təmin edilməsi sahəsində bir-birinə qarşılıqlı köməyin bariz nümunəsidir.

Türkiyə Azərbaycanın həm də mülki aviasiya sahəsində strateji tərəfdaşıdır. Azərbaycan və Türkiyənin hava məkanı Avropa və Asiyanı birləşdirən genişmiqyaslı aviadaşımalar zəncirində mühüm rol oynayır. Bu hava dəhlizi həmçinin "Bir kəmər, bir yol" qlobal nəqliyyat layihəsinin davamıdır.

Son onillik ərzində Azərbaycanın inkişaf etmiş yerüstü və hava nəqliyyatına malik olan tranzit dövlət kimi rolu xeyli artmışdır. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi və müdrik siyasəti nəticəsində mümkün olub və uğurla həyata keçirilib. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzulidə beynəlxalq hava limanının açılışı iki qardaş ölkə arasında hava nəqliyyatının və hava hərəkətinin inkişafının əhəmiyyətini və vacibliyini göstərən daha bir parlaq sübutdur.

Xatırladaq ki, 2018-ci ildə AZANS, DHMI-nin aeronaviqasiya xidməti və ICAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatı) birgə uzlaşdırılmış fəaliyyəti nəticəsində bu gün Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında fəaliyyət göstərən yeni hava dəhlizinin açılışı olub. Həmin marşrutla həmsərhəd dövlətlərin hava məkanından istifadə etmədən iki ölkə arasında birbaşa hava əlaqəsi yaradılıb.

Türkiyə ilə yeni hava dəhlizinin açılması yeni beynəlxalq reyslərin həyata keçirilməsi və Naxçıvan Muxtar Respublikası ilə hava əlaqələrinin genişləndirilməsi işinə əhəmiyyətli töhfə olub.

*"Azərbaycan"*

# Bu ilin birinci rübündə 35 minədək şəxsə proaktiv qaydada e-fərdi şəxsi hesab açılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron xidməti vasitəsilə 2022-ci ilin ilk rübündə 34 min 605 şəxsə proaktiv qaydada sosial sığorta nömrəsi (SSN) verilməklə e-fərdi şəxsi hesab açılıb.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iki il əvvəl fəaliyyətə başlayan bu e-xidmət sığortaolunanların proaktiv qaydada elektron sistemdə qeydiyyatına xidmət edir. İlk dəfə işə başlayan şəxslə bağlanan əmək müqaviləsinə dair bildiriş e-sistemdə qeydə alındığı andan işçiyə avtomatik olaraq SSN də açılır.

Bununla işçinin fərdi uçot sistemində elektron fərdi şəxsi hesabı yaranır və sosial sığorta sistemində iştirakı təmin edilir və fərdi şəxsi hesabında gələcək sosial təminatı üçün pensiya kapitalı toplamasına imkan yaradılır.

Xidmət fəaliyyətə başlayandan bu vaxta qədər ümumilikdə 399,3 min sosial sığorta nömrəsi verilməklə elektron fərdi şəxsi hesabın açılması təmin edilib.






# Qoz bağlarının güzəştli sığortası başlayıb

**Aqrar Sığorta Fondu ölkədə ilk dəfə olaraq qoz bağlarını sığorta etməyə başlayıb. Əkin sahələrində olduğu kimi, qoz bağları üzrə də sığorta haqqının yarısını fermerlərə dəstək üçün dövlət ödəyir.**

Aqrar sığorta qoz bağlarını çoxsaylı risklərdən qoruyur. Bura dolu, donvurma (şaxtavurma), sel-su basma, leysan, ildırım, yanğın, qasırğa, fırtına, normadan artıq yağan qar, doluvurmadan keyfiyyət itkisi, bitki xəstəlikləri və ziyanvericilər, üçüncü şəxslərin hərəkətləri və sair hallar aiddir.

Qoz bağlarının sahibləri onu baza sığorta zərfi ilə yanaşı, ayrıca olaraq donvurma (şaxtavurma) halından, bitki xəstəlikləri və zərərvericilərdən, eləcə də ağacların özünü ayrı-ayrılıqda sığorta edə bilərlər.

Qoz Azərbaycanın demək olar ki, bütün ərazilərində yetişdirilir. Ölkədə ümumilikdə 6212 hektar qoz bağı var.

Azərbaycanda ən çox qoz bağları Şəki-Zaqatala bölgəsindədir. Ölkədəki 6,2 min hektar qoz bağının 2,4 min hektarı və ya 40 faizi bu bölgədədir.

Ölkədə ən çox qoz bağı Oğuz (687 hektar), Şəki (636 hektar) və Zaqatala rayonundadır (525 hektar). Bundan başqa, qoz bitkisi Quba-Xaçmaz və Dağlıq Şirvan bölgələrində də aktiv becərilir. Quba rayonunda 528 hektar, İsmayıllı rayonunda 493 hektar qoz bağı var. Naxçıvan Muxtar Respublikasındakı 437 hektar qoz bağının yarıdan çoxu iki rayonda - Şahbuz (149 hektar) və Ordubadda (94 hektar) cəmləşib.

Qoz - son illər Azərbaycanda biznes məqsədilə ən çox əkilən bitkilər sırasındadır. Təsadüfi deyil ki, 6,2 min hektar qoz bağının 4 535 hektarı ənənəvi üsulla əkilib. 1678 hektar və ya bütün bağların 27 faizi isə intensiv və superintensiv bağdır.

Təkcə ötən il ölkədə 285 hektardan artıq yeni qoz bağı salınıb. Ötən il Oğuzda 77, Şəkidə 57, Şəmkirdə 36, Goranboyda 55, İsmayıllıda 22 hektar qoz bağı salınıb.

Yeni salınan qoz bağları da daha çox intensiv üsulla salınır - 285 hektar yeni qoz bağının 202 hektarı intensiv üsulla salınanlardır.

Qoz bağlarının baza sığorta zərfi ilə sığorta tarifi ölkənin ayrı-ayrı regionları üzrə fərqlidir və 2,08-4,20 faiz arasında dəyişir. Bu bitkinin ən çox əkildiyi Şəki-Zaqatala bölgəsində sığorta tarifi 3,89 faiz təşkil edir. Hesablanan sığorta haqqının 50 faizini fermerə dəstək üçün dövlət ödəyir.





# Şimal rayonunun bahar qayğıları

## Siyəzəndə yaz-tarla işləri getdikcə sürətlənir

Ölkənin şimal bölgəsinin seçilən rayonlarından olan Siyəzənin iqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. Rayon dağlıq və aran ərazilərindən ibarət olduğu üçün burada heyvandarlıq, taxılçılıq, quşçuluq və meyvəçilik inkişaf etmişdir.

Ötən ilin payızından başlayaraq rayonda taxıl əkininə başlanılıb. Artıq 5812 hektar əkin sahəsinin 5648 hektarında səpin aparılıb. Bunun 2779 hektarı buğda, 2869 hektarı arpa sahəsidir. Həmin sahələrin 2007 hektarı suvarılan, 3641 hektarı dəmyədir. Suvarılan ərazilərdə su qıtlığı olmamışdır. Martın əvvəllərindən havaların yağıntılı keçməsi dəmyə sahələrində də problemin olmayacağından xəbər verir.

Siyəzən rayonu üzrə suvarılan torpaq sahələrində becərilən əkin sahələri iki mənbədən - Taxtakörpü-Ceyranbatan kanalının yeni suvarma qurğuları və Samur-Abşeron kanalından qidalanan suvarma arxlarından su alır. Samur-Abşeron kanalına vaxtında su verilməməsi bəzən rayon üzrə suvarılması nəzərdə tutulan 5165 hektar torpaq sahəsinin becərilməsində çətinliklər yaradırdı. Bir neçə il əvvəl belə problem yaşanmışdı. Son illər isə belə hal yaranmayıb və həmin işlərə nəzarət edənlər hər gün əraziləri gəzir, tələb edilən suyun zamanında verilməsini təmin edirlər.

Əkin sahələrində ardıcıl olaraq aqrotexniki tədbirlər həyata keçirilir. Cari ilin məhsulu üçün 493 hektar taxıl sahəsində sink-fosfid preparatı vasitəsilə siçanabənzər gəmiricilərə qarşı mübarizə tədbirləri aparılıb. Taxıl sahələrində həmçinin alaq otlarına və xəstəliklərə qarşı mübarizə tədbirləri həyata keçirilib. Rayon üzrə 2300 hektar sahəyə yemləmə gübrəsi də verilib.

Siyəzən həm də meyvəçilik rayonudur. Rayonda təsərrüfat və həyətyanı sahələrlə birlikdə 924 hektar müxtəlif meyvə bağları var. Yaz başlayandan bağlarda böyük canlanma hiss olunur. 73 hektarda texniki və süfrə üzüm sortları becərilir. Hələ fevral ayının ortalarından üzüm bağlarında budama işləri görülüb. Yaz dövrü isə üzümün vacib becərilmə vaxtıdır. Mayın sonuna qədər lazımi qaydalara uyğun becərilən bağlar daha məhsuldar olur.

Məlumdur ki, kəndli üçün mart ayı təsərrüfat işlərinin başlanğıc dövrü hesab edilir. Çünki həmin aydan yazlıq əkinlərin becərilməsi başlayır. Hələ ki, açıq sahədə 39,1 hektar ərazidə yazlıq əkin aparılıb. Onun 23,7 hektarı yonca, 8,7 hektarı kartof, 7 hektara yaxını isə tərəvəzdir. Yenikənd, Həmyə, Beşdam, Zarat və Sədan kəndlərində yazlıq əkinlərin aparılması davam edir. Yeri gəlmişkən qeyd edək ki, bu kəndlər tərəvəzçilik üzrə ixtisaslaşıblar. Onların çoxunda yetişdirilən məhsulların alıcısı başının üstündədir. Elə buna görədir ki, son beş ildə həmin kəndlərdə tərəvəzçiliklə məşğul olanların sayı da artıb.

Rayonda istilikxanalarda da məhsul yetişdirilir. Ötən mövsüm 1,93 hektar örtülü sahədən məhsul götürülüb. Növbəti ildə belə sahələrin daha da genişləndirilməsi gözlənilir. Bunun bir səbəbi də Siyəzəndə sahibkarlara geniş dəstək verilməsidir. Üstəlik meyvəçiliyə marağın artması da sahibkarlığa verilən dəstəyin nəticəsidir. Yerli fermerlər ölkənin müxtəlif şəhərlərində açılan yarmarkalara öz məhsullarını həvəslə göndərirlər. İndiyəcən onların həmin yarmarkalarda satışla bağlı heç bir problemi olmayıb.

Siyəzəndə bir neçə yerdə aqrotexniki qaydaların həyata keçirilməsi üçün lazım olan preparatların satış məntəqəsi fəaliyyət göstərir. Bu gün siyəzənli sahibkar, fermer dərman dalınca paytaxta üz tutmur. Onu da bildirək ki, bu mövsüm sahibkarlara xidmət ilk dəfə olaraq onlayn yolla aparılır. Təsərrüfata lazım olan preparat müvafiq sayta yerləşdirilir və qısa müddətdə həmin dərman sifarişçiyə çatdırılır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Biləsuvarda taxıl sahələrinə yemləmə gübrələri verilir

**Biləsuvarda taxıl sahələrində gübrə səpini davam edir. Fermerlər bol məhsul əldə etmək üçün yemləmə gübrəsi olaraq ammonium nitrat və karbamiddən istifadə edirlər. Yanvar ayından bu günədək "Aqroservis" ASC-nin rayon bölməsində 1000 tona yaxın gübrə satışı həyata keçirilib.**

AZƏRTAC xəbər verir ki, Biləsuvarda taxıl sahələrində gübrələmə işlərinə başlanılıb. Bu il rayonda təxminən 34 min hektar sahədə buğda və arpa bitkisi yetişdirilib. Hazırda fermer və mülkiyyətçilər taxıl sahələrində birinci və ikinci yemləmə işləri aparırlar. Artıq rayonun taxıl sahələrinin 80 faizindən çoxunda gübrələmə prosesi yerinə yetirilib və işlər davam etdirilir. Yanvar ayından bu günədək "Aqroservis"in rayon bölməsində mülkiyyətçilərə 21 ton ammonium nitrat, 950 tona yaxın karbamid gübrəsinin satışı həyata keçirilib. Bununla yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə rayonda 10-a yaxın özəl sektorda gübrə təchizatçıları fəaliyyət göstərir.

Aqronom Şəfa Şahverdiyevlə söhbət zamanı deyib ki, bu mövsüm üçün onun işlədiyi təsərrüfatda 1800 hektar sahədə arpa əkini həyata keçirilib. Onun da 800 hektarında gübrələmə işləri başa çatıb. Ardınca isə suvarma işlərinə başlanacaq. Qarşıya məqsəd qoyulub ki, yeni əkilən sahələrdən 24-25 sentner məhsul götürülsün. Sahələrdə də məhsul çıxışı normaldır.

Taxılçılıq üçün əsas amillərdən biri də aqrotexniki qaydalara vaxtında əməl etməkdir. Torpağa dən səpilən gündən fermerlərin mütəxəssis məsləhətləri ilə həyata keçirdikləri qulluq işləri bu mövsüm məhsuldarlığa da böyük təsir göstərəcək.

Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzinin aparıcı mütəxəssisi Mikayıl İmanov bu barədə danışarkən deyib: "Taxıl sahələrinə baxış keçirilir, arpa və buğdanın hansı inkişaf fazasında olduğu dəqiqləşdirilir. Baxışdan sonra qərara gəldik ki, sahəyə yemləmə gübrəsi verilsin. Yemləmə gübrəsi kimi karbamiddən istifadə olunur. Hektara 150-200 kiloqram verilir. Gübrə səpildikdən sonra suvarma işlərinə başlanacaq".

Qeyd edək ki, rayonda çiyid səpininə hazırlıqla əlaqədar anbarlarda kifayət qədər karbamid gübrəsi ehtiyatı toplanıb. Satışına gəlincə, ammonium nitrat gübrəsinin bir kisəsi 29 manat, karbamid gübrəsinin bir kisəsi isə 19,60 qəpikdir. Fermerlər ötən ildən tətbiq olunan dəyərin 100 faizini nağdsız - "Fermer kartı" ilə ödəməklə mineral gübrələr əldə edirlər.

# Ağdaşda 650 hektardan çox sahədə çəltik əkini gözlənilir

**Ağdaş rayonunda çəltik əkininə ciddi hazırlıq işləri görülür. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, 2022-ci əkin ili üçün 114 istehsalçı tərəfindən 660 hektar sahədə çəltik əkini proqnozlaşdırılır.**

Artıq çəltik əkini ilə bağlı sahələrin seçimi, şumlanması və malalanması başa çatdırılıb. Hazırda tirlər çəkilir, əkiləcək toxum hazırlanır və digər işlər görülür. Əkində öz keyfiyyəti ilə seçilən yerli toxumlardan istifadə olunacaq. Hava şəraitindən asılı olaraq gələn ayın əvvəllərində əkinə başlanacaq. Çəltik əsasən rayonun Hapıtlı, Orta Ləki, Yuxarı Nemətabad, Pirkəkə, Qaradağlı və Kotavan ərazi nümayəndəliklərində geniş şəkildə əkilir.

Qeyd edək ki, çəltikçilik Ağdaşda ənənəvi təsərrüfat sahələrindəndir. Yerli düyüyə olan tələbat əkinçiləri sahələri ildən-ilə artırmağa həvəsləndirir. Rayonda becərilən çəltik növləri də özünəməxsus dadı və keyfiyyəti ilə seçilir. Ötən il hüquqi və fiziki şəxslər tərəfindən 652 hektar sahədə çəltik əkini aparılmışdı. Hər hektardan məhsuldarlıq 32,2 sentner olmaqla yığılmış məhsul 2101 ton olub.

# Kartofçuluq getdikcə daha gəlirli sahə olur



## Bunu yaxşı bilən gədəbəyli fermerlər cari il də bol məhsul istehsal etmək əzmindədirlər

Son illər kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən verilən dəstəkdən bəhrələnən gədəbəylilər aqrar sektorun bütün sahələrində yüksək göstəricilərə nail olurlar. Xüsusilə kartof istehsalı sahəsində qazanılan uğurlar ildən-ilə artır.

Keçən il rayonda 10 min 44 hektarda kartof əkən təsərrüfat sahibləri 126 min 556 ton məhsul götürmüşlər. Yayın quraq keçməsi məhsuldarlığa mənfi təsir göstərsə də, fermerlər bu il də nikbindirlər. Onlar cari mövsüm də məhsuldarlığın çox olacağına əmindirlər. Bu hədəfə nail olmaq üçün rayonda kartof əkininə geniş hazırlıq işləri görülür.

Gədəbəy Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, dünyanı bürümüş ərzaq qıtlığı rayon kartofçularını da hərəkətə gətirmişdir: "Onlar əkin sahələrini genişləndirərək daha məhsuldar kartof sortlarının əkilməsi üçün xeyli vaxtdır hazırlıq işlərinə başlamışlar. İndi Gədəbəydə elə kənd yoxdur ki, orada kartof əkilməsin. Slavyanka, Zəhmət, Söyüdlü, Saratovka, Qızıltorpaq kəndlərində əkin sahələri bir qədər də genişləndirilmişdir. Əsasən yerli sortlara - "Telman", "Əmiri", "Ağçiçək" sortlarına üstünlük verən təsərrüfat sahibləri bu sortların dilini daha yaxşı bilirlər. Məsələn, adları çəkilən kartof sortlarının hər hektarından keçən il 120 sentner məhsul götürülmüşdür. Bu rəqəmin son olmadığına əmin olan fermerlərimiz bu il məhsuldarlığı 130 sentnerə çatdırmaq istəyirlər".

Ölkənin əsas kartofçuluq bazası sayılan Gədəbəydə kartofçuluq üzrə seleksiya işlərinə də maraq göstərilir. Azərbaycan Elmi Tədqiqat Tərəvəzçilik İnstitutu keçən il rayonda daha məhsuldar kartof sortları üzərində seleksiya işləri aparmış, nəticədə yüksək məhsuldar kartof sortları əldə etmişlər. Əsasən Slavyanka kəndində aparılan seleksiya işləri müsbət nəticələr vermişdir. "Çənlibel", "Vaqif", "Uğur" və "Turan" sortları gözlənildiyindən də məhsuldar olmuşdur. Xəstəliklərə davamlı olan həmin sortların hər hektarından 250 sentner məhsul götürülmüşdür. Hazırda həmin sortlar laboratoriya şəraitində çoxaldılır. Yaxın vaxtlarda kartof əkininə start veriləndə adları çəkilən toxum sortlarından da istifadə ediləcək.

Rayonda kartofçuluqla məşğul olan çoxlu sayda fermer təsərrüfatları var. Onlar kartofun əkilməsindən tutmuş çıxarılmasına kimi bütün işləri həm əl əməyi, həm də texnikanın köməyi ilə həyata keçirirlər. Saratovka kəndinin sakini Əli İsmayılov hər il əkin sahələrindən bol məhsul götürür. İstehsal edilən məhsulun yarısını toxum kimi satan fermer yarısını da bazara çıxarır. Keçən il 20 hektarda kartof əkən fermerin istehsal etdiyi məhsulun 277 tonu yüksək reproduksiyalı olmuşdur.

Əli İsmayılov rəhbərlik etdiyi təsərrüfatda kartofçuluğun inkişafı üçün hər cür şərait yaratmışdır. Təsərrüfatını kartofun əkilməsindən yığımınadək lazım olan bütün texnika ilə təmin edən fermer hətta kartof toxumunun çeşidlənməsi üçün lazım olan aqreqatı quraşdırmış, məhsulun saxlanması üçün anbar inşa etdirmişdir.

Onu da qeyd edək ki, rayonda elə fermerlər var ki, hər hektardan götürdükləri məhsula görə rayon göstəricisini xeyli qabaqlayırlar. Saratovka kəndinin sakini Ramiz Əliyev keçən il 7 hektarda kartof əkmiş, hər hektardan 250 sentnerədək məhsul toplamışdır. Daşbulaq kəndindən Hafiz Fətəliyevin də göstəriciləri yüksək olmuşdur. II dərəcəli "Əmək" ordenli fermer kartof istehsalında daim nümunə göstərir.

Düz Rəsullu kəndində də kartofçuluqda yüksək məhsuldarlıq əldə edən fermerlər çoxdur. Onlardan biri İmran Həsənovdur. Əkin sahələrini 35 hektara çatdıran təsərrüfat sahibi keçən il hər hektardan 230 sentner kartof götürmüşdür.

Hazırda Gədəbəydə kartof əkininə geniş hazırlıq işləri görülür. Texnikalar sazlanaraq sınaqdan keçirilir. Ziyanvericilərə qarşı dərman preparatları, eləcə də məhsuldarlığa kömək edəcək gübrə tədarükü başa çatmışdır. Havaların mülayim keçməsi onu deməyə əsas verir ki, bu il rayonda kartof əkininə tez başlanacaq. Əsasən dəmyə şəraitində yetişdirilən kartof əkininin optimal müddətdə başa çatdırılması üçün rayonda bütün qüvvələr səfərbərliyə alınmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Zərdabda çiyid səpilir

**Zərdab rayonunda çiyid səpini kampaniyasına başlanılıb və qısa vaxtda 915 hektar sahədə əkin aparılıb.**

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, cari mövsümdə istehsalçılarla emal müəssisələri arasında bağlanan müqaviləyə əsasən 2796,2 hektar sahədə çiyid səpini aparılacaq. Hər yerdə, xüsusilə Bəyimli qəsəbə, Yarməmmədbağı, Dəkkəoba və bir sıra digər ərazi vahidlərində səpinə mütəşəkkil hazırlıqla başlanılıb.

Çiyid səpini üçün sahələrə 36 texnika çıxarılıb. Hər yerdə əkinin yüksək aqrotexniki tələblər səviyyəsində aparılması və aprelin sonunadək başa çatdırılması üçün ciddi səy göstərilir.

# Çempion kənd məktəblisi ilə görüş keçirilmişdir

**Bilal Nəzərov 2007-ci ildə Astara rayonunun Təngərüd kəndində anadan olmuşdur. Hazırda Təngərüd kənd tam orta məktəbin IX sinfində oxuyur. Kiçik yaşlarından idmanın boks növü ilə məşğuldur.**

O, dəfələrlə boks üzrə yeniyetmələr arasında açıq şəhər və rayon, eləcə də yeniyetmələr arasında klublararası açıq respublika birinciliklərinin qalibi olmuşdur. Martın 13-də isə Bakıda boks üzrə yeniyetmələr arasında keçirilən Azərbaycan birinciliyində bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülmüşdür.

Bu münasibətlə rayon icra hakimiyyətində çempionla görüş keçirilmişdir. Bildirilmişdir ki, Prezident İlham Əliyev gənclərin hərtərəfli inkişafına, bilikli, bacarıqlı, Vətənə layiqli vətəndaşlar kimi yetişmələrinə, elmi nailiyyətlər qazanmalarına, fiziki cəhətdən sağlam olmalarına xüsusi diqqət və qayğıkeşliklə yanaşır. Dövlət başçısının bu cür nailiyyətlər qazanan gənclərlə görüşləri buna sübutdur.

Bilal Nəzərovun məşqçisi Ayaz Baxşıyev yetirməsinin çevik, çalışqan, tapşırıqların icrasına maksimum səy göstərən bir gənc olduğunu, gələcəyinə inandığını və böyük ümidlər bəslədiyini bildirmişdir.

Sonra Bilal Nəzərova gələcək yarışlarda uğurlar dilənmiş və o, fəxri fərman və qiymətli hədiyyə ilə mükafatlandırılmışdır.

***Safail MƏMMƏDOV,***
***Astara***

# Neftçalada qaramalın sayında artım qeydə alınıb

**Neftçalada kənd təsərrüfatının aparıcı sahələrindən olan maldarlıqda uğurlu nəticələr qazanılıb. Mal-qaranın cins tərkibi daha da yaxşılaşıb, baş sayında və heyvandarlıq məhsulları istehsalında artım qeydə alınıb.**

Rayon statistika idarəsindən AZƏRTAC-a verilən məlumata görə, təsərrüfatlar üzrə aprelin 1-i tarixinə qaramalın sayı 43546 baş olub. Bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 819 baş və ya 1,9 faiz çoxdur.

İnək və camışların sayı keçən ilin eyni dövrü ilə müqayisədə 672 baş və ya 3,1 faiz artaraq 22505 başa çatıb. Qoyun və keçilərin baş sayı isə keçən ilin eyni dövrü ilə müqayisədə 6715 baş və ya 4,9 faiz artaraq 144845 baş olub.

Təsərrüfatlar üzrə 2671,9 ton ət istehsal edilib. Bunun da 1820,1 tonu quş ətidir. 5673,4 ton süd, 3 milyon 642 min ədəd yumurta istehsal edilib.



# İlk "TEKNOFEST AZƏRBAYCAN"

## "Azercell"in baş sponsorluğu ilə keçiriləcək

### 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində baş tutacaq tədbirdə "Azercell"in stendində ən son innovativ həllər də sərgilənəcək

**Türkiyə Texnoloji Takımı Vakfı (T3 Vakfı), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı və "Azercell"in baş sponsorluğu ilə bu ilin 26-29 may tarixlərində ölkəmizdə ilk dəfə olaraq "Teknofest Azərbaycan" aerokosmik və texnologiya festivalı keçiriləcək.**




Baş tutacaq festival çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələrinin keçirilməsi nəzərdə tutulub. Festival zamanı "Smart Qarabağ" Hakatonu, "Take Off Baku" Startap Sammiti və "Rocket League" kiber idman üzrə Avropa çempionatı təşkil olunacaq. Rəqəmsal məhsullar və xidmətlər sərgisi, texnologiya sahəsində müxtəlif yarışma və əyləncəli proqramları özündə birləşdirən bu irimiqyaslı tədbirdə "Azercell Telekom" MMC baş sponsor olmaqla yanaşı, ayrıca stendlə iştirak edəcək. 25 illik fəaliyyəti ərzində Azərbaycana daim qabaqcıl texnologiyaları gətirən "Azercell" şirkəti sərgidə özünün "Bağlantını asanlaşdırır, həyatı dolğun edirik" strateji məqsədini reallaşdıran məhsul və həllərini təqdim edəcək. Festival günlərində "Azercell"in stendinin ziyarətçiləri maraqlı xidmətləri izləməklə yanaşı, hədiyyələr qazandıran müsabiqələrdə iştirak imkanı əldə edəcəklər.

Ümumilikdə sərgidə festivalın tərəfdaş qurumlarının xidmətləri, o cümlədən gənc texnoloqların hazırladıqları prototiplər və STEM layihələrinin nümayişi nəzərdə tutulur. Festivalın açıq səma altında təşkil olunacaq bölməsində pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi planlaşdırılır.

Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin məşhur "Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları daxildir. "Teknofest Azərbaycan" festivalında həmçinin şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. nümayiş etdiriləcək. Ziyarətçilər həmçinin incəsənət xadimlərinin konsertini də izləyə biləcəklər.

2018-ci ildən etibarən keçirilən Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalının məqsədi milli texnologiyaları təbliğ etməklə bu sahədə məlumatlılığı artırmaq, həmçinin gənclərin bilik və bacarıqlarının üzə çıxarılmasına imkan yaratmaqdan ibarətdir.

# "Azərişıq" regionlarda yeni layihəyə start verib

**Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC 2022-ci ildən etibarən regionlarda yeni layihəyə start verib.**

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bu il ərzində ümumilikdə müxtəlif regionları əhatə edən 100-dən çox kənd və yaşayış məntəqəsinin elektrik enerji şəbəkəsi tamamilə yenidən qurulacaq.

Layihə çərçivəsində Ağcabədinin Cəfərbəyli, Mehrablı, Ağabəyli, Şənlik və Qaradolaq kəndlərinin elektrik şəbəkəsi yenidən qurulacaq.

Artıq rayonun Cəfərbəyli, Ağabəyli, Mehrablı kəndlərində işlərə start verilib. Növbəti mərhələdə isə Qaradolaq və Şənlik kəndlərində də işlərə başlanılacaq.

5 kənddə ümumilikdə 79 km-a yaxın 10 kV-luq, 36 km-dən çox 0,4 kV-luq elektrik xətləri yenilənəcək. Müxtəlif güclərdə 24 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq.

Bununla da 5 kəndin ümumilikdə 1784 abonenti keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin ediləcək və itkilərin həcmi minimuma endiriləcək.

Xatırladaq ki, yeni layihə çərçivəsində digər regionlarda da işlər davam edir. Elektrik şəbəkəsi yenidən qurulan növbəti kəndlər haqqında da qarşıdakı günlərdə əlavə məlumatlar veriləcək.

# 2050-ci ildə dünyada qocaların sayı iki dəfə artacaq

### BMT ahıl insanların diqqət və qayğıdan kənarda qalmaması üçün ciddi tədbirlər görülməsini təklif edir

**"Zorakılıq, etinasızlıq və amansız rəftar - yaşlılar bu və digər problemlərlə üzləşir, bununla yanaşı, insan hüquqları sahəsində beynəlxalq sənədlərdən heç biri yaş ayrı-seçkiliyi və ya eycizm (irqçilikdən və cinsiyyətçilikdən sonra üçüncü ən böyük və yaxın gələcək üçün aktual olacaq ayrı-seçkilik) haqqında konkret müddəanı ehtiva etmir".**



Bu barədə BMT-nin İnsan Hüquqları üzrə ali komissarı Mişel Baçelet bildirib.

BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında Qocalma problemləri üzrə işçi qrupu qarşısında çıxış edən Mişel Baçeletin sözlərinə əsasən, bu gün, həmişəki kimi yaşlı insanların öz hüquqlarından tam istifadə etmək üçün daha etibarlı müdafiəyə ehtiyacı var. Amma reallıq belədir ki, ayrı-seçkilik olmadan hamını müdafiə etməli olan beynəlxalq hüquqi çərçivələr, əksinə, yaşlı insanları "görünməz" edir.

### Ahıllaşan əhali 15-24 yaş arası gənclərin sayını üstələyəcək

BMT-nin İnsan Hüquqları üzrə ali komissarı qeyd edib ki, 2050-ci ilə qədər 65 yaşlı insanların sayı indikindən iki dəfə çox olacaq və 15-24 yaş arası gənclərin sayını üstələyəcək. Bəs belə olan halda hansı problemlər yarana bilər?

Təbii ki, bu durumda ahıl insanlar diqqətdən kənarda qalar və həmçinin onların işsiz qalmaq təhlükəsi yarana bilər. Yaşlı insanların hər yerdə layiqli həyatla təminatını vacib məsələ hesab edən Baçelet dünya ölkələrini ahıl insanlarla zorakılığa, etinasızlığa və qəddar rəftara son qoymaq üçün tədbirlər görməyə çağırıb: "Gələcəkdə yaşlı insanlar fəal çalışmaq, davamlı inkişafa öz töhfələrini vermək imkanına malik olmalıdırlar".

### İqlim dəyişikliyi də yaşlıların sağlamlıq problemlərinə təsir edir

Ali komissar deyir ki, COVID-19-dan həlak olmuş 6 milyon insanın əksəriyyəti ahıllardır.

"Böhran yaş əlamətinə görə ayrı-seçkiliyin yoxsulluq və marginallaşmanı necə yaratdığını və daha da dərinləşdirdiyini, insan hüquqları sahəsində riskləri necə artırdığını nümayiş etdirdi. Yaşlı insanlar bizim dəstəyimizə ən çox ehtiyac duyduqları anda cəmiyyətdən kənarda qaldılar", - deyə o, bildirib.

İqlim dəyişikliyi də yaşlıların daha çox sağlamlıq problemləri ilə üzləşməsinə səbəb olub, habelə qida, su və sanitariya infrastrukturlarına əlçatma və yaşlılıq dövründə qazanc imkanlarını itirmək risklərini artırıb.

### Eycizmin geniş yayılması

BMT rəsmisinin dediyinə görə, eycizm hər yerdə yayılıb. Bu halın və ayrı-seçkiliyin nəticəsi olan stereotiplər son dərəcə zərərlidir və hətta təhlükəli ola bilər. Onlar yaşlı insanların zəifliyini əhəmiyyətli dərəcədə artırır və insan hüquqlarının həyata keçirilməsi üçün əsas maneələrdən biridir.

Hazırda BMT-nin insan hüquqları sahəsində qəbul etdiyi müqavilələrin heç birində yaş ayrı-seçkiliyi və ya eycizm haqqında konkret müddəa yoxdur.

"Biz buna qarşı mübarizə aparmalıyıq. BMT-nin Baş katibi "Ümumi gündəliyimiz" adlı məruzəsində insan hüquqlarına əsaslanan ictimai müqavilənin yenilənməsinə çağırıb. Yaşlı insanlar bu prosesin ayrılmaz bir hissəsidir", - deyə ali komissar vurğulayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## Lənkəran Dövlət Universiteti açıq tender (e-tender) elan edir

Tender 1 LOT üzrə keçirilir: LDU-nun 2-ci tədris korpusunun əsaslı təmiri işlərinin satın alınması

Tender iştirakçıları **https://www.etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün Portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

İştirak haqqı - 1000.00 (bir min) AZN

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);

2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);

3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);

4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (arayış 2022-ci ilin mart-aprel ayları ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);

5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);

6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Bank arayışı 2022-ci ilin mart-aprel ayları ərzində verilmiş olmalıdır;

7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatları);

8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması. Malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir);

9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);

10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin mart-aprel ayları ərzində verilmiş olmalıdır;

11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması. Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin mart-aprel ayları ərzində verilmiş olmalıdır;

12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; məhkumluq haqqında arayış (DİN və ya "ASAN xidmət" mərkəzlərindən);

13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;

14. Digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 may 2022-ci il saat 17:00-a qədər,** tender təklifi və bank təminatını isə **16 may 2022-ci il saat 17:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **17 may 2022-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### dənizdə və quruda yükqaldırıcı, yedəkləmə avadanlıqlarının yoxlanılması, təmiri, testi və sertifikatlaşması xidmətlərinin (AM074/2022) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 aprel 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Hüseynov küç, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün təsərrüfat mallarının satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Tender komissiyasının 05 aprel 2022-ci il tarixli qərarına əsasən fərdi sahibkar RAFİQ ƏSƏD OĞLU NƏSİBOV qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

***"Günay Kənd Təsərrüfatı Məhsulları" ("Çarxı Quşçuluq" Açıq Tipli Səhmdar Cəmiyyətinin hüquqi varisi) Açıq Səhmdar Cəmiyyətinə məxsus (VÖEN: 7700041021) Dövlət Əmlak Komitəsinin 9 fevral 1997-ci il tarixli 230 saylı sərəncamı ilə təsdiq edilmiş Özəlləşdirmə Planının (emissiya prospekti) əsli itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisi İşlər İdarəsinin kollektivi iş yoldaşları Ədalət Kərimova atası

**SABİR KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisi İşlər İdarəsinin kollektivi iş yoldaşları Qəhrəman Qəhrəmanova anası

**RƏHİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri və əməkdaşları komitənin üzvü Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri Əməkdar elm xadimi, akademik

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Anar İsgəndərova qardaşı

**ƏSƏD İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Sağlamlığın mühafizəsi və sosial təminat şöbəsinin müdiri

**ƏLİ ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi AMEA-nın həqiqi üzvü

**TEYMUR BÜNYADOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektoru və Həmkarlar İttifaqı Komitəsi Milli Məclisin deputatı Anar İsgəndərova qardaşı

**ƏSƏD CAMAL OĞLU İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5714
Sifariş 984
Qiyməti 40 qəpik